

**Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**

*Ümummilli Lider HEYDƏR ƏLİYEV*

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti 29 noyabr 2024-cü il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

**BDU nümayəndə heyəti “QS Ali Təhsil Pre-sammiti: Asiya Sakit Okean 2024”də iştirak edib**

→Səh.2

**BDU və AMEA-nın Arxeologiya və Antropologiya İnstitutu birgə elmi tədqiqatlar aparacaq**

→Səh2

**Azərbaycanda ilk “TələbəPlus” kartları BDU tələbələrinə təqdim edildi**

→Səh.3

**BDU və Mətbuat Şurası COP29 ərəfəsində Azərbaycana qarşı informasiya hücumlarının məqsədlərinə dair dəyirmi masa keçirib**

→Səh.6

**“Deputatlar üçün iqlim dəyişmələrinə dair bələdçi”nin Azərbaycan dilindəki nüsxəsinin təqdimat mərasimi keçirilib**

→Səh.9

**BDU-nun 105 illik yubileyi çərçivəsində fakültələrin təqdimatı: Mexanika-riyaziyyat fakültəsi**

→Səh.12



**BDU və Qazax Milli Tədqiqat Texniki Universiteti arasında əməkdaşlıq əlaqələri daha da genişləndirilir**

→Səh.2



**Vyetnamın Jurnalistika və Kommunikasiya Akademiyasının direktoru Fam Min Sonun rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da**

→Səh.2



**BDU və Əl-Fərabi adına Qazax Milli Universitetinin rektorları arasında görüş keçirilib**

→Səh.3



**Beynəlxalq elmi konfrans: “Qarabağ və Zəngəzurun mədəni irsi arxeoloji tədqiqatlarda”**

→Səh.4



**BDU-da Vətən müharibəsi qazisi ilə görüş**

→Səh.15




## BDU-nun yeni unikal layihəsi – Universitetdə “EKO MƏKAN”

*Noyabrın 14-də Azərbaycan qlobal enerji və ekoloji təhlükəsizliyin təmin edilməsi və “yaşıl iqtisadiyyat”a keçid üçün strateji mexanizmlərin işlənib hazırlanması məsələlərində fəal mövqe tutur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Fərmanı ilə təsdiq olunmuş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də “Təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi” beş əsas Prioritetdən biri götürülüb.*

Son illərdə Bakı Dövlət Universitetində də ətraf mühitin mühafizəsi, iqlim dəyişmələri ilə mübarizə istiqamətində aparılan elmi-tədqiqat işləri genişlənir, ekoloji maarifləndirmə və ekoloji məsuliyyətin artırılması üçün müxtəlif layihələr həyata keçirilir. BDU-nun alim və müəllimləri, yaradıcı tələbələri bu sahələr üzrə elm və təhsil platformasında birləşərək ekoloji problemlərin araşdırılması və həlli yollarının axtarılmasında fəal iştirak edirlər. Elm, innovasiya və təhsil ocağı kimi Universitet tələbə təşəbbüslərinin və “yaşıl iqtisadiyyat” sahəsində gənclər hərəkatının inkubasiya və akselerasiya mərkəzinə çevrilməyi qarşısına hədəf kimi qoyub. BDU dayanıqlı inkişaf üzrə ideyaların təşviqində fəal iştirak edir, Universitetdə ekoloji təhsil və tədqiqata, habelə ekoloji mədəniyyətin təşviqinə əsaslanan yeni təhsil proqramları yaradılır, enerji və resurs qənaətinə əsaslanan həllər tətbiq olunur, innovativ konsepsiyalı eko-məkan və sahələrin yaradılması yolu ilə müxtəlif dəyişikliklər həyata keçirilir.

2024-cü ildə BDU Ali Təhsildə Dayanıqlılığın İnkişafı Assosiasiyasına (The Association for the Advancement of Sustainability in Higher Education) üzv qəbul olunub. Qeyd edək ki, 2005-ci ildə yaradılmış Assosiasiya dünyanın 22 ölkəsindən olan 900-dən çox ali təhsil müəssisəsi və qeyri-kommersiya təşkilatını özündə birləşdirir, professor-müəllim heyətinə və tələbələrə dayanıqlı innovasiyaların iştirakçısı olmaq imkanı yaradır.

BDU ekoloji problemlərin həlli üzrə elmi-pedaqoji kadr potensialı və infrastrukturunu daim təkmilləşdirir və inkişaf etdirir. Universitetdə 5 kafedradan ibarət Ekologiya və torpaqşünaslıq fakültəsi, Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzində Ekoloji kimya və ətraf mühitin mühafizəsi elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərir. 2024-cü ildə ətraf mühitin mühafizəsi əleyhinə törədilmiş qeyri-qanuni əməllərin araşdırılması, bu sahədə yol verilmiş qanun pozuntularının qarşısının alınması, toplanmış bilik və məlumatların paylaşılması məqsədilə Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə birgə BDU-nun nəzdində ECOLEAD Klinikası yaradılıb. Universitetdə bakalavriat səviyyəsinin “Ekologiya” və “Ekologiya mühəndisliyi” ixtisasları və magistratura səviyyəsinin “Ekologiya hüququ”, “Ətraf mühit kimyası”, “Ekoloji kimyəvi monitorinq”, “Ekoloji kimya”, “Ekoloji biologiya”, “Biomüxtəliflik və təbiətin mühafizəsi”, “Bioekologiya”, “Ətraf mühitin mühafizə metodları və bərpası” və s. ixtisaslaşmaları üzrə kadr hazırlığı həyata keçirilir.

*(ardı 8-ci səhifədə)*

## BDU-da ilk dərs günündən 105 il keçir

→Səh.18

# BDU və Qazax Milli Tədqiqat Texniki Universiteti arasında əməkdaşlıq əlaqələri daha da genişləndirilir



***Noyabrın 1-də BDU-nun rektoru Elçin Babayev və Satbayev adına Qazax Milli Tədqiqat Texniki Universitetinin (QMTTU) rektoru Meyram Beqentayev arasında elmi-texniki əməkdaşlıq və qarşılıqlı inkişaf perspektivlərinə dair görüş keçirilib.*** Görüşün məqsədi iki ali təhsil müəssisəsi arasında qurulmuş tərəfdaşlıq əlaqələrini genişləndirmək, birgə layihələr həyata keçirmək və elmi-texniki inkişaf sahəsində müasir yanaşmaların tətbiqinə dair fikir mübadiləsi aparmaq olub.

QMTTU-nun rektoru ilk olaraq Qazaxıstanın mühəndislik, texniki elmlər və tədqiqat sahəsində lider mövqeyindən bəhs edib. O, universitetin müasir texnologiyalara əsaslanan tədris və tədqiqat istiqamətlərinin uğurla həyata keçirildiyini, həmçinin Azərbaycanla təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi üçün geniş imkanlar olduğunu vurğulayıb.

BDU-nun regionun lider ali təhsil müəssisələrindən biri olduğunu vurğulayan rektor Elçin Babayev isə Universitetin tədris və tədqiqat sahəsində son illərdə əldə etdiyi uğurlar barədə ətraflı məlumat verib. O, iki ölkə arasında mövcud olan möhkəm əlaqələrin təhsildə və elmdə də dərinləşdirilməsinin vacibliyini qeyd edib.

Görüş zamanı tərəflər arasında müxtəlif sahələr üzrə mövcud əməkdaşlıq istiqamətləri, xüsusilə də BDU-nun Kimya fakültəsi və QMTTU-nun Kimya və Bioloji Texnologiyalar İnstitutunun magistratura proqramı bazasında "Neft kimyası" ixtisaslaşması üzrə magistratura səviyyəsində birgə ikili diplom proqramının icra vəziyyəti müzakirə olunub. Bundan başqa, tərəflər iki universitet arasında elmi tədqiqatların və innovativ layihələrin həyata keçirilməsinə dair xüsusi yeni əməkdaşlıq proqramlarının yaradılmasının əhəmiyyətini vurğulayıb. Xüsusilə materialşünaslıq, enerji effektivliyi, informasiya texnologiyaları və nanomateriallar sahələrində birgə tədqiqatların aparılması nəzərdə tutulur. BDU-nun və QMTTU-nun tələbə və müəllim heyətinin mübadiləsi üçün ikitərəfli proqramlar yaratmaq barədə razılığa gəlinib. Bu proqramlar çərçivəsində tələbə və müəllimlər bilik və bacarıqlarını artırmaq, yeni metodik təcrübələrdən faydalanmaq imkanı əldə edəcəklər. Görüşdə həmçinin, müasir texniki ixtisaslar üzrə birgə yeni ikili diplom proqramlarının yaradılması istiqamətində əməkdaşlıq təklifləri müzakirə olunub. Bu proqramlar tələbələrə hər iki universitetin akademik dərəcələrini əldə etmək imkanı yaradacaq və onların beynəlxalq səviyyədə rəqabət qabiliyyətini artıracaq. Tərəflər elmi konfranslar, seminarlar və simpoziumların birgə keçirilməsinə dair razılıq əldə edib. Bu tədbirlərdə dünya üzrə aparıcı elm adamları və tədqiqatçılar da iştirak edərək, iki universitetin tələbələri və tədqiqatçıları ilə təcrübə mübadiləsi apara biləcəklər.

Görüşün sonunda BDU rektoru Azərbaycan və Qazaxıstan arasında mövcud olan dostluq və qardaşlıq əlaqələrinin elm və təhsildə də öz əksini tapmasının əhəmiyyətini qeyd edib. O, QMTTU ilə əməkdaşlığın hər iki ölkənin gələcək elmi inkişafına böyük töhfə verəcəyini vurğulayıb. QMTTU-nun rektoru isə bu əməkdaşlığın təhsil sahəsində innovativ layihələrin reallaşmasına, elmi mühitin daha da zənginləşməsinə yol açacağını bildirib.

Qeyd edək ki, bu görüş iki universitet arasında strateji əməkdaşlıq platformasının yaradılması istiqamətində mühüm addım olaraq dəyərləndirilir. Görüşün sonunda hər iki rektor öz məmnunluqlarını ifadə edib və gələcəkdə daha dərin əlaqələrin qurulmasının vacibliyini vurğulayıblar.

# Vyetnamın Jurnalistika və Kommunikasiya Akademiyasının direktoru Fam Min Sonun rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da



***Noyabrın 7-də Vyetnamın Ho Şi Min adına Siyasət və Dövlət İdarəçiliyi üzrə Milli Akademiyasının tabeliyində fəaliyyət göstərən Jurnalistika və Kommunikasiya Akademiyasının direktoru Fam Min Sonun rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da olub.***

BDU rektoru Elçin Babayev qonaqlara Universitetin tarixi və fəaliyyəti barədə məlumat verib. O bildirib ki, 105 illik tarixə malik BDU Azərbaycanın ən böyük və qədim universitetidir. Tədqiqat istiqamətinə xüsusi önəm verən BDU-nun Hirş indeksi artıq 68-ə çatıb. 25 minə yaxın tələbəsi olan BDU-nun 16 fakültəsi, bir kolleci, bir liseyi, Qazax filialı fəaliyyət göstərir. Təhsil-elm-tədqiqat-innovasiya mərkəzlərindən birinə çevrilməkdə olan BDU-da elmin bütün sahələri üzrə kadr hazırlığı həyata keçirilir.

Vyetnamın Ho Şi Min adına Siyasət və Dövlət İdarəçiliyi üzrə Milli Akademiyasının tabeliyində fəaliyyət göstərən Jurnalistika və Kommunikasiya Akademiyasının direktoru Fam Min Son birgə beynəlxalq konfransların keçirilməsi, müəllim-tələbə mübadiləsi üzrə əməkdaşlıqda maraqlı olduqlarını vurğulayıb. Qeyd edib ki, Jurnalistika və Kommunikasiya Akademiyası Vyetnamın Hanoy şəhərində yerləşir. Akademiya 1962-ci ildə təsis edilib və hazırda Ho Şi Min adına Siyasət və Dövlət İdarəçilik Akademiyasının nəzdində fəaliyyət göstərir. Akademiyada təhsil Vyetnam və ingilis dillərində həyata keçirilir. Görüşdə tərəflər arasında mümkün əməkdaşlığın detalları müzakirə edilib.

# BDU nümayəndə heyəti "QS Ali Təhsil Pre-sammiti: Asiya Sakit Okean 2024"də iştirak edib

***Noyabrın 1-də Əl-Fərabi adına Qazax Milli Universitetində dünyanın ən nüfuzlu reytinq təşkilatlarından biri olan "QS" Beynəlxalq Reytinq Agentliyinin təşkilatçılığı ilə "QS Ali Təhsil Pre-sammiti: Asiya Sakit Okean 2024" keçirilib.***

Pre-sammitin açılış panelində Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova Azərbaycan elm və ali təhsili barədə təqdimatla çıxış edib. Paneldə Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında cari əlaqələr müzakirə olunub və mümkün gələcək əməkdaşlıq perspektivləri vurğulanıb.

Azərbaycanın 8 aparıcı ali təhsil müəssisəsi pre-sammitdə təmsil olunub. Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevin rəhbərlik etdiyi nümayəndə heyəti də pre-sammitdə iştirak edib. Bununla yanaşı, BDU-nun rektoru Elçin Babayev pre-sammitdə dünyanın ən nüfuzlu reytinq təşkilatı olan QS-ə müsahibə verib.

17 ölkədən nümayəndə heyətinin təmsil olunduğu pre-sammitin rəsmi açılış hissəsində Qazaxıstan Prezidentinin müşaviri, Qazaxıstanın elm və ali təhsil naziri, "QS" Beynəlxalq Reytinq Agentliyinin rəhbərliyi iştirak edib.

# BDU və AMEA-nın Arxeologiya və Antropologiya İnstitutu birgə elmi tədqiqatlar aparacaq



***Noyabrın 5-də BDU və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Arxeologiya və Antropologiya İnstitutu arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.***

Memorandumu BDU rektoru Elçin Babayev və AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun direktoru Fərhad Quliyev imzalayıb.

Memorandumda BDU və AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun arxeologiya, antropologiya, tarix və mədəni irsin öyrənilməsi sahəsində birgə elmi tədqiqatlar aparması, təhsilalan və tədqiqatçılar üçün sahə işləri, laboratoriya təcrübələri və elmi araşdırmalarda iştirak imkanlarının yaradılması, tərəflərin resurslarından istifadə edərək tədris və təlim proqramlarının təkmilləşdirilməsi, müştərək təlimlərin təşkil olunması nəzərdə tutulur. Memorandumda BDU tələbələrinin arxeoloji qazıntı sahələrində praktika, İnstitutun mütəxəssislərinin isə universitetdə dərslər keçməsi, arxeologiya və antropologiyanın müasir problemlərinə həsr olunmuş ortaq seminar və konfransların təşkili, tərəflərin birgə beynəlxalq layihələrə və tədqiqat proqramlarına qoşulması, müvafiq xarici qurumlarla əlaqələrin genişləndirilməsi məsələləri də əks olunub.

# BDU-da Türkiyənin Üsküdar Universitetinin rektoru ilə görüş

***Noyabrın 7-də BDU-nun rektoru Elçin Babayev Türkiyənin Üsküdar Universitetinin rektoru Nazife Güngörlə görüşüb.***

Rektor Elçin Babayev iki universitet arasında səmərəli əməkdaşlıq əlaqələrinin olduğunu vurğulayıb. Xüsusilə jurnalistika sahəsində Üsküdar Universitetinin böyük təcrübəsinin BDU-da jurnalist kadrların hazırlanmasında faydalı olacağını qeyd edib. Rektor digər sahələr üzrə də əməkdaşlıq imkanlarının olduğunu xatırladıb.

Rektorlar Üsküdar Universitetinin professor-müəllim heyətinin BDU-da tədris prosesinə cəlb olunması ilə bağlı razılığa gəlib, jurnalistika üzrə magistratura səviyyəsində ikili diplom proqramının hazırlanması istiqamətində görülən işləri müzakirə ediblər.

Görüşdə Üsküdar Universitetinin gələn ilin may ayında BDU ilə birgə keçirmək istədiyi beynəlxalq simpoziumla bağlı da müzakirələr aparılıb.

# BDU və Əl-Fərabi adına Qazax Milli Universitetinin rektorları arasında görüş keçirilib

***Noyabrın 2-də BDU-nun rektoru Elçin Babayev və Əl-Fərabi adına Qazax Milli Universitetinin (QMU) rektoru Janseit Tuymebayev arasında görüş keçirilib.***



Görüşdə hər iki universitet arasında mövcud əməkdaşlığın möhkəmləndirilməsi və yeni istiqamətlərdə inkişaf etdirilməsi barədə geniş müzakirələr aparılıb. İki universitet arasında 2020-ci ildə imzalanmış müqaviləyə əsasən həyata keçirilən “Dəniz və enerji hüququ” ixtisaslaşması üzrə ikili diplom proqramının uğurları vurğulanıb. Bu proqram çərçivəsində magistratura səviyyəsində ingilis dilində birgə tədris prosesi aparılır. Tələbələrə iki universitetin resursları və təcrübəsi əsasında yüksək keyfiyyətli təhsil almaq imkanı yaradılır.

Rektorlar Elçin Babayev və Janseit Tuymebayev bu proqramın regionda hüquq təhsili sahəsində beynəlxalq səviyyədə tanınmış mütəxəssislər yetişdirmək baxımından əhəmiyyətini vurğulayıblar. Tərəflər proqramın daha da inkişaf etdirilməsi və yayılması imkanlarını müzakirə ediblər.

Görüşdə BDU və QMU-nun müştərək tədqiqat layihələri ilə bağlı gələcək planları da müzakirə olunub. Elmi əməkdaşlığın genişləndirilməsi üçün birgə elmi tədqiqatların təşkili, ortaq simpozium və konfransların keçirilməsi qərarlaşdırılıb. Hər iki universitetin tədqiqat imkanlarını birləşdirməklə, elmin aktual sahələrində innovativ həllərin tapılması üçün vacib platforma yaratmağın əhəmiyyətindən bəhs olunub.

Rektorlar tələbə və müəllim mübadiləsinin də əhəmiyyətini qeyd ediblər. Onlar mübadilə proqramlarının hər iki universitetin tələbələrinin beynəlxalq təcrübə qazanması, ümumi dünyagörüşlərinin genişlənməsi və mədəniyyətlərarası dialoqun inkişafı baxımından əhəmiyyətli olduğunu vurğulayıblar. Rektorlar iki universitet arasında qarşılıqlı təhsil və elm layihələrinin həyata keçirilməsi üçün uyğun imkanların yaradılması və əməkdaşlıq sahəsində müxtəlif fəaliyyətlərin təşkili barədə də fikir mübadiləsi aparıblar.

Bu görüş universitetlər arasında əməkdaşlığın inkişafı istiqamətində mühüm addım kimi qiymətləndirilir və Azərbaycan-Qazaxıstan elm və təhsil münasibətlərinin daha da möhkəmlənməsinə töhfə verəcək.

# Azərbaycanda ilk “TələbəPlus” kartları BDU tələbələrinə təqdim edildi

***BDU-da “TələbəPlus” kartlarının təqdimetmə mərasimi keçirilib. “TələbəPlus” kartları ilk dəfə olaraq BDU-nun 14 tələbəsinə təqdim olunub.***



Mərasimdə çıxış edən BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, Təhsilin İnkişafı Fondunun (TİF) reallaşdırdığı bu layihə gənclərin təhsil həyatında önəmli rol oynayacaq: “Təhsilin İnkişafı Fondu yarandığı gündən tələbəyönümlü müxtəlif layihələr həyata keçirir. “TələbəPlus” kartlarının verilməsi də bu uğurlu layihələrdən biridiir. Ali təhsil müəssisələri yaradılan imkandan kifayət qədər bəhrələnəcək. Bu kartlar tələbələrə ən müxtəlif istiqamətlərdə geniş imtiyazlar təqdim edəcək. Tələbələr təhsil, səhiyyə, mədəniyyət, nəqliyyat və digər xidmətlərlə bağlı endirimlərdən faydalana biləcəklər”. Rektor “TələbəPlus” kartlarının ilk dəfə olaraq BDU tələbələrinə verilməsinin simvolik mənası olduğunu diqqətə çatdırıb. BDU ölkənin ən böyük və qədim ali təhsil müəssisəsi kimi ən çox tələbə kontingentinə malikdir. BDU müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin məzunu olduğu ali məktəbdir.

TİF-in İdarə Heyətinin sədri Elnur Nəsibov “TələbəPlus” kartlarının ilk istifadəçiləri olan BDU tələbələrini təbrik edib. O bildirib ki, bir ildən artıq üzərində çalışdıqları layihə artıq reallaşıb: “BDU tələbələri “TələbəPlus” kartlarının ilk istifadəçiləri olacaqlar. Təhsilin İnkişafı Fondu daim dövlət-özəl tərəfdaşlığı, universitet-sənaye işbirliyinə xüsusi önəm verib. Təhsil sahəsində aparılan islahatlar ölkədə ali təhsilə əlçatanlığı ən yüksək səviyyəyə çatdırıb. Bu il ilk dəfə ali təhsil alanların sayı 250 min nəfər olub. Bunu nəzərə alaraq, 250 min tələbə üçün tələbə kartları gətiriləcək. Növbəti mərhələdə bu, peşə və orta ixtisas təhsilinə də şamil ediləcək. Növbəti tədris ilində isə təhsil sahəsində çalışan əməkdaşlar da layihədən yararlana biləcəklər”.

Fondun İdarə Heyətinin sədri diqqətə çatdırıb ki, indiyədək 200-dən artıq şirkətdə - pərakəndə satış, geyim, yemək, qida sahələri üzrə tələbələrin ən çox müraciət etdikləri yerlərdə güzəşt və imtiyazların, endirimlərin edilməsinə nail olunub. Mədəniyyət Nazirliyi ilə imzalanan müqaviləyə əsasən, mədəniyyət obyektləri, muzeylər, sərgi salonlarından istifadədə də güzəştlər olacaq. Gələcəkdə idman, səhiyyə, nəqliyyat sahələrində də xidmətlər “TələbəPlus”a qoşulacaq.

“Kapital Bank”ın Korporativ satışlar departamentinin direktoru Qara Əbdülrəhmanov, ”Visa”nın Azərbaycan üzrə ölkə meneceri Nurlan Hacıyev, “TələbəPlus” kartına layiq görülən “Hüquqşünaslıq” ixtisası üzrə I kurs tələbəsi Məhəmməd Qasımov çıxışlarında kartın üstünlükləri və tələbələrə maksimum imkanlar yaradacağını qeyd ediblər.

Tədbirin sonunda qəbul imtahanlarında ən yüksək bal toplayaraq BDU-ya qəbul olan 14 nəfər I kurs tələbəsinə “TələbəPlus” kartı təqdim olunub.

# Azərbaycan Mətbuat Şurası və Bakı Dövlət Universitetinin birgə BƏYANATI

***Biz, Azərbaycan Mətbuat Şurası və Bakı Dövlət Universitetinin birgə keçirdiyi “İnformasiya müharibəsi: COP29 ərəfəsində Azərbaycana qarşı informasiya hücumlarının mahiyyət və məqsədləri” mövzusunda dəyirmi masanın iştirakçıları dəyirmi masada aparılan müzakirələri və səslənən fikirləri əsas tutaraq aşağıdakıları bəyan edirik:***

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının hər il bir ölkədə keçirilən sessiyaları dünyanın ən mötəbər tədbirlərindən biridir. Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının 2024-cü il 11-22 noyabr tarixlərində Bakıda keçirilməsi barədə yekdil qərarın qəbul edilməsi dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən ölkəmizə göstərilən etimadın bariz nümunəsidir. Bu gün Azərbaycan COP29 konfransının ən yüksək səviyyədə təşkili və üzərinə düşən missiyanın layiqincə yerinə yetirilməsi üçün bütün imkanlarını səfərbər edib. Əminik ki, COP29 yüksək səviyyədə, nümunəvi şəkildə təşkil olunacaqdır.

Lakin eyni zamanda bəyan edirik ki, Azərbaycan dövlətinin son illər əldə etdiyi uğurlar, beynəlxalq arenada nüfuzunun gündən-günə artması, qlobal təşəbbüslərin əsas iştirakçılarından birinə çevrilməsi bəzi xarici ölkələri və beynəlxalq təşkilatları, xüsusilə ermənipərəst qüvvələrin təsiri altında olan dairələri hədsiz qıcıqlandırır. Bizim əldə etdiyimiz uğurları, xüsusilə 44 günlük Vətən müharibəsində əldə etdiyimiz böyük Zəfəri, ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa olunmasını həzm edə bilməyən bu dairələr mütəmadi olaraq ölkəmizə qarşı informasiya hücumları, diversiyalar aparır, dövriyyəyə dezinformasiyalar buraxırlar. Xüsusilə COP29 ərəfəsində aktivləşən müxtəlif siyasi dairələrdən edilən bu hücumlar, təhdidlər, çirkin kampaniyalar bizi qarşımızda duran hədəflərdən yayındırmaq, ölkəmizin artan nüfuzuna və BMT-nin mötəbər tədbirinə kölgə salmaq məqsədi daşıyır. Azərbaycanla bağlı qərəzli və həqiqətə uyğun olmayan məlumatların məqsədyönlü şəkildə yayılmasına çalışan bu qüvvələr ölkəmizə qarşı hibrid təhdidlərin təşkilini hədəf götürərək iqlim dəyişmələri, ətraf mühitin mühafizəsi və bir sıra ekoloji problemlərin müzakirəsini və müvafiq qərarların qəbul edilməsini nəzərdə tutan bu beynəlxalq tədbiri bütün vasitələrlə siyasiləşdirməyə çalışırlar. Prosesdə dünyanın bir sıra aparıcı media orqanlarının iştirakı isə dərin təəssüf hissi doğurur.

Biz, bütün bunları nəzərə alaraq, Azərbaycanın media vasitələrini COP29-la bağlı ölkəmizə qarşı aparılan informasiya diversiyalarına münasibətdə ayıq-sayıq davranmağa, belə xoşagəlməz təmayüllərin gerçək mahiyyəti barədə vətəndaşlarımızı və dünya ictimaiyyətini operativ məlumatlandırmağa çağırırıq.

Biz, eyni zamanda, dünyanın aparıcı media orqanlarını, ümumən söz və ifadə azadlığının təəssübünü çəkən media qurumlarını Azərbaycana qarşı informasiya diversiyalarına, məqsədli dezinformasiya tədbirlərinə obyektiv və adekvat qiymət verməyə, bu kimi halların aradan qaldırılması üçün həmrəyliyə çağırırıq.

# BDU-da Beynəlxalq elmi konfrans: “Qarabağ və Zəngəzurun mədəni irsi arxeoloji tədqiqatlarda”

***Noyabrın 5-də BDU və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Arxeologiya və Antropologiya İnstitutunun birgə təşkilatçılığı ilə görkəmli arxeoloq, tarix elmləri doktoru, professor Qüdrət İsmayılzadənin 90 illik yubileyinə həsr olunmuş “Qarabağ və Zəngəzurun mədəni irsi arxeoloji və etnoqrafik tədqiqatlarda” mövzusunda Beynəlxalq elmi konfrans keçirilir.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, daha sonra Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransda çıxış edən rektor Elçin Babayev BDU-nun elmi məktəbləri arasında arxeologiya məktəbinin özünəməxsus yer tutduğunu qeyd edib. Bu məktəbin ən yaxşı nümayəndələrindən biri də tanınmış arxeoloq alim Qüdrət İsmayılzadədir: “Ötən əsrin və dövrümüzün böyük arxeoloqlar nəslinin yetişməsində yaxından iştirak edən, tariximizin ən müxtəlif dövrlərinə işıq salan Qüdrət İsmayılzadənin tədqiqatları, araşdırmaları bu gün də təhlil edilir və öyrənilir. Onun Azərbaycanda antik dövrə aid ilk yaşayış məskəni olan “Qaraköpəktəpə yaşayış yeri”ndəki tədqiqatlara, həmçinin Qarabağda, Quruçay və Köndələnçay vadilərində arxeoloji abidələrin axtarış və qeydə alınması məqsədi ilə yaradılan ekspedisiyaya rəhbərlik etməsi həmin dövrün araşdırılması baxımından böyük töhfə idi. Qüdrət müəllim öz işinin ustası idi. Belə insanların işini davam etdirməliyik. Bu baxımdan hazırda bizim əsas qayəmiz böyük qələbəmizdən sonra azad edilmiş ərazilərdə aparılan arxeoloji tədqiqat və elmi araşdırma işlərində BDU tələbələrinin yaxından iştirak etməsidir. Çünki araşdırılmağa, öyrənilməyə və tanıdılmağa ehtiyacı olan abidələrimiz var”.



Arxeoloq olmağın həkim dəqiqliyi tələb etdiyini deyən rektor bu cür tədbirlərin əsas məqsədinin görkəmli alimlərin həyat yoluna işıq salmaq, gənc nəslin qeyd edilən sahəyə marağını artırmaq olduğunu bildirib.

Sonra Qüdrət İsmayılzadənin həyat yolu ilə bağlı videoçarx nümayiş etdirilib.

AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun direktoru Fərhad Quliyev konfransın mövzusunun günümüzün reallıqları ilə səsləşdiyini, Qarabağ və Zəngəzurda 30 illik işğal dövründə silinməyə çalışılan tarixi izlərin öyrənildiyini qeyd edib: “Ölkəmizin arxeologiya elminə böyük töhfələr vermiş, əsas tədqiqat sahəsi Qarabağ olmuş Qüdrət İsmayılzadənin 90 illik yubileyində məhz bu mövzunun işlənməsi əlamətdar hal daşıyır. Qüdrət İsmayılzadə təkcə Azərbaycan deyil, dünya arxeoloqları tərəfindən də tanınan və istinad edilən böyük alim idi. Təsadüfi deyil ki, alman arxeoloqların dəvəti ilə Türkiyənin Çanaqqala şəhəri yaxınlığındakı antik Troya qazıntılarında iştirak etməsi Qüdrət müəllimin böyük tədqiqatçı olmasından xəbər verirdi. O, elmimizdə tanınmış Qafqazşünas alim kimi qalıb. Hazırda azad edilmiş ərazilərdə aparılan elmi tədqiqat işlərində yaxından iştirak edir, öyrəndiklərimizi tətbiq edirik”.

Milli Məclisin (MM) Elm və təhsil komitəsinin sədri, BDU-nun Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri, professor Anar İsgəndərov, MM-in üzvü, “ADA” Universitetinin prorektoru Fariz İsmayılzadə böyük müəllim, elm adamı olan Qüdrət İsmayılzadənin tələbələr üçün əsl məktəb yaratdığını bildiriblər. Professorun elmi yaradıcılığına toxunaraq, əsərlərindən, tələbəlik illərindəki xatirələrindən söz açıblar.

Daha sonra çıxış edən BDU-nun Tarix fakültəsinin dekanı, professor İbrahim Zeynalov, professor Hidayət Cəfərov, Arxeologiya və etnoqrafiya kafedrasının müdiri, professor Tarix Dostiyev və Qüdrət İsmayılzadənin qızı, Şərqşünaslıq fakültəsinin elmi işlər üzrə dekan müavini, dosent Nigar İsmayılzadə Qüdrət İsmayılzadənin Azərbaycan elmində oynadığı roldan, müasir arxeoloji çağırışlardan danışıblar.

Beynəlxalq konfrans öz işini noyabrın 6-da başa çatdıracaq.

# BDU və “Zəfər” Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin təşkilatçılığı ilə tədbir: “Əbədi qəhrəmanlar”





***Noyabrın 7-də BDU və “Zəfər” Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin təşkilatçılığı ilə 8 noyabr – Zəfər Gününə həsr olunmuş “Əbədi qəhrəmanlar” adlı tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, tariximizin ən qüdrətli səhifələrindən olan Zəfər Günü gələcək nəsillərə vətənpərvərlik və azadlıq uğrunda əbədi mübarizə ruhunu ötürür. Azərbaycan xalqı bu şanlı qələbəni Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun misilsiz qəhrəmanlığı, əsgər və zabitlərimizin canı-qanı hesabına əldə edib: “Azərbaycanın bugünkü nailiyyətlərinin, şanlı qələbəmizin təməlində əsası 1993-cü ildə Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş sarsılmaz xalq-iqtidar birliyi dayanır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müqəddəs ata vəsiyyətini şərəflə yerinə yetirdi, xalqımızın ən böyük taleyüklü məsələsi birdəfəlik həllini tapdı. Ölkə başçısı tərəfindən 21 il öncə müəyyən olunmuş bütün vəzifələr uğurla icra edildi”.

Rektor diqqətə çatdırıb ki, Ermənistanın təxribatına və növbəti hərbi təcavüzünə cavab olaraq 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsi nəticəsində Azərbaycan öz torpaqlarını işğaldan azad etdi. Dünya hərb tarixinə qızıl hərflərlə yazılan, haqqında əsrlərlə danışılacaq 44 günlük Vətən müharibəsinin ilk anlarından Müzəffər Ali Baş Komandanımızın verdiyi müdrik və cəsarətli qərarlar sayəsində düşmənin müdafiə xətti yarıldı, o, böyük itkilər verərək geri çəkilməyə məcbur oldu: “Rəşadətli Azərbaycan ordusu döyüşlərin başladığı ilk gündə strateji Murov zirvəsində, Füzulidə, Cəbrayılda, sonrakı günlərdə isə Suqovuşanda, Hadrutda, Xocavənddə, Zəngilanda, Qubadlıda üçrəngli bayrağımızı ucaltdı. Noyabr ayının 8-də Qarabağın ürəyi Şuşanın azad olunması ilə qəhrəman Ordumuz düşməni böyük məğlubiyyətə uğratdı və onu kapitulyasiya aktını imzalamağa məcbur etdi. Bununla da Azərbaycanın dünya birliyi tərəfindən tanınan ərazi bütövlüyü təmin olundu. Ötən iin sentyabrında keçirilən antiterror əməliyyatları ilə isə suverenliyimiz bərpa olundu, əzəli torpaqlarımız olan Xankəndi, Xocavənd, Xocalı, Ağdərə şəhərlərində, eləcə də Əsgəran qəsəbəsində üçrəngli bayrağımız əbədi ucaldıldı. Azərbaycan Vətən müharibəsi ilə bütün dünyaya cəsarətli və ədalətli müharibə aparmağın örnəyini göstərdi. 44 gün ərzində informasiya cəbhəsində də mübarizə aparan möhtərəm Prezidentimiz xalqımızın haqlı mövqeyini bütün dünyaya çatdırmağa nail oldu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin vurğuladığı kimi, “Bu qələbə xalqımızın tarixində qazanılmış ən böyük qələbə, ən uca zəfərdir””.

Türkiyənin Üsküdar Universitetinin rektoru Nazife Güngör Zəfər Günü münasibətilə tədbir iştirakçılarını təbrik edib. Bildirib ki, Türkiyə və Azərbaycan ərazi bütövlüyü uğrunda oxşar mücadilə aparıb, şəhidlər verib.

“Zəfər” Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri, şəhid polkovnik-leytenant, “Murov qartalı” Raquf Orucovun həyat yoldaşı Sevinc Orucova çıxışında Vətən yolunda canından keçən qəhrəman əsgər və zabitlərimizlə qürur duyduğunu, onların həyat yolunun gənc nəsil üçün vətənpərvərlik nümunəsi olduğunu bildirib və bu cür tədbirlərin təşkilinin qəhrəmanlarımızın tanıdılması və onların xatirələrinin əbədiləşməsi baxımından böyük əhəmiyyətə malik olduğunu qeyd edib.

BDU-nun Ümumi dilçilik kafedrasının müdiri, akademik Nizami Cəfərov, Vətən müharibəsi şəhidi, BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin şəhid məzunu Ataməli Musaoğlunun anası Leyla Musayeva, şəhid polkovnik-leytenant Nail Orucovun həyat yoldaşı, BDU-nun Filologiya fakültəsinin ikinci kurs tələbəsi Nigar Ağamalıyeva, İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı Ələmdar Cabbarlı çıxışlarında şəhidlərimizin döyüş yolundan bəhs edib, onların əziz xatirəsinin daim xalqımızın qəlbində yaşayacağını bildiriblər. Çıxışçılar gəncləri Vətən uğrunda vuruşan, şəhid olan qəhrəmanlardan öyrənməyə, onların ənənələrini yaşatmağa çağırıblar.

Sonra bəstəkar Eyvaz Həşimovun rəhbərliyi altında “Hicaz” qrupunun çıxışı olub. Kompozisiyanın təqdimatında musiqiçilər Nahidə Eminova, Fuad Eminov, Niyaməddin Allahverdiyev, Elnur Hüseynov, Azad Yusubov və rejissor Abdulqəni Əliyev iştirak ediblər. Şəhid övladlarından ibarət xor qrupunun ifasında “Qəhrəman övladıyıq” mahnısı ifa olunub. Mahnının bəstəsi və sözləri şəhid polkovnik-leytenant Rəşad Atakişiyevin həyat yoldaşı, sənətşünaslıq üzrə professor Könül Hüseynovaya aiddir.

Tədbirin sonunda isə BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin əməkdaşlarının hazırladıqları bədii proqram təqdim olunub.

# Milli qürur günümüz

***Bu gün xalqımızın çoxəsrlik tarixinə qızıl hərflərlə yazılan şanlı gündür. 8 Noyabr – Zəfər Günümüz.***

2020-ci il sentyabrın 27-də mənfur erməni qəsbkarlarının növbəti hərbi təcavüzünə cavab olaraq Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə başlayan əks-hücum əməliyyatları 30 il işğal altında olan ərazilərimizin azadlığı uğrunda ölüm-dirim savaşına çevrildi. Dünya hərb tarixinə qızıl hərflərlə yazılan, haqqında əsrlərlə danışılacaq 44 günlük Vətən müharibəsinin ilk anlarından Müzəffər Ali Baş Komandanımızın verdiyi müdrik və cəsarətli qərarlar sayəsində düşmənin müdafiə xətti yarıldı. Düşmən böyük itkilər verərək geri çəkilməyə məcbur oldu. İldırımsürətli müharibə planı ilə hərəkət edən peşəkar, cəsur Azərbaycan ordusu döyüşlərin başladığı ilk gündə strateji Murov zirvəsində, Füzulidə, Cəbrayılda, sonrakı günlərdə isə Suqovuşanda, Hadrutda, Xocavənddə, Zəngilanda, Qubadlıda üçrəngli bayrağımızı ucaltdı.

Noyabrın 8-də Qarabağın ürəyi Şuşanın, cəmi bir gün sonra isə 72 yaşayış məntəqəsi və 8 strateji yüksəkliyin azad olunması ilə Ali Baş Komandanımızın rəhbərlik etdiyi müzəffər Ordumuz düşməni növbəti dəfə böyük məğlubiyyətə uğratdı və onu kapitulyasiya aktını imzalamağa məcbur etdi. Bununla da Azərbaycanın dünya birliyi tərəfindən tanınan ərazi bütövlüyü təmin olundu. 30 illik müharibə ölkəmizin parlaq qələbəsi ilə başa çatdı.




Və nəhayət, ötən ilin sentyabrında heç 24 saat belə çəkməyən lokal antiterror əməliyyatı ilə düşmənin silahlı dəstələri və separatçı rejimin qalıntıları tamamilə darmadağın edildi.

Oktyabrın 15-də Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən əzəli torpaqlarımız olan Xankəndi, Xocavənd, Xocalı, Ağdərə şəhərlərində, eləcə də Əsgəran qəsəbəsində üçrəngli bayrağımız əbədi ucaldıldı və suverenliyimiz bərpa olundu.

Cənab Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin vurğuladığı kimi, indi artıq Dağlıq Qarabağ münaqişəsi yoxdur! Bu qələbə xalqımızın tarixində qazanılmış ən böyük qələbə, ən uca zəfərdir.

Müzəffər Ordumuz 44 günlük Vətən müharibəsi ilə bütün dünyaya cəsarəti və eyni zamanda ədalətli müharibə aparmağın örnəyini göstərdi. Vətən müharibəmiz Ordumuzun yalnız işğalçı qüvvələrlə döyüşdüyünü, hər cür təxribatlara baxmayaq, heç bir halda mülki əhalini hədəf seçmədiyini nümayiş etdirdi. Bu müharibə yalnız səngərdə, döyüş meydanında getmədi. Bu müddət ərzində cənab Prezidentimiz diplomatiya cəbhəsində də mübarizə apardı. Ölkəmizə olan təzyiqlərə, təsirlərə qarşı özünün siyasi iradəsini, əzmkarlığını nümayiş etdirdi, Qarabağ münaqişəsinin yalnız Azərbaycan xalqının maraqları çərçivəsində həll oluna biləcəyini bütün dünyaya bəyan etdi. Ön cəbhədə olduğu kimi, diplomatik cəbhədə də bütün şərtləri qüdrətli Azərbaycan dövləti diktə etdi. Məhz bu hərbi-siyasi mübarizənin nəticəsində regionda yeni düzən, fərqli geostrateji şərait yarandı və artıq qətiyyətlə söyləmək olar ki, bölgədə bütün şərtləri Azərbaycan dövləti diqtə edir. 44 gün ərzində informasiya cəbhəsində də mübarizə aparan cənab Prezidentimiz xalqımızın haqlı mövqeyni bütün dünyaya çatdırmağa nail oldu.

Azərbaycanın bugünkü nailiyyətlərinin, şanlı Qələbəmizin təməlində əsası 1993-cü ildə Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş sarsılmaz xalq-iqtidar birliyi dayanır. Azərbaycan xalqı bu tarixi uğuru ilk növbədə Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Ordumuzun misilsiz qəhrəmanlığı, əsgər və zabitlərimizin canı-qanı hesabına əldə etdi. Cənab Ali Baş Komandanımız müqəddəs ata vəsiyyətini şərəflə yerinə yetirdi, xalqımızın ən böyük taleyüklü məsələsini birdəfəlik həll etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli Sərəncamı ilə xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi qeyd edilir.

Ümummilli Liderimiz Heydər Əliyevin "Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı" adlandırdığı, hər zaman məzunu olması ilə fəxr etdiyini ifadə edərək yüksək dəyər verdiyi Bakı Dövlət Universitetinin professor-müəllim heyəti, tələbələri və məzunları da, hər bir azərbaycanlı kimi, 44 günlük Vətən Müharibəsi günlərində həm ön, həm də arxa cəbhədə fədakarlıq göstərdi. Universitetin çoxsaylı tələbə və məzunu könüllü olaraq cəbhəyə yollandı, onlardan 22 nəfər müqəddəs şəhidlik zirvəsinə ucaldı. Torpaqlarımız uğrunda canlarından keçmiş bütün şəhidlərimizin, eləcə də Bakı Dövlət Universitetinin tələbəsi və məzunu olan şəhidlərimizin əziz və unudulmaz xatirəsi hər zaman qəlbimizdə yaşayacaq.

Zəfər ovqatlı xalqımız hər zaman qələbə ruhunda, müdrik, başıuca və yenilməz xalq kimi əbədi yaşayacaq! Qarabağımız və Şərqi Zəngəzurumuz isə dünyanın ən cənnət guşələrindən birinə çevrilməkdədir. Möhtərəm Prezidentimiz İlham Əliyevin misilsiz fəaliyyəti nəticəsində işğaldan azad edilmiş torpaqlarımızda genişmiqyaslı bərpa və quruculuq işləri aparılır. Doğma torpaqlarımıza həyat qayıdır.

Xoşbəxt xalqıq ki, Zəfər Günümüzün dördüncü ildönümünü vahid, suveren, azad Vətənimizin hər bir qarışında qeyd edirik. Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə Zəfər tariximiz yazılmağa davam edir.

Zəfər Günümüz mübarək olsun!

# BDU-da Zəfər Günü ilə bağlı kitab sərgisi

***Noyabrın 6-da BDU-nun Elmi Kitabxanası 8 Noyabr – Zəfər Günü ilə bağlı ənənəvi kitab sərgisi təşkil edib.***



Sərgidə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin iradəsi, qətiyyəti, müdrik və uzaqgörən siyasəti nəticəsində azad edilmiş torpaqların tarixi xronologiyası, Vətən müharibəsində Qələbənin əldə edilməsi, ölkəmizin suverenliyi uğrunda döyüşmüş və canlarından keçmiş Vətən oğulları haqqında Azərbaycan, rus və ingilis dillərində 50-yə yaxın kitab yer alır.

Sərgidə "Milli Qürurumuzun Zəfəri" (G.Kərimova, İ.Qaracallı), "Zəfər yolu", "44 günlük diplomatiya dərsləri", "Tarix yazan 44 gün" (R.Adilqızı), "Vətən müharibəsinin tarixi-siyasi dərsləri" (A.Mirzəzadə), "Müzəffər Komandan" (İ.Əliyeva), "Vətən və iman" kimi kitablar, həmçinin 2021-ci ildə BDU-da nəşr olunmuş "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vətən müharibəsi dövründə xarici kütləvi informasiya vasitələrinə müsahibələri", "Vətən müharibəsi dövründə Bakı Dövlət Universitetinin professor-müəllim heyəti və tələbələrinin ölkə mediasında çıxışları", "Vətən müharibəsi yerli və xarici mediada", "Bakı Dövlət Universiteti Vətən müharibəsi dövründə", "Tarix yazan məzunlar" adlı nəşrlər sərgilənir.

# BDU-da COP29-a həsr olunmuş rəsm sərgisi

***Noyabrın 5-də BDU-nun Tələbə Gənclər Təşkilatının (TGT) təşəbbüsü ilə COP29-a həsr olunmuş rəsm sərgisi keçirilib.***

Sərgidə BDU tələbələrinin 20-yə yaxın rəsmi nümayiş olunub. Tələbələr öz əsərləri vasitəsilə ekologiyanın qorunmasını, yaşıl texnologiyaların və təbii ehtiyatların düzgün istifadəsinin vacibliyini vurğulayan təsirli mesajlar ötürüblər.

Sərginin keçirilməsində məqsəd gəncləri ekoloji məsələlərə həssas yanaşmağa təşviq etməkdir.



# BDU tələbələri COP29-da könüllü kimi uğurla iştirak ediblər

***Noyabrın 14-də BDU-nun 200 nəfərə yaxın tələbəsi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) könüllü kimi iştirak ediblər.***

COP29-un Azərbaycanda keçirilməsi gənc fəallar üçün qlobal iqlim siyasətinə töhfə vermək baxımından mühüm platformadır. Gənclərimizin bu sahədə aktivliyi milli təəssübkeşlik nümunəsi olmaqla yanaşı, ekoloji siyasətə böyük dəstəkdir.

BDU tələbələri ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən rasional istifadəni təbliğ edir, nümayəndə heyətlərinə köməklik göstərir və konfransın uğuruna töhfə verirlər.

# BDU və Mətbuat Şurası COP29 ərəfəsində Azərbaycana qarşı informasiya hücumlarının məqsədlərinə dair dəyirmi masa keçirib



***Noyabrın 6-da BDU və Azərbaycan Mətbuat Şurasının birgə təşkilatçılığı ilə "İnformasiya müharibəsi: COP29 ərəfəsində Azərbaycana qarşı informasiya hücumlarının məqsəd və mahiyyəti" mövzusunda dəyirmi masa keçirilib.***

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid informasiya təhlükəsizliyinin milli təhlükəsizliyin bir halqası kimi mühüm əhəmiyyətə malik olduğunu bildirib: "Xüsusilə də COP29 ərəfəsində Azərbaycana qarşı aparılan informasiya müharibəsinin daha çox şahidi oluruq. Yanlış xəbərlərin vaxtında yalanlanması, ifşası ümumi prosesə müsbət təsir göstərir, bunun qarşısının alınması baxımından medianın üzərinə mühüm məsuliyyət düşür".

BDU rektoru Elçin Babayev isə qeyd edib ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Bakıda keçirilməsi ölkəmizə dünya dövlətlərinin, beynəlxalq təşkilatlarının etimadının bariz nümunəsidir. Bu gün Azərbaycan COP29 konfransının ən yüksək səviyyədə təşkili üçün bütün imkanlarını səfərbər edib. Lakin Azərbaycan dövlətinin əldə etdiyi uğurlar, beynəlxalq arenada nüfuzunun gündən-günə artması, qlobal təşəbbüslərin əsas iştirakçılarından birinə çevrilməsi, bədxah qonşularımız da daxil olmaqla, bir sıra xarici qüvvələri qıcıqlandırır: "Bəzi dövlətlər və beynəlxalq təşkilatlar bizim bu uğurları, xüsusilə də 44 günlük Vətən müharibəsində əldə etdiyimiz böyük Zəfəri, ərazi bütövlüyümüzün, suverenliyimizin bərpa olunmasını həzm edə bilmir. BMT-nin məlum 4 qətnaməsini beynəlxalq təşkilatların deyil, Azərbaycanın özünün təkbaşına icra etməsi bədnam qonşularımızın hamilərini narahat edir. Bunun nəticəsidir ki, beynəlxalq hüquq prizmasından heç bir təsir edə bilməyən bu dairələr ölkəmizə qarşı informasiya hücumlarına başlayır, dezinformasiyalar dövriyyəyə buraxır. Xüsusilə COP29 ərəfəsində aktivləşən müxtəlif siyasi dairələrdən edilən bu hücumlar, təhdidlər, çirkin kampaniyalar bizi qarşımızda duran hədəflərdən yayındırmaq, ölkəmizin artan nüfuzuna kölgə salmaq məqsədi daşıyır. Azərbaycanla bağlı qərəzli və həqiqətə uyğun olmayan məlumatların məqsədyönlü şəkildə yayılması ölkəmizə qarşı hibrid təhdidlərin təşkilini hədəf götürüb. İqlim dəyişmələri, ətraf mühitin mühafizəsi, ekoloji problemlər, hava çirklənməsi ilə bağlı olan bu beynəlxalq tədbiri bütün vasitələrlə siyasiləşdirməyə çalışırlar. Ölkəmizə qarşı hibrid təhdidlərlə, o cümlədən dezinformasiya xarakterli məlumatların yayılması, kiberhücumlar, sosial şəbəkələrdə qarayaxma kampaniyaları ilə mübarizə aparmağımız təhlükəsizlik baxımından böyük əhəmiyyət kəsb edir. Bütün bu hücumların, təhdidlərin qarşısının alınması istiqamətində əməli addımların atılması vacib edir. BDU ilə Mətbuat Şurasının birgə təşkil etdiyi bugünkü dəyirmi masa son günlər xüsusilə intensivləşən informasiya hücumlarının qarşısının alınması, zərərsizləşdirilməsi baxımından vacib bir tədbirdir".

Milli Məclisin üzvü, Mətbuat Şurasının İdarə Heyətinin üzvü Vüqar Rəhimzadə ölkə mediasının COP29 ərəfəsində Azərbaycana qarşı təşkil edilən informasiya hücumlarına Vətən müharibəsində olduğu kimi, vahid platforma ətrafında birləşərək cavab verməli olduğunu diqqətə çatdırıb.

Medianın İnkişafı Agentliyinin icraçı direktorunun müavini Natiq Məmmədli deyib ki, ölkəmizə qarşı informasiya müharibəsi daim baş verir, buna görə də həm cəmiyyət, həm də mətbuat ayıq-sayıq olmalıdır: "Ölkəmizin ev sahibliyi etdiyi bütün vacib tədbirlər ərəfəsində Azərbaycana qarşı oxşar kampaniyalar olur. 2024-cü il başlayandan bu hücumlar daha da intensivləşib. Ölkəmiz həm sosial şəbəkələr üzərindən dezinformasiya hücumlarının, həm də Qərb ölkələrinin "peşəkarlıqla" hazırladıqları informasiya manipulyasiyalarının hədəfindədir. Bütün bunların qarşısını almaq üçün ölkə mediasının iqtisadi müstəqilliyini gücləndirmək lazımdır. Azərbaycanın haqq səsini yalnız ölkəmizin güclü mediası dünyaya çatdıra bilər".

Mətbuat Şurasının İdarə Heyətinin üzvü, "APA Holdinq"in prezidenti Vüsalə Mahirqızı isə informasiya manipulyasiyalarına məruz qalan insanlarla iş aparmağın zəruri olduğunu bildirib. O, media savadlılığı ilə bağlı orta məktəblərdə xüsusi dərslərin keçilməsinin, hələ gənc yaşlardan sosial mediada, internetdə düzgün mənbələrlə işləmək qaydalarının öyrədilməsinin vacib olduğunu deyib.

Mətbuat Şurasının İdarə Heyətinin üzvü, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı, BDU-nun Jurnalistika fakültəsinin dekanı, Şura sədrinin müavini Vüqar Əliyev, Milli mətbuat tarixi kafedrasının müdiri Cahangir Məmmədli, Multimedia və elektron kommunikasiya kafedrasının müdiri Qulu Məhərrəmli çıxışlarında qeyd ediblər ki, Azərbaycanın Vətən müharibəsində əldə etdiyi uğurdan, bu bölgədəki planların üzərindən xətt çəkilməsindən narahat olan qüvvələr COP29 tədbirinin Azərbaycanda keçirilməsindən narahatlıq keçirirlər. Diqqətin Azərbaycana yönəldiyi belə həssas dövrdə ölkəmizi ləkələməyə, beynəlxalq ictimaiyyətdə mənfi imic formalaşdırmağa çalışırlar. Bunun qarşısını almaq üçün cəmiyyətin və medianın dezinformasiyalara qarşı daha diqqətli olmaları və mübarizə aparmaları lazımdır.

Dəyirmi masanın sonunda tədbir iştirakçılarının adından xarici ölkələrə, müxtəlif beynəlxalq qurumlara birgə bəyanatın göndərilməsi barədə qərar qəbul olunub.

# Yaşıl dünya, yaşıl gələcək naminə

***Ölkəmiz noyabrın 11-dən 22-dək dünyada ən irimiqyaslı və mötəbər tədbirlərdən biri hesab edilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi mötəbər tədbirə ev sahibliyi edib.***

COP29 Azərbaycanın bu günədək təşkil etdiyi ən nəhəng tədbirdir və regionda ilk dəfə ölkəmizdə baş tutub. Azərbaycan Hökuməti ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyi arasında "Ev Sahibi Ölkə Sazişi" və digər mühüm sənədlər imzalanıb.

COP29 çərçivəsində ən yüksək səviyyəli tədbir – Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammiti noyabrın 12-13-də təşkil olunub.

Azərbaycanın COP29-a ev sahibliyi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional, qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

Azərbaycanın ev sahibliyi etdiyi bu nüfuzlu BMT tədbiri iqlim dəyişikliyi ilə mübarizədə qlobal həmrəyliyi və əməkdaşlığı gücləndirmək məqsədini daşıyır. COP29 konfransının Bakıda keçirilməsi Azərbaycanın regionda və qlobal səviyyədə iqlim problemlərinin həllində aparıcı rol oynamağa hazır olduğuna dair Prezident İlham Əliyevin siyasi kursunun təsdiqidir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası üzrə yekdil qərarla ölkəmizin ev sahibi seçilməsi beynəlxalq ictimaiyyətin Azərbaycana böyük hörmətinin və etimadının göstəricisidir. Bu, tək ölkəmiz üçün deyil, bütün Türk dünyası üçün əhəmiyyətli nailiyyətdir. COP29-a ev sahibliyi həm də Azərbaycanın qlobal problemlərin həllində göstərdiyi fəal səylərə verilən dəyərdir. 2024-cü ilin Prezident İlham Əliyev tərəfindən Azərbaycan Respublikasında "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi təbii ki, ətraf mühitə və ekoloji problemlərin həllinə verilən önəmin daha bir göstəricisidir.

Azərbaycanın COP29-a ev sahibliyini etməsi ilə bağlı 2023-cü ilin dekabrın 11-də Birləşmiş Ərəb Əmirliklərində - COP28-in plenar iclasında qərar verilib. COP28-in prezidenti, BƏƏ-nin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir COP-un növbəti konfransının Azərbaycanda keçiriləcəyini elan edib.

Qeyd edək ki, COP-a ev sahibliyi bir qayda olaraq BMT-nin beş regional qrupu arasında rotasiya edilir. Hər regional qrup, üzvlərindən bu konfransı təşkil edəcək bir ölkəni irəli sürmək üçün konsensusla qərar qəbul etməlidir.

2024-cü il COP29-a ev sahibliyi etmək növbəsi Şərqi Avropa regional qrupuna düşmüşdü. Sözügedən qrupa daxil olan ölkəmiz konfransın Azərbaycanda keçirilməsi ilə bağlı namizədliyini irəli sürmüşdü. Azərbaycanla yanaşı, Ermənistan və Bolqarıstan da namizədliklərini vermişdilər. 2023-cü il dekabrın 7-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Baş nazirinin Aparatı arasında aparılmış birbaşa danışıqların nəticəsi olaraq verilmiş birgə bəyanatda Ermənistan Azərbaycanın xeyrinə öz namizədliyini geri çəkib. Bundan sonra Bolqarıstan da öz namizədliyini geri götürüb.

Beləliklə, 2023-cü il dekabrın 9-da Şərqi Avropa regional qrupu Azərbaycanı 2024-cü ildə COP-a ev sahibliyi edəcək ölkə kimi müəyyənləşdirib.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəflərin Konfransı – COP Konvensiyasının ali qərar qəbul edən orqanıdır. Katibliyi Bonnda yerləşir. Hər il dünyanın hər yerindən hökumət nümayəndələri COP-da toplaşaraq iqlim dəyişmələrinin qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində birgə səylər göstərmək üçün çağırışlar edir. COP-un ilk toplantısı 1995-ci ildə Berlin şəhərində keçirilib.

Tərəflər Konfransı (COP), Paris Sazişi və Konvensiyası üzrə irəliləyişə nail olmaq və ən son elmi tədqiqat və məlumatlara əsasən qlobal istiləşməni 1,5°C-ə qədər məhdudlaşdırmaq üçün hökumətlərin beynəlxalq səyləri qiymətləndirdiyi Tərəflər Konfransının rəsmi tədbirləridir.

COP tədbirləri zamanı dünya liderləri irəliləyişləri qiymətləndirmək və iqlim dəyişmələri ilə mübarizədə ən yaxşı həll yolları barədə müzakirələr aparmaq məqsədilə bir araya gəlirlər.

Hazırda Konvensiya 198 Tərəfdən (197 ölkə və Avropa İttifaqı) ibarətdir.

Qeyd edək ki, Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulub. Ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarını 35 faiz azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarını 40 faiz azaldılmasından ibarətdir.

Azərbaycan Respublikasının Prezidenti ölkəmizin işğaldan azad edilmiş torpaqlarını "Yaşıl enerji" zonası elan edib. Bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur.

COP29-a ev sahibliyi Azərbaycanın özünü qlobal səviyyədə iqlim dəyişiklikləri ilə mübarizə aparan dövlət kimi tanıtmasını göstərir. Tədbir çərçivəsində Azərbaycanın bərpaolunan enerji mənbələrinin inkişafı, yaşıl enerjiyə keçid və iqlim dəyişiklikləri ilə mübarizədə qarşısına qoyduğu məqsədlər və bu istiqamətdə gördüyü işlər daha geniş auditoriyanın diqqətinə çatdırılacaq.

# DAHİ LİDER HEYDƏR ƏLİYEV VƏ BAKI DÖVLƏT UNİVERSİTETİ

***Müvafiq təhsil olmadan dövlətin nə özünün, nə də onun xalqının və mədəniyyətinin gələcəyi yoxdur. 105 il əvvəl tarixin diktə etdiyi bu gerçəyi dərk edən Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları, vətənpərvər ziyalılarımız Bakı Dövlət Universitetinin əsasını qoymaqla milli şüurun, milli təfəkkürün, milli elmin və mədəniyyətin möhtəşəm binasının təməl daşlarını qoydular. Özünün şanlı tarixi boyu universitet ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatımızın inkişafına dəyərli töhfələr vermiş, neçə-neçə tanınmış dövlət xadimi, dünya şöhrətli alim, mədəniyyət və incəsənət dühası yetişdirmişdir.***

Elmin, təhsilin, milli təfəkkürün, mədəniyyətin inkişafında mühüm rol oynayan Bakı Dövlət Universitetinin yaranması Azərbaycan tarixinin ən əlamətdar hadisələrindən biridir. Şərqin ilk mütərəqqi təhsil ocaqlarından olan BDU 105 ildə zəngin, şərəfli inkişaf yolu keçməklə, postsovet məkanında ən nüfuzlu ali təhsil ocaqlardan birinə çevrilmişdir.

Vaxtın zamanın zərurəti, diktəsi olan Bakı Dövlət Universitetinin yaradılması, həm də milli özünüdərkin, özünütəsdiqin intişar tapması, yenicə yaradılmış gənc bir dövlətin "vardır millətimin imzası imzalar içində" deməsi idi. O dövrün ictimai-siyasi mürəkkəbliyi, beynəlxalq vəziyyətin gərginliyi nəzərə alınsa, 23 ay yaşamış milli-demokratik respublikamızın taleyüklü məsələlərin həllində necə çevik hərəkət etdiyinin şahidi olarıq.

Müxtəlif tarixi dövrlərdə rejimin basqılarına baxmayaraq, Bakı Dövlət Universiteti daim azərbaycançılıq məfkurəsinə sadiqlik nümayiş etdirərək, ölkədə ali təhsil sisteminin qurulmasında, elmi tədqiqatların son texnologiyalarının tətbiqi ilə müasir standartlara uyğun aparılmasında və ümumən milli özünüdərk prosesinin sürətləndirilməsində böyük xidmətlər göstərmişdir.

Adətən deyirlər ki, yubileyi tarixə köçən illər deyil, bu illərin zaman müstəvisində qazanılan uğurları rövnəqləndirir. Bu gün Bakı Dövlət Universiteti, ona xas olan bütün keyfiyyətləri - humanitar, iqtisadi, təbiət elmləri sahəsində ixtisasların geniş spektri, müasir tədris texnologiyaları, innovasiyalı tədris proqramlarının tətbiqi, fundamental elmlərin sürətli inkişafı, beynəlxalq tədris və elmi ictimaiyyətə inteqrasiyası ilə müasir elm və təhsil mərkəzi olaraq fəaliyyət göstərir. Burada nəinki Azərbaycan, bütövlükdə dünya elminə sanballı töhfələr verən nüfuzlu alimlər, elm adamları yetişmişdir. Onlar öz əsərləri, yenilikləri və ixtiraları ilə elmə şan-şöhrət gətirmişlər.

Ulu öndər Heydər Əliyev demişdir: "Azərbaycan universitetinin yaranması qabaqcıl qüvvələrin qələbəsi idi, doğma xalqı maarifləndirmək uğrunda, dünya mədəniyyəti və elm xəzinəsinin qapılarını onun üzünə açmaq uğrunda Azərbaycanın ən yaxşı oğullarının bir çox illər ərzində apardıqları mübarizənin yekunları idi".

Dahi lider Heydər Əliyevin səyləri nəticəsində həmin illərdə universitetin maddi-texniki bazası gücləndirilir, elmin inkişafı naminə əlverişli şərait yaradılır, informatika-hesablama mərkəzi, yeni tədris binaları, kitabxana, yataqxana istifadəyə verilir, 1961-ci ildə fəaliyyəti dayandırılmış universitet nəşriyyatı 80-ci illərdə yenidən fəaliyyətini bərpa edir, Universitetdə yeni fakültə, laboratoriyalar, kafedralar açılır.

Universitetin keçdiyi yarım əsrlik yolu ətraflı təhlil edən və gələcək arzulardan danışan ulu öndər professor-müəllim heyəti qarşısında mühüm vəzifələrin-yüksək səviyyəli kadrların hazırlanması məsələsinin durduğunu bildirmişdi. Ulu öndər Heydər Əliyev Bakı Dövlət Universitetində böyük işlərin görüldüyünü qeyd etməklə yanaşı, universitetin xalqın taleyində oynadığı rolu və onun gələcəkdə də digər təhsil ocaqlarına nümunə olacağına əmin olduğunu bildirdi: "Əgər universiteti qüdrətli bir ağaca bənzətmiş olsaq, deyə bilərik ki, bunlar onun öz qol-budaqlarıdır. Tam əsasla demək olar ki, respublikamızın digər ali məktəbləri də Azərbaycanın ilk ali məktəbi ilə qohumdur. Azərbaycan Dövlət Universitetinin yetişdirmələri Sovet Azərbaycanın 12 ali məktəbinin hamısında səmərəli elmi-tədqiqat işi aparırlar.

Azərbaycan Universitetinin tarixi xidməti bir də bundadır ki, o, Azərbaycanın xalq təsərrüfatı, elm və mədəniyyəti üçün yüksək ixtisaslı mütəxəssislərin böyük bir dəstəsini hazırlamışdır."

Məhz həmin yubileydə Bakı Dövlət Universiteti SSRİ-nin ən böyük mükafatına - Qırmızı Əmək Bayrağı ordeninə layiq görülmüşdü və heç şübhəsiz, bu da yenicə respublikaya rəhbər seçilmiş Heydər Əliyevin xidmətləri sayəsində baş tutmuşdu. 25 il sonra Ulu öndər həmin hadisəni xatırlayaraq deyirdi: "Universitet 50 illik yubileyində o vaxtkı Sovetlər İttifaqının yüksək mükafatı - Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunmuşdu. Bu, tarixdir və bu tarixi dəyişdirmək olmaz".

Bakı Dövlət Universitetinin 75 illik yubileyində Ulu öndər Heydər Əliyevin universitetin keçdiyi çətin, əzab-əziyyətli, amma şərəfli yola verdiyi qiymət o dövrün mənzərəsini əks etdirir: "Bakı Dövlət Universitetinin bütün digər xidmətləri ilə yanaşı, Azərbaycan xalqının ana dilinin inkişafındakı xidmətlərini xüsusi qeyd etməliyik. Universitet yaranarkən müəllimlərin əksəriyyəti azərbaycanlı olmamışdır. Ancaq sonrakı mərhələlərdə universitet Azərbaycanda xalqımızın ana dilinin inkişaf etməsi üçün, təbliğ olunması üçün böyük işlər görmüşdür".

Heydər Əliyevin "Literaturnaya qazeta"da dərc edilmiş məşhur müsahibəsinin sərlövhəsindəki "Qoy, ədalət zəfər çalsın!" aforizmi Azərbaycan ictimaiyyətinin qabaqcıl nümayəndələri, məmur heyətinin böyük bir qismi üçün, o cümlədən Bakı Dövlət Universitetinin kollektivi üçün mənəvi-əxlaqi prinsipə çevrildi. Universitet, ictimaiyyət arasındakı yüksək nüfuzuna görə, həmin dövrdə Sovet İttifaqının qabaqcıl ali təhsil məktəbinə göndərilən azərbaycanlı gənclərin seçilməsi üçün baş qərargaha çevrildi.

Həmin illərdə Bakı Dövlət Universiteti Heydər Əliyevin siyasi kursuna və idarəçilik prinsiplərinə ciddi əməl edilməsi sayəsində keyfiyyətli kadr hazırlığı, qəbul imtahanlarında neqativ halların aradan qaldırılması, dünyanın qabaqcıl universitetləri ilə qarşılıqlı əlaqələrin gücləndirilməsi tədbirləri ilə böyük uğurlara imza atdı. Tədrisin yüksək səviyyəsi və elmi tədqiqatçıların gənc nəslinin yetişdirilməsindəki nailiyyətləri BDU-ya xarici ölkələrdə böyük maraq oyadırdı.

Məhz Heydər Əliyevin qayğısı nəticəsində Asiya, Afrika, və Latın Amerikasının inkişaf etməkdə olan ölkələri üçün mütəxəssislər mərkəzə çevrilmişdi, artıq 80-ci illərdə Bakı Dövlət Universitetində dünyanın 61 ölkəsindən 500-dən artıq tələbə təhsil alırdı. 1985-ci ildə 1266 nəfər universitetə qəbul edilmişdir.

Ulu öndər Heydər Əliyevin 1993-cü ilin iyun ayında hakimiyyətə qayıdışından sonra Bakı Dövlət Universitetində yenidən canlanma başladı. Təhsilə, inkişafa, sivilizasiyaya xüsusi önəm verən ulu öndər, öz doğma ocağı saydığı Bakı Dövlət Universitetinə xüsusi qayğı ilə yanaşırdı. Məhz onun diqqət və qayğısı nəticəsində Bakı Dövlət Universitetində ilahiyyat fakültəsi, beynəlxalq hüquq və beynəlxalq münasibətlər fakültəsi kimi yeni ixtisaslar açıldı. Beynəlxalq Universitetlər Assosiasiyasının üzvü olan Bakı Dövlət Universiteti öz əlaqələrini daha da genişləndirdi. Bir çox görüşlərində "Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam" söyləyən ulu öndər Heydər Əliyev həmişə bu təhsil ocağının ölkənin ali məktəblərinin bayraqdarı-flaqmanı saymış və onu hər yerdə nümunə göstərmişdir: "Azərbaycan elmi dünyanın qabaqcıl elmləri sırasındadır. Onun inkişafında Bakı Dövlət Universitetinin fəaliyyəti əvəzsizdir. Bakı Dövlət Universiteti yarandığı gündən Azərbaycanda elmi-inkişaf etdirən mərkəzə çevrilmişdir. Sonrakı dövrlərdə Azərbaycanda yaranmış elmi tədqiqat institutlarının əksəriyyəti, elmi ocaqların hamısı öz başlanğıcını Bakı Dövlət Universitetindən götürmüşdür" .

Xalq yazıçısı, millət vəkili Elmira Axundova çoxcildlik "Heydər Əliyev. Şəxsiyyət və zaman" kitabında BDU-nun yubileyləri məsələsinə də toxunaraq qeyd edir: "Ümumiyyətlə, bütövlükdə ölkənin əsas ali məktəbi olan Bakı Dövlət Universiteti öz yubileyini 6 dəfə bayram etmişdir - 1929, 1969, 1980, 1994, 2000 və 2009-cu illərdə. İnanılmaz olsa da faktdır: yubileylərdən dördünün təşəbbüskarı və təşkilatçısı ulu öndər Heydər Əliyev olub. Universitetin Böyük Elmi Şurası 1994-cü il 28 oktyabr tarixli qərarı ilə Heydər Əliyev Bakı Dövlət Universitetinin Fəxri Doktoru adına layiq görülüb. Ulu öndər Heydər Əliyev söyləyirdi: "Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam".

Bakı Dövlət Universiteti onun üçün xüsusi dəyər idi. Və bu qabaqcıl, nümunəvi təhsil ocağının dünyanın ən məşhur universitetlərinin cərgəsinə qoşulmasını o, çox arzulayırdı və bunu belə ifadə edirdi: "Keçmişdə, ölkəmiz xarici dövlətlərlə çox əlaqədə olmadığı vaxtda, bəzən belə düşünürdük ki, başqa ölkələrdə elm, ali təhsil bizimkindən çox yüksəkdir. Şübhəsiz ki, dünyanın 800-900 illik tarixi olan məşhur universitetləri var, Avropa universitetlərini, Şərq universitetlərini, Rusiya universitetlərini götürün, 100 illik tarixi olan universitetlər var. Şübhəsiz ki, onların yüksək səviyyəsi var. Ancaq indi biz dünyaya açıldıq, bizim alimlərimiz, universitetin müəllimləri, professorları dünyanın bir çox ölkələrinə getdilər. İndi onlar bir çox ölkələrdə dərs deyirlər, elmi iş aparırlar. Aydın oldu ki, bu müddətdə Azərbaycanın elmində, təhsilində əldə edilən nailiyyətlər başqa dövlətlərinkindən aşağı deyildir, bəzi hallarda yüksəkdir. Əgər belə olmasaydı, indi Bakı Dövlət Universitetinin, yaxud da ki, digər universitetlərimizin, elmi tədqiqat institutlarımızın alimləri, elmi işçiləri gedib başqa ölkələrdə yüksək səviyyədə fəaliyyət göstərə bilərdilərmi?"

Azərbaycanın son illərdə qazandığı böyük uğurlar, dünya dövlətləri arasında özünə layiq yer tutması, iqtisadi tərəqqi, idman sahəsində qazandığımız nailiyyətlər, əhalinin rifah halının yaxşılaşması, gənclərə göstərilən böyük qayğı ölkə daxilində aparılan əzəmətli işlər Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin titanik zəhmətinin bəhrəsidir.

Universitetin keçdiyi inkişaf mərhələlərinin hər birinin özünəməxsus cəhətləri olmuş, çox zaman baş verən proseslər nəinki bir-birinə oxşamamış, hətta bir-birinə zidd xarakter daşımışdır. Azərbaycan Prezidenti İlham Əliyev isə 90 illik yubiley təntənəsində Bakı Dövlət Universitetinin xalqımızın tarixindəki yerinə və göstərdiyi xidmətlərə belə dəyər vermişdir: "Bakı Dövlət Universitetinin çox gözəl və böyük tarixi vardır, 1919-cu ildə təsis edilmiş universitet 90 il ərzində Azərbaycanın hərtərəfli inkişafında çox mühüm rol oynamışdır. Bakı Dövlət Universiteti Azərbaycan müstəqilliyini əldə edəndən bir il sonra Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti tərəfindən təsis edilmişdir. Bu, çox düşünülmüş və uzaqgörən bir addım idi. O vaxt ölkəmiz çox gənc idi. Bakı Dövlət Universiteti Azərbaycanın inkişafı, Azərbaycanda təhsilin inkişafı, elmi potensialın gücləndirilməsi üçün çox mühüm rol oynamışdır. Bu rol bu gün də davam edir. Çox sevindirici haldır ki, Bakı Dövlət Universiteti bütün illər ərzində Azərbaycanda təhsil sahəsində öz aparıcı rolunu qoruyub saxlaya bilmişdir və bu gün bu rol daha da güclənir".

Zaman ötür, Bakı Dövlət Universiteti inkişaf edir. Prezident İlham Əliyev xalqın tam əksər hissəsinin iradəsi ilə 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçiləndən çox az bir müddət sonra ilk maraqlandığı məsələlərdən biri Bakı Dövlət Universitetinin yeni korpusunun inşası məsələsi olur. Real vəziyyəti ətraflı öyrənib təhlil etdikdən sonra qərar verir ki, yeni tədris korpusunun tikintisi qısa vaxtda başa çatdırılsın. Prezidentin sərəncamı ilə tikintiyə vəsait ayrıldı. 2008-ci il sentyabrın 15-də yeni tədris korpusunun inşaat işləri və avadanlıq təminatı başa çatdırılaraq istifadəyə verildi. Universitetin 90 illik yubileyi tədbirində isə Prezident İlham Əliyev BDU-nun Fəxri Doktoru adına layiq görüldü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bakı Dövlət Universitetinin 100 illik yubileyini böyük təntənə ilə qeyd etməsi hər bir müəllimin, tələbənin sevincinə səbəb oldu. Prezident İlham Əliyev yubiley mərasimində çıxışında söyləmişdi: "Yüz il ərzində Bakı Dövlət Universitetinin 200 minə yaxın məzunu Azərbaycanın müxtəlif sahələrində öz bilik və bacarıqlarını nümayiş etdirmişdir. Məzunlar arasından görkəmli şəxslər, alimlər, ictimai xadimlər, siyasətçilər, mütəxəssislər çıxmışdır. Onların bir çoxu Azərbaycanın hərtərəfli inkişafına öz dəyərli töhfəsini vermişdir".

Onu da qeyd edək ki, Bakı Dövlət Universitetinin 100 illik yubileyini dövlət səviyyəsində qeyd edilməsilə bağlı - 2017-ci il noyabrın 14-də imzaladığı sərəncamda deyilirdi: "2019-cu ildə Azərbaycanın nüfuzlu elm və təhsil ocağı Bakı Dövlət Universitetinin təsis edilməsinin 100 illiyi tamam olur. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı Bakı Dövlət Universiteti müsəlman Şərqində yeni tipli ilk ali məktəb kimi yarandığı vaxtdan etibarən nailiyyətlərlə zəngin şərəfli bir yol keçmişdir. Daim azərbaycançılıq məfkurəsinə sadiqlik nümayiş etdirən universitet ölkədə ali təhsil sisteminin qurulmasında, elmi tədqiqatların dərin məzmun kəsb edərək son texnologiyaların da tətbiqi ilə müasir standartlara uyğun aparılmasında və ümumən milli özünüdərk prosesinin sürətləndirilməsində təqdirə layiq xidmətləri vardır".

Ata ocağımız sayılan Universitetə Prezidentimizin bu diqqət və qayğısına görə minnətdarıq və onu əmin edirik ki, BDU bundan sonra da müstəqil Azərbaycanın çiçəklənməsi naminə öz bilik və təcrübəsini əsirgəməyəcək.

***Günel Məlikli,***
*Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin müəllimi, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*

# BDU-nun yeni unikal layihəsi – Universitetdə "EKO MƏKAN"

*(Əvvəli 1-ci səhifədə)*

2024-cü ildə Türkiyənin Antalya şəhərində keçirilmiş "TEKNOFEST-2024" Aerokosmik və Texnologiya Festivalında üçüncü yerə layiq görülmüş BDU-nun tələbə və gənc tədqiqatçılardan ibarət "ESST-6" komandasının "E-tarım sulama" layihəsi də məhz ekoloji problemlərin intellektual həllinə yönəlib. Layihənin məqsədi maya dəyəri ucuz, lakin keyfiyyətli ağıllı suvarma texnologiyasının yaradılması və tətbiq edilməsidir. Belə ağıllı suvarma sistemləri bitkiləri ehtiyacları olduğu qədər su ilə təmin edərək, su israfını maksimum səviyyədə azaltmağa və su sərfiyyatını effektiv şəkildə idarə etməyə imkan yaradır. Layihə çərçivəsində hazırlanması nəzərdə tutulan ağıllı damcı sulama sistemi suvarma proseslərini daha effektiv və sürətli hala gətirərək, kənd təsərrüfatında daha yüksək məhsuldarlıq əldə etməyə imkan verəcək.

Ölkəmizdə möhtəşəm COP29 konfransının keçirildiyi bir dövrdə BDU-da istifadəyə verilən "Eko Məkan" Universitetin bu istiqamətdə reallaşdırdığı yeni unikal və innovativ layihələrindən biridir. Noyabrın 14-də açılışı olan "Eko Məkan" tələbə və tədqiqatçıların ətraf mühitin qorunması sahəsində daha geniş məlumat və təcrübə qazanmalarını təmin edəcək, həmçinin müxtəlif tədbirlərin keçirilməsi və asudə vaxtın təşkilinə imkan yaradacaq.






Açılış mərasimində Milli Məclis (MM) sədrinin müavinləri Ziyafət Əsgərov və Musa Qasımlı, MM-in komitə sədrləri Anar İsgəndərov, Arzu Nağıyev, Sadiq Qurbanov və Şahin İsmayılov, MM-in komitə sədrlərinin müavinləri Fariz İsmayılzadə və Jalə Əliyeva, kənd təsərrüfatı nazirinin müavini Elçin Zeynalov, AMEA-nın prezidenti akademik İsa Həbibbəyli və vitse-prezidenti akademik İradə Hüseynova, Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov, YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, Serbiya, Cənubi Koreya, Nigeriya, İraq və digər ölkələrdən COP29 konfransında iştirak edən qonaqlar, "LU-MUN Holding", "Bayramli Group", "Azecolab" şirkətlərinin rəhbər və əməkdaşları, həmçinin müxtəlif qurumların, elmi-tədqiqat müəssisələrinin nümayəndələri, BDU-nun professor-müəllim heyəti və tələbələri, çoxsaylı KİV təmsilçiləri iştirak ediblər.

Açılış mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, qlobal iqlim dəyişikliklərinə qarşı mübarizədə mühüm töhfə olan COP 29 çərçivəsində BDU öz ənənəsinə sadiq qalaraq yeni bir unikal pilot layihəyə imza atıb. Rektor "Eko Məkan"ın bir neçə mühüm özəlliyə malik olduğunu deyib: "Burada xarici ölkələrdən gətirilmiş və ən son texnologiyalar ilə təchiz edilmiş Akvaponik sistem ("Aquaponics system") quraşdırılıb. Bu sistem balıq və bitkilərin bir tsikl çərçivəsində fəaliyyətin tənzim edilməsi prinsipinə əsaslanır. Burada bütün məhsullar ekoloji cəhətdən təmiz məhsullardır, digər tərəfdən oksigen istehsalına imkan verən bioreaktor, rəqəmsal texnologiyaların tətbiqi ilə real zamanda hava parametrlərini ölçən, həmçinin havanın keyfiyyətini təyin edən xüsusi, ən müasir texnologiyalar quraşdırmışıq. "Eko Məkan"ın elektrik təchizatı əsasən günəş panelindən alınan enerji ilə həyata keçirilir. Bu, BDU-nun bir daha ekoloji prinsiplərə sadiq olduğunu, digər tərəfdən BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun fəaliyyət göstərdiyini sübut edir".

Rektor qeyd edib ki, "EKO Məkan" ilk növbədə təhsilalanlar – tələbələr, magistrantlar, doktorantlar üçün nəzərdə tutulub. Tələbələrin tədris və təcrübə sahəsi kimi nəzərdə tutulmuş "EKO Məkan"dan yalnız BDU-da təhsil alanlar deyil, həm də digər universitetlərin, orta məktəblərin, liseylərin, kolleclərin tələbələri istifadə edə bilərlər: "Düşünürəm ki, bu layihə çox uğurlu olacaq. Layihənin həyata keçirilməsində "dövlət-özəl tərəfdaşlığı" prinsipinə riayət olunub. Elmi tədqiqatlara öz töhfəsini verən bir sıra özəl şirkətlər bu məkanın yaradılmasında yaxından iştirak ediblər. Onların sırasında "Bayramli Group", həmçinin "LU-MUN HOLDİNG" və "Azecolab" kimi şirkətlər var. Ekologiya və Təbii Sərvətlər Nazirliyinə də xüsusi təşəkkür edirik. "Eko Məkan"da onların təqdim etdiyi bir çox nadir bitkilər və ağaclar əkilib".

"Eko Məkan" yeni innovativ texnologiya və metodlarla "yaşıl enerji" ilə "yaşıl qida" istehsalı, "yaşıl atmosfer"in formalaşdırılması yollarının tələbələrə öyrədilməsi, həmçinin ictimaiyyətin maarifləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir. BDU-nun ərazisində təqribən 1000 kv.m sahədə yaradılmış "Eko Məkan" müasir texnologiyaları və ekoloji həlləri xüsusi bir yanaşma ilə bir araya gətirir. Burada ətraf mühitin müxtəlif ekoloji aspektlərini təhlil etmək və elmi biliklərin praktiki tətbiqinə şərait yaratmaq məqsədilə xüsusi sahələr yaradılıb:

Məkanda yaradılmış Akvaponik sistem ("Aquaponics system") müasir aqrar texnologiyalardan biri olaraq, suyun təkrar dövriyyəsi üsulu ilə (az su sərf etməklə) yüksək məhsuldarlığa nail olmaq imkanını laboratoriya şəraitində nümayiş etdirir. İnnovativ üsullarla bitki və balıq yetişdirilməsini özündə birləşdirən tsiklik sistem "Dayanıqlı Kənd Təsərrüfatı" yanaşmasını ehtiva edir.

Mikroorqanizmlər və ya biokimyəvi proseslər vasitəsilə bioloji maddələrin istehsalını təmin edən bioreaktorlar sənaye miqyasında müxtəlif bioloji proseslərin, o cümlədən biokütlə, fermentlər, antikorlar, peyvəndlər, bioloji yanacaqlar və digər biotexnoloji məhsulların istehsalı üçün geniş istifadə olunur. Bioreaktorlar əsasən qapalı sistemdə işləyir və müəyyən bir temperatur, pH, oksigen miqdarı, qarışdırma sürəti və qida maddələri kimi parametrləri tənzimləyərək mikroorqanizmlərin böyümə mühitini optimallaşdırır. "Eko Məkan"da quraşdırılmış mikroyosun Bioreaktoru fotosintez yolu ilə karbon qazından oksigenin alınmasını təmin edir və bioyanacaq, heyvan yemi, bioloji məhsul və s. kimi müxtəlif məqsədlər üçün istifadə edilə bilən biokütlənin formalaşması prosesinin laboratoriya şəraitində izlənilməsinə şərait yaradır.

"Eko Məkan"da enerji səmərəliliyini təmin etmək və bərpa olunan enerji infrastrukturunu qurmaq üçün fotovoltaik çeviricilərdən ("solar panel") istifadə olunur. Məkanın enerji təchizatı (xüsusi işıqlandırma, müxtəlif elektron ölçmə cihazlarının enerji təminatı, mobil qurğuların enerji qidalandırılması və s.) əsasən fotovoltaik çeviricilərin bazasında hazırlanmış enerji mənbələrinə əsaslanır. Bu, Universitetin ekoloji prinsiplərə uyğun fəaliyyəti ilə yanaşı, tələbələrə enerji səmərəliliyi və ekoloji təmiz enerji texnologiyalarının tətbiqi barədə biliklər verəcək.

"Eko Məkan"da ətraf mühitə dair məlumatların rəqəmsal şəkildə alınaraq təhlil edilməsi və tədqiqatların nəticələrinin rəqəmsal platformalar üzərindən paylaşılması məqsədilə rəqəmsal eko-informasiya sistemi quraşdırılıb.

Məkandakı "AQMesh" - Hava Keyfiyyətinin Rəqəmsal Monitorinqi Sistemi müxtəlif tipli sensorlar vasitəsilə atmosferdə müxtəlif qazların, o cümlədən azot dioksidi ($NO_2$), karbon dioksidi ($CO_2$), ozon ($O_3$), kükürd dioksidi ($SO_2$) və digər zərərli maddələrin miqdarını təyin edir, atmosferin çirklilik səviyyəsini anında izləməyə imkan verir.

"Davis Vantage Pro2" - Rəqəmsal Hava Məlumatı Sistemi küləyin sürəti və istiqaməti, külək vasitəsilə havanın soyuma və qızma indeksi, temperatur, rütubətlik, təzyiq və şeh nöqtəsi kimi parametrləri ölçməyə və xüsusi ekranda və mobil tətbiqlər vasitəsilə paylaşmağa imkan verir.

Ekoloji problemlərin həlli, iqlim dəyişikliyi və təbii resursların qorunması mövzularında gənclərin məlumatlandırılması, Universitetin elmi potensialı ilə ekologiya sahəsində fəaliyyət göstərən dövlət və qeyri-hökumət təşkilatları arasında qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi layihənin əsas məqsədlərindən biridir. İnteraktiv seminar və təlim sahəsində tələbə və müəllimlərin iştirakı ilə "Eko Məkan"da müxtəlif ekoloji maarifləndirmə tədbirləri, təlimlər və praktiki seminarlar keçiriləcək. Qeyd edək ki, "Eko Məkan" BDU-nun bir sıra beynəlxalq uğurlara imza atmış Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinin tabeliyində fəaliyyət göstərəcək. Bu Mərkəzdə tələbə və müəllimlər üçün təbiətə həsr olunmuş ekoturlar, təbiət yürüşləri və ətraf mühitin müxtəlif ekosistemlərinin öyrənilməsi üzrə tədbirlər də təşkil ediləcək, tələbələrin birbaşa iştirakı ilə ekoloji mövzularda elmi-tədqiqat layihələri və təcrübə proqramları, tələbələr arasında ekoloji layihələr üzrə müsabiqələr təşkil olunacaq, ekoloji məsələlərə dair innovativ həll yolları təqdim ediləcək.

Qeyd edək ki, layihə çərçivəsində həyata keçiriləcək tədbirlər yalnız BDU-nun tələbələri üçün deyil, ölkənin ümumtəhsil məktəblərinin şagirdləri və digər ali təhsil müəssisələrinin tələbələri, ümumilikdə geniş ictimaiyyət üçün nəzərdə tutulub. "Eko Məkan"da həyata keçiriləcək tədbirlər sayəsində ətraf mühitin qorunması mövzusunda geniş ictimai maarifləndirmə işləri aparılacaq, BDU-nun sosial fəaliyyəti daha da gücləndiriləcək.

"Eko Məkan"ın yaşıl sahələrində Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təqdim etdiyi Hirkan şümşadı ("Buxus hyrcana"), Oleandr ("Nerium Oleander"), Avropa ərgəvanı ("Cercis siliquastrum"), Yapon birgözü ("Ligustrum japonicum texanum"), Budaqlı danaya ("Danae racemosa"), Həmişəyaşıl başınağacı ("Viburnum tinus"), Qərb tuyası ("Thuja occidentalis") və s. kimi nadir bitkilər də əkilib, xüsusi milli dizaynlı oturacaqlar quraşdırılıb.

BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) (Sustainable Development Goals - SDG) dəstək olacaq "Eko Məkan" gənclər və geniş ictimaiyyət arasında ekoloji təhsilin təşviqi, təbiətin qorunmasının vacibliyi barədə məlumatların çatdırılması baxımından SDG-4 (Keyfiyyətli təhsil), şəhər ərazilərində yaşıl sahələrin artırılması və şəhərlərin ekoloji cəhətdən dayanıqlı olması baxımından SDG-11 (Dayanıqlı şəhərlər və icmalar), iqlim dəyişmələrinin təsirlərinin azaldılması, bu dəyişmələrə uyğunlaşmaq, davamlı enerjidən və təbii resurslardan səmərəli istifadə üçün tədbirlərin həyata keçirilməsi baxımından SDG-13 (İqlim dəyişikliyi ilə mübarizə), təbiətin və yerüstü ekosistemlərin və bioloji müxtəlifliyin qorunması və bərpası, xüsusilə nadir və məhv olmaq təhlükəsi ilə üzləşən bitki növlərinin mühafizəsi baxımından SDG-15 (Yerüstü ekosistemlərin qorunması), və müxtəlif təşkilatlar, yerli və beynəlxalq tərəfdaşlar ilə birgə əməkdaşlıq çərçivəsində resursların və təcrübələrin paylaşılması, habelə ekoloji sahədə yeni təşəbbüslərin inkişafı baxımından SDG-17 (Məqsədlər üçün tərəfdaşlıq) məqsədlərinə uyğun fəaliyyət göstərəcək. Layihə DİM-lərə nail olmaq üçün ekoloji təhsil ilə yanaşı, biomüxtəlifliyin və ekosistemlərin davamlılığını təmin etmək üçün əhəmiyyətli nümunə hesab edilə bilər.



(əvvəli 8-ci səhifədə)

Layihə çərçivəsində BDU yalnız yerli ekoloji təşkilatlarla deyil, beynəlxalq təşkilatlarla da sıx əməkdaşlıq etmək niyyətindədir. Bu əməkdaşlıq sayəsində ətraf mühitin qorunması mövzusunda qabaqcıl təcrübələrin Azərbaycana gətirilməsi və yerli ekoloji təşkilatların fəaliyyətlərinin beynəlxalq səviyyədə tanınması üçün zəmin yaradılacaq. Təşkil olunacaq könüllülük proqramları əsasında tələbələrin yerli və beynəlxalq ekoloji fəaliyyətlərə cəlb olunması planlaşdırılır.

Ölkənin şagird, tələbə və gənc tədqiqatçıları arasında yaşıl texnologiyalardan daha geniş istifadənin və elmi tədqiqatlarda ekoloji yanaşmaların tətbiqinin təşviqi, habelə Azərbaycanın "yaşıl artım" ölkəsinə çevrilməsi istiqamətində gənclər arasında əlaqələrin genişləndirilməsi baxımından "Eko Məkan"ın çoxşaxəli fəaliyyətinə inanırıq.

Qeyd edək ki, "Eko Məkan" dövlət-özəl tərəfdaşlığı çərçivəsində BDU ilə "Bayramli Group", həmçinin "LU-MUN Holding" və "Azecolab" şirkətləri ilə əməkdaşlıq çərçivəsində ərsəyə gəlib. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi layihəyə xüsusi dəstək verib. Davamlı inkişaf prinsiplərini dəstəkləyən bu tərəfdaşlıq çərçivəsində hər bir tərəf öz resursları və imkanları hesabına "Eko Məkan" layihəsinin inkişafına dəstək verəcək, layihənin uzunmüddətli istifadəsinə və cəmiyyət üçün faydasının artırılmasına xidmət edəcək.

# BDU tələbələri "Azərkosmos"un "Yer səthinin məsafədən müşahidəsi" müsabiqəsinin finalçısı olublar

***Noyabrın 28-də Coğrafiya fakültəsinin magistrantı İmran Bayramov və IV kurs tələbəsi Sona Paşayeva Azərbaycan Respublikasının Kosmik Agentliyinin ("Azərkosmos") təşkil etdiyi "Yer səthinin məsafədən müşahidəsi" müsabiqəsinin finalçısı olublar.***

Belə ki, Coğrafiya fakültəsinin magistrantı İmran Bayramovun "Sərsəng su anbarı və ətraf ərazilərində təbii-ekoloji şəraitin məskunlaşma prosesinə və təsərrüfatın inkişaf imkanlarına təsirinin tədqiqi" və IV kurs tələbəsi Sona Paşayevanın "Ekoloji və rekreasiya təyinatlı yaşıllıqların şəhərlərin dayanıqlı inkişafına təsirinin tədqiqi (Xaçmaz inzibati rayonu timsalında)" mövzularında elmi layihələri finala çıxan 52 layihə arasında yer alıb.

"Sərsəng su anbarı və ətraf ərazilərində təbii-ekoloji şəraitin məskunlaşma prosesinə və təsərrüfatın inkişaf imkanlarına təsirinin tədqiqi" mövzusunda layihə çərçivəsində Sərsəng su anbarının əsas hidroekoloji, geomorfoloji və ekocoğrafi parametrləri hesablanıb, təhlil olunub və beynəlxalq qiymətləndirmə meyarları ilə uyğunlaşdırılıb. İşğaldan sonra Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına Böyük Qayıdış fonunda aparılmış inzibati ərazi islahatlarının nəticəsi olaraq yenidən yaradılmış Ağdərə rayonunun davamlı sosial-iqtisadi inkişafı və onun ərazisində yerləşən Sərsəng su anbarından dayanıqlı istifadə məqsədi ilə təkliflər işlənib hazırlanıb. Layihənin ərsəyə gəlməsində "Google Earth Pro", "Google My Map", "QGis" və s. xəritələrin CİS mühitində emalı alətlərindən istifadə olunub. Layihə çərçivəsində "Azərkosmos"un təqdim etdiyi 2017, 2020 və 2023-cü illərə aid peyk təsvirləri ilə yanaşı, digər peyklərin ("Sentinel", "Landsat" və b.) təsvirləri də istifadə edilib. Aparılmış tədqiqatlar nəticəsində Sərsəng su anbarının ətraf ərazilərinin təbii şəraiti ilə yanaşı, həm də ölkənin qərb rayonları ilə nəqliyyat-kommunikasiya perspektivlərinin geniş olduğu müəyyənləşdirilib. Layihə çərçivəsində beynəlxalq standartlara və təcrübələrə əsaslanan Sərsəng su anbarı üçün sahil ekosistemlərini idarəetmə planı (SEİP) da hazırlanıb.

"Ekoloji və rekreasiya təyinatlı yaşıllıqların şəhərlərin dayanıqlı inkişafına təsirinin tədqiqi (Xaçmaz inzibati rayonu timsalında)" mövzusunda layihədə isə Xaçmaz şəhərinin 2035-ci ilə qədərki dövrdə inkişafına dair "Xaçmaz şəhərinin Baş planı" çərçivəsində şəhərin inkişaf zonasına daxil olan ərazilərdə mövcud və yaradılması nəzərdə tutulan infrastruktur təhlil olunub. Şəhər ekosisteminin davamlılığı naminə ekoloji və rekreasiya təyinatlı yaşıllıqların sayının artırılmasına dair konkret təkliflər hazırlanıb. Layihənin icrası üçün "Azərkosmos" tərəfindən təqdim olunmuş 2018 və 2023-cü illərə aid Xaçmaz şəhəri və onun ətraf ərazilərini əhatə edən peyk təsvirləri şəhərin Baş planında nəzərdə tutulan inkişaf əraziləri ilə uyğunlaşdırılıb. Əldə olunmuş nəticələr əsasında ilkin mərhələdə üç istiqamət üzrə tövsiyələrin tətbiqi üzrə təkliflər verilib. Layihədə Xaçmaz şəhərinin yaşıllıqlarla əhatə olunması üzrə beynəlxalq müqayisələr də aparılıb. Müasir və dayanıqlı şəhərsalma təcrübələri üzrə Çin, İspaniya, Macarıstan, Polşa, Birləşmiş Ərəb Əmirlikləri, Filippin, Pakistan və s. ölkələrdə aparılmış tədqiqatlar öyrənilib və Xaçmaz şəhərinin dayanıqlı şəhər idarəetmə multi-modeli təklif olunub. Şəhər əhalisinin artım dinamikası və yaşıllıqların dəyişmə dərəcəsi arasında kəmiyyətlərin korrelyasiya əlaqəsi qurulub və BMT-nin "UN-Habitat" məskunlaşma proqramının tövsiyə etdiyi UED indikatoru və şəhər landşaftlarının antropogenləşmə səviyyəsi müəyyən edilib.

# "Deputatlar üçün iqlim dəyişmələrinə dair bələdçi"nin Azərbaycan dilindəki nüsxəsinin təqdimat mərasimi keçirilib

***Noyabrın 14-də ADA Universitetində Azərbaycan Milli Məclisinin deputatları, hökumət orqanları və qərarverici şəxslər üçün yeni mənbə olan "Deputatlar üçün iqlim dəyişmələrinə dair bələdçi"nin Azərbaycan dilindəki nüsxəsinin təqdimat mərasimi keçirilib.***

İlk dəfə bu ilin oktyabr ayında Böyük Britaniya Parlamentində "Peers for the Planet" qrupu və Ekseter Universiteti tərəfindən dərc edilmiş bələdçi "Globe International" tərəfindən Azərbaycan dilinə çevrilərək COP29 çərçivəsində təqdim olunur.

Dünyanın iqlim üzrə aparıcı yüz aliminin çalışdığı Ekseter Universiteti tərəfindən bir qrup görkəmli elmi ekspert və təşkilatın müəllifliyi ilə hazırlanmış bələdçi siyasətçilərə ən son iqlim biliklərinə dair mənzərəni təqdim edir.

Təqdimat mərasimində Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, Milli Məclisin deputatı, COP29 üzrə GLOBE Parlament çempionu Fariz İsmayılzadə, "GLOBE International"ın rəhbəri xanım Malini Mehra və vitse-kanslerin müavini, Böyük Britaniyanın Ekseter Universitetinin yaşıl gələcək üçün həllər direktoru Stüart Broklhörst iştirak ediblər.

BDU-nun rektoru, kitabın ön sözünün müəllifi Elçin Babayev qeyd edib ki, dünya ölkələrinin üzləşdiyi ən böyük çağırışlardan olan iqlim dəyişmələri bütün xalqları bir araya gətirərək, davamlı gələcəyin təmin olunması üçün həmrəylik tələb edir. Azərbaycanın bu qlobal mübarizədə fəal iştirakı dövlətimizin həyata keçirdiyi məqsədyönlü siyasət və genişmiqyaslı təşəbbüslər sayəsində mümkün olub. 2024-cü ilin Azərbaycan Respublikasında "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi bu istiqamətdə dövlətimizin qətiyyətli mövqeyini bir daha nümayiş etdirir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Bakıda keçirilən 29-cu sessiyası (COP29) ölkəmizin iqlim dəyişmələri ilə bağlı qlobal əməkdaşlıqda mühüm söz sahiblərindən biri olduğunu bir daha təsdiqləyir. Bu beynəlxalq tədbir ölkəmizin iqlim dəyişmələri ilə mübarizədə əldə etdiyi nailiyyətləri və həyata keçirməyi planlaşdırdığı addımları beynəlxalq ictimaiyyətə təqdim etmək üçün unikal imkan yaradır.

Rektor bildirib ki, "Deputatlar üçün iqlim dəyişmələrinə dair bələdçi" iqlim dəyişmələrinin səbəbləri, nəticələri və onların qarşısının alınması yolları haqqında elmi məlumatları deputatlara və digər maraqlı tərəflərə çatdıraraq, qərar qəbuletmə prosesində onlara dəstək göstərməyi hədəfləyir, habelə bu qlobal problemi həll etmək üçün mövcud olan mümkün tədbir və strategiyalar haqqında dolğun məlumat verir: "İqlim dəyişmələri yalnız ekosistemləri və hava şəraitini deyil, həm də iqtisadiyyat, ictimai sağlamlıq, enerji təhlükəsizliyi və qlobal siyasi münasibətləri də əhəmiyyətli dərəcədə təsir altına alır. Bu məqamları dərindən başa düşmək isə genişmiqyaslı qanunvericilik təşəbbüslərinin və effektiv siyasətlərin inkişaf etdirilməsində vacib rol oynayır. Bu nəşr həm milli, həm də beynəlxalq səviyyədə müasir və effektiv siyasətlərin formalaşdırması baxımından böyük rol oynayacaq. Bu bələdçi geniş oxucu kütləsinin, o cümlədən müvafiq sahələrdə təhsilalanların iqlim dəyişmələri məsələlərinə dair biliklərinin artırılmasına kömək edəcək, akademik həyat və tədqiqatçılar üçün etibarlı mənbə olacaq".

Tədbirə Böyük Britaniya Parlamentinin Lordlar palatasının partiyalararası iqlim və təbiət qrupu olan "Peers for the Planet"in sədri baronessa Helen Hayman və Ekseter Universitetinin prezidenti və vitse-kansleri Liza Roberts virtual qaydada qoşulublar.

Bu tədbir parlament üzvləri, COP29-da iştirak edən iqlim üzrə ekspertlər və digər VIP iştirakçılarla əlaqə qurmaq, iqlim dəyişikliyi ilə bağlı əməkdaşlıq və COP29-un nəticələrinin tətbiqi sahəsində səyləri gücləndirmək üçün fürsət yaradıb.

# Milli varlığımızın rəmzi – Azərbaycan bayrağı!

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2009-cu il noyabrın 17-də imzaladığı Sərəncama əsasən, hər il ölkəmizdə 9 noyabr Dövlət Bayrağı Günü kimi qeyd edilir.***

Milli varlığımızın rəmzi olan bayrağımız ilk dəfə 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə qəbul edilib. Üçrəngli bayrağımızın ikinci dəfə müstəqilliyimizin atributu kimi yüksəlməsi isə Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada üçrəngli, ay-ulduzlu bayrağımız Muxtar Respublikanın dövlət bayrağı kimi qəbul edildi. Bu, olduqca cəsarətli və uzaqgörən bir addım, eyni zamanda müstəqilliyimizə gedən yolda ciddi dönüş nöqtəsi idi. Sessiyada Naxçıvan Muxtar Respublikası Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağımızın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırdı.

Nəticədə 1991-ci il fevralın 5-də bayraq Azərbaycan Respublikasının Ali Soveti tərəfindən ikinci dəfə dövlət rəmzi kimi təsdiq edildi.

1991-ci il oktyabrın 18-də dövlət müstəqiliyimizi bərpa etdikdən sonra "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə




Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzləri, o cümlədən üçrəngli bayrağımız da bərpa edildi. "Türkləşmək, müasirləşmək, islamlaşmaq" ideyasını rənglərində əbədiləşdirən bayrağımız müasir Azərbaycanın tarixi dövlətçilik ənənələrinə sadiqliyini bir daha nümayiş etdirir, bu ənənələri inamla yaşadır.

Azərbaycan Respublikasının dövlət bayrağından istifadə Azərbaycan Respublikası Konstitusiyasının 23-cü və 75-ci maddələri, "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Azərbaycan Respublikasının Qanunu, eləcə də həmin Qanunla təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Əsasnamə" əsasında tənzimlənir. Azərbaycan Respublikasının Dövlət bayrağının rəngli və sxematik təsviri adı çəkilən Qanun və Əsasnamə ilə təsdiq edilib.

Bütün tarixi, əlamətdar günlərdə, dövlət başçılarının rəsmi səfərlərində, beynəlxalq tədbirlərdə, idman yarışlarında, olimpiadalarda Azərbaycanın adını yüksəldiyi ucalıqlardan dünyaya çatdıran da varlığımızı təsdiqləyən bayrağımızdır. Azərbaycan bayrağı bütün dövlət

*Bütün tarixi, əlamətdar günlərdə, dövlət başçılarının rəsmi səfərlərində, beynəlxalq tədbirlərdə, idman yarışlarında, olimpiadalarda Azərbaycanın adını yüksəldiyi ucalıqlardan dünyaya çatdıran da varlığımızı təsdiqləyən bayrağımızdır.*

təşkilatlarının, respublikamızdan kənarda diplomatik korpuslarımızın, nümayəndəliklərimizin binaları üzərində müstəqilliyimizin rəmzi kimi dalğalanır. Beynəlxalq tədbirlərdə dünya dövlətlərinin bayraqları arasında Azərbaycanın simvolu kimi dayanır.

Dörd il öncə müzəffər Azərbaycan Ordusu otuz ilə yaxın düşmən işğalında qalan əzəli torpaqlarımızı xilas etdi. O günlərdə bütün Azərbaycan xalqını ən çox qürurlandıran anlardan biri də döyüşçülərimizin Ermənistan silahlı qüvvələrini məğlubiyyətə uğradaraq, azad etdikləri hər bir şəhərdə dövlət bayrağımızı ucaltmalarını və bu barədə Ali Baş Komandan İlham Əliyevə məlumat verməlerini əks etdirən videogörüntülər idi. Ermənistan öz layiqli cavabını döyüş meydanında aldı. Düşmənin silahlı qüvvələri qəhrəman Azərbaycan ordusu tərəfindən darmadağın edildi. Ötən il aprelin 23-də isə Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qoymaqla ərazi bütövlüyümüzü tam bərpa edildi. Ötən ilin sentyabrın 19-da cəmi 24 saat belə davam etməyən antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz məskunlaşmış Ermənistan ordusu təslim oldu, suverenliyimiz tam təmin olundu. Oktyabrın 15-də isə Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xankəndidə, Xocalıda, Əsgəranda üçrəngli bayrağımızı ucaltmaqla "Qarabağ Azərbaycandır!" hökmünü bir daha təsdiqlədi.

Hərb meydanında əldə etdiyimiz bu tarixi qələbələrin əldə edilməsi zamanı Azərbaycan xalqı öz Prezidentinin, Ordusunun yanında bir yumruq kimi birləşərək Vətən üçün can verməyə hazır, qan tökməyə qadir olduğunu bir daha göstərdi.

Dostlarımızı sevindirən, düşmənimizi xar edən üçrəngli bayrağımız dövlətimizin əzəmətini və gücünü bütün dünyaya təsdiqləyir. Bütövləşən Vətənimizdə qürurla dalğalanır – bu torpaqların əbədi sahibinin kim olduğunu bir daha bəyan edir!

Dövlətimizin, xalqımızın gücünə güc qatan bayrağımız daim zirvələrdə dalğalansın!

# Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsindən 29 il ötür

***Konstitusiya hər bir hüquqi dövlətin sarsılmaz təməlidir. Bu gün Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsindən 29 il ötür. Müstəqil Azərbaycanın Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də keçirilmiş ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilib və noyabrın 27-də qüvvəyə minib. Dövlətin əsas Qanununun yaradılmasında Bakı Dövlət Universitetinin elm xadimlərinin də müstəsna xidmətləri olub.***

1995-ci ildə qəbul olunmuş Konstitusiya müstəqil Azərbaycanın ilk, ümumilikdə isə ölkəmizin tarixində dördüncü Konstitusiyasıdır. Azərbaycanın ilk Konstitusiyası 1921-ci ilin mayın 19-da, SSRİ Konstitusiyasına uyğunlaşdırılmış yeni redaksiyalarda isə 1925-ci il martın 14-də və 1978-ci ilin aprelin 21-də qəbul edilib.

Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biridir. Bu Konstitusiya müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yara-




dan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi sferalarında köklü dəyişiklikləri özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan mükəmməl və mütərəqqi bir sənəddir. Konstitusiya insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi kimi bəyan edir. Hakimiyyət bölgüsünün əsas prinsiplərini müəyyənləşdirir. İnsan və vətəndaş hüquqlarının, azadlıqlarının müdafiəsini qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları üzərinə ümdə vəzifə olaraq qoyur.

Ümummilli Lider Heydər Əliyev deyirdi: "Bu Konstitusiya Azərbaycan xalqının keçdiyi tarixi inkişaf yolunun məntiqi nəticəsidir. Konstitusiya ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, müstəqil dövlətçiliyimizin qorunub saxlanması, möhkəmləndirilməsi və demokratik dəyişikliklərin həyata keçirilməsi üçün hərtərəfli zəmin və şərait yaradır. Azərbaycanın tarixi keçmişini, bugünkü reallıqlarını və gələcək inkişaf perspektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənməsi Konstitusiyamızı səciyyələndirən əsas cəhətlərdir".

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinə hüquqi baza yaradıb və onun inkişafına güclü təkan verib. Azərbaycan Respublikasının Konstitusiyası qəbul edilərkən hüquqi dövlət quruculuğunun müasir meyllərinə istinad olunub, ölkəmizin hüquq sistemi üçün yeni bir təsisatın - konstitusiya ədalət mühakiməsi orqanının yaradılması nəzərdə tutulub, bu məddəaya əsasən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi yaradılıb. Hazırda bu qurum qanunların Konstitusiyaya uyğunluğunu yoxlamaqla, qanunlara şərh verməklə, prezident və parlament seçkilərinin nəticələrini təsdiqləməklə, hətta vətəndaşların birbaşa müraciəti əsasında müvafiq qərarlar qəbul etməklə bütövlükdə, Konstitusiyanın aliliyini qoruyur.

Ötən 29 ildə ölkəmizin sürətli inkişafı nəticəsində yeni dövrün tələblərinin yaratdığı zərurətlə əlaqədar 2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da referendum yolu ilə Azərbaycan Konstitusiyasına bir sıra əhəmiyyətli dəyişikliklər və əlavələr edilib. Konstitusiyaya edilən bu əlavə və dəyişikliklər nəticəsində əsas Qanunumuz daha da təkmilləşdirilərək yeni dövrün tələblərinə uyğunlaşdırılıb.

Prezidentimiz İlham Əliyevin də vurğuladığı kimi, "Universal dəyərlərə əsaslanan Azərbaycan Konstitusiyası bu gün də böyük hüquqi, siyasi və ideoloji potensiala malikdir və Azərbaycan xalqının firavanlığına xidmət edir".

# BDU əməkdaşı XXII Beynəlxalq türk dünyası sosial elmlər konfransında məruzə edib

*Noyabrın 4-də Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin əməkdaşı, iqtisad üzrə fəlsəfə doktoru Qalib Qafarlı XXII Beynəlxalq türk dünyası sosial elmlər konfransında iştirak edib.*



Konfransa Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) Beynəlxalq Final Universiteti ev sahibliyi edib. Konfransın açılışında ŞKTC-nin Prezidenti Ersin Tatar, universitet rektorları və türk dünyasının müxtəlif ölkələrindən olan tanınmış alimlər iştirak edib.

BDU əməkdaşı konfransda "İqtisadiyyatın rəqabət qabiliyyətlilik göstəricilərinə təsir edən amillər" adlı məruzə ilə çıxış edib. Məruzədə iqtisadiyyatın effektivliyini artırmaq və beynəlxalq rəqabətdə güclənmək üçün nəzərə alınması vacib olan faktorlardan bəhs edilib. Alim çıxışında ölkələrin rəqabətdə üstünlük qazanması üçün innovasiya, infrastrukturun təkmilləşdirilməsi, insan kapitalının inkişafı və strateji idarəetmə kimi amillərin roluna xüsusi diqqət yetirib. Çıxışının sonunda belə beynəlxalq tədbirlərin türk dünyası ölkələri arasında elmi inteqrasiyanı gücləndirdiyini, bilik və təcrübə mübadiləsinə şərait yaratdığını vurğulayıb.

Məruzə konfrans iştirakçıları tərəfindən maraqla qarşılanıb. Məruzəçi ona ünvanlanan sualları cavablandırıb. Daha sonra tədqiqatçıya konfransda iştirak və çıxışla əlaqəli beynəlxalq sertifikat təqdim olunub.

# BDU-da elmi seminar: "Yaşıl kitabxana konsepsiyası"

*Noyabrın 16-da İnformasiya və sənəd menecmenti fakültəsində Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş elmi seminar keçirilib.*

Elmi seminarda BDU-nun Kitabxanaşünaslıq kafedrasının dosenti Pərviz Kazimi "Yaşıl kitabxana konsepsiyası" mövzusunda məruzə edib. Əvvəlcə Prezident İlham Əliyevin Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Sərəncamının əhəmiyyəti diqqətə çatdırılıb. Bu istiqamətdə həyata keçirilən layihələrdən bəhs olunub. "Yaşıl dünya naminə həmrəylik ili"ndə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Azərbaycanda keçirilməsinin ölkəmizə, dövlət başçımıza olan etimadın göstəricisi olduğu vurğulanıb.

Məruzədə kitabxana-informasiya fəaliyyətində yeni və mühüm istiqamət kimi meydana çıxan yaşıl kitabxana konsepsiyası şərh olunub, bu konsepsiyanın reallaşdırılmasının cəmiyyətin həyatında oynayacağı rolun mahiyyəti və məzmunu geniş şəkildə izah edilib. Xarici mütəxəssislərin bu sahədə apardığı tədqiqatlar barədə ətraflı məlumatlar iştirakçıların nəzərinə çatdırılıb. Kitabxana Assosiasiyaları və İnstitutları Beynəlxalq Federasiyasının (IFLA) hesabatları və qəbul etdiyi müvafiq sənədlər əsasında hazırlanmış təqdimatda yaşıl kitabxana konsepsiyasının məqsədi, arxitekturası, vəzifələri elmmetrik səviyyədə öyrənilib. Pərviz Kazimi qeyd edib ki, hazırda yaşıl kitabxana hərəkatının genişləndirilməsi, bu tipli kitabxanaların standartlaşdırılması və sertifikasiyası məsələləri aktual problemlərdəndir: "Yaşıl kitabxana konsepsiyasının həyata keçirilməsi proseslərində enerjiyə və digər resurslara qənaət, ətraf mühitin və insan sağlamlığının qorunması kimi amillər diqqət mərkəzində olmalı, bu mühüm tələblərə cavab verən infrastruktur yaradılmalıdır".

Məruzədə ölkəmizdə fəaliyyət göstərən kitabxanaların bu istiqamətdə mövcud resurs və potensiallarından da bəhs olunub. Elmi seminar müzakirələrlə davam edib.

# Təhsil İnstitutunun direktor müavini Fuad Qarayev BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin müəllim və şagirdləri ilə görüşüb

*Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi son illər istedadlı şagirdlərin aşkar olunması və onların potensialından məqsədyönlü istifadə edilməsi istiqamətində bir sıra layihələr həyata keçirir. Bu layihələr çərçivəsində BDU-da Əməkdar müəllim, Təhsil İnstitutunun direktor müavini Fuad Qarayevlə görüş keçirilib.*

Görüşün keçirilməsində məqsəd şagirdlərdə nazirliyin, Təhsil İnstitutunun həyata keçirdiyi layihələrə, olimpiada hərəkatına marağının gücləndirilməsidir. Görüşdə "Gənc istedadlar" liseyinin elmə, biliyə xüsusi həvəsi olan şagirdləri və müəllim kollektivi iştirak edib.

Liseyin direktoru Fuad Babayev məktəblilərin beynəlxalq və Respublika fənn olimpiadalarına, "Sabahın alimi" və digər müsabiqələrə hazırlığının əhəmiyyətindən söz açıb.

Sonra Təhsil İnstitutunun direktor müavini Fuad Qarayev istedadlı uşaqların aşkara çıxarılması ilə bağlı görülən işlər, beynəlxalq və Respublika fənn olimpiadalarının keçirilmə mexanizmi, formatı haqqında şagirdlərə məlumat verib.



Sonda şagirdlərin sualları cavablandırılıb.

# BDU-da Hüseyn Arifin 100 illik yubileyi qeyd olunub

***Noyabrın 14-də Filologiya fakültəsində Dövlət mükafatı laureatı, Xalq şairi Hüseyn Arifin 100 illik yubileyinə həsr olunmuş ədəbi-bədii tədbir keçirilib. Tədbirdə fakültənin professor-müəllim heyəti və tələbələr iştirak ediblər.***

BDU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti, "Söz" Yaradıcılıq Birliyinin rəhbəri Məti Osmanoğlu bildirib ki, ədəbi aləmə 1940-cı illərdə Hüseyn Hüseynzadə imzası ilə qədəm qoyan Hüseyn Arifin şair kimliyi, ədəbiyyat tarixindəki təyinatı özünü 1960-cı illərdə təsdiqləyib. Cəmiyyət üçün də, elm, mədəniyyət və ədəbiyyat üçün də köklü dəyişmələr, böyük silkələnmələr dövrü olan həmin illərdə Hüseyn Arifin təmsil etdiyi təbiət poeziyası ədəbiyyatımızda yeni bir təmayül kimi müəyyənləşib.

BDU-nun Ümumi dilçilik kafedrasının müdiri, akademik Nizami Cəfərov Hüseyn Arifin xarakterinin özünəməxsusluğuna diqqət çəkib, şairin şəxsiyyəti ilə yaradıcılığının bir-birini tamamladığını vurğulayıb. Sovet dövründə Azərbaycan Respublikasının Dövlət himninin mətninin yazılmasının Ümummilli Lider Heydər Əliyev tərəfindən Hüseyn Arifə həvalə edilməsinin təsadüf olmadığını vurğulayan akademik Nizami Cəfərov şairin bənzərsiz poeziyasının həm ədəbiyyat tariximiz, həm də milli oyanışımız baxımından fərqli hadisə olduğunu qeyd edib.

Tərdbirdə Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti Mətanət Saraclı, Türkologiya kafedrasının dosenti İslam Vəliyev, fakültə üzrə Tələbə Gənclər Təşkilatının sədri Hümbət Bədəlov çıxış edərək, şairin yaradıcılığının müxtəlif aspektləri haqqında məlumat veriblər.

Tədbirdə tələbələrin ifasında Hüseyn Arifin şeirlərindən nümunələr səsləndirilib, Aşıq İlqar Qələmçəli şairin sevdiyi saz havalarını ifa edib.

# "Yaşıl Dialoq: İnnovasiya və Beynəlxalq Əməkdaşlıq Platforması" layihəsi çərçivəsində panel müzakirələr davam edir

*Noyabrın 18-də COP29 çərçivəsində Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi, BDU, Qarabağın Tərəqqisi Naminə İctimai Birliyi və Afrika Gənclərinin İnkişafı Fondunun birgə təşkilatçılığı ilə ekoloji problemlərin həllinə və davamlı inkişafın dəstəklənməsinə yönəlmiş "Yaşıl Dialoq: İnnovasiya və Beynəlxalq Əməkdaşlıq Platforması" layihəsinin növbəti müzakirə paneli keçirilib.*

COP29-un Yaşıl zonasında Qarabağın Tərəqqisi Naminə İctimai Birliyinin nümayəndəsi Sənan Ağayevin moderatorluğu ilə keçirilən müzakirədə Afrika Diplomatiya və Beynəlxalq Əlaqələr Məktəbinin vitse-prezidenti, Afrika Gənclərinin İnkişafı Fondunun rəhbəri, professor Tunji Asaolu, BDU rektorunun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov və GEM CRS təşkilatının icracı direktoru Liya Bayramova iştirak ediblər. Panel zamanı professor Tunji Asaolu "Davamlı gələcəyin qurulması: əsas fokus sahələri", Liya Bayramova "Uşaqlar üçün iqlim təhsili və maarifləndirmə", Asiman İlyasov "Ali təhsildə Dayanıqlı İnkişaf Məqsədlərinə yönəlmiş keyfiyyət təminatı və reytinqlərin əhəmiyyəti" mövzularında çıxışlar ediblər.

Layihənin əsas məqsədi su qıtlığı, torpaqların şoranlaşması və meşə fondunun azalması kimi ekoloji problemlərin həlli üçün sosial maarifləndirmə və beynəlxalq əməkdaşlığın gücləndirilməsidir. Layihə çərçivəsində yaradılan "Yaşıl Dialoq Forumu" hökumət nümayəndələri, özəl sahə ekspertləri və akademik mühit nümayəndələrini bir araya gətirən illik forumun keçirilməsi üçün təsis edilib.

# BDU-nun 410 tələbəsi payız semestri üzrə təhsil krediti alıb

***BDU-nun 410 tələbəsi 2024/2025-ci tədris ilinin payız semestri üzrə təhsil krediti almaq hüququ əldə edib. Onlardan 98-i sosial, 312-si isə standart təhsil kreditidir.***

2023/2024-cü tədris ilində isə ümumilikdə 705 BDU tələbəsinə təhsil krediti verilib. Onlardan 184-ü sosial, 521-i isə standart təhsil krediti olub. Təhsil krediti almaq istəyən tələbələr www.e-ttkf.edu.az üzərindən elektron müraciət edə bilərlər. Qeyd edək ki, təhsil tələbə krediti verilən zaman girov və ya zaminlik tələb olunmur. Təhsil tələbə krediti uzunmüddətlidir və təhsil müddətində, güzəşt və möhlət dövründə tələbədən kreditin qaytarılması tələb edilməməklə yanaşı, faizlər də hesablanmır.

# BDU-nun 105 illik yubileyi çərçivəsində fakültələrin təqdimatı: Mexanika-riyaziyyat fakültəsi

***Noyabrın 4-də BDU-nun 105 illik yubileyi ilə əlaqədar Mexanika-riyaziyyat fakültəsinin “Riyaziyyat elmlərin şahıdır” adlı tədbiri keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, daha sonra Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Rektor Elçin Babayev belə təqdimatların tələbələrin BDU-nun zəngin tarixə sahib olan fakültələri ilə yaxından tanış olmaq məqsədi daşıdığını deyib. O bildirib ki, ölkəmizin bir neçə məşhur elmi məktəbindən ən güclüsünü riyaziyyat elmi məktəbi hesab etmək olar. Bu məktəbin yaranması və formalaşmasında BDU alimləri mühüm rol oynayıblar: “Mexanika-riyaziyyat fakültəsinin məzunları sırasında nazirlər, deputatlar, hökumət nümayəndələri, elm-təhsil xadimləri var, bunlar fakültə üçün qürur mənbəyidir. Bu gün bizim riyaziyyatçılar ölkəmizi xaricdə böyük uğurla təmsil edirlər. Hazırda əsas məqsədimiz fakültənin daimi inkişafını təmin etməkdir. Fakültə tələbələrinin son illərdə beynəlxalq olimpiadalarda qızıl medala, yüksək yerlərə layiq görülməsi də bu inkişafın nəticəsidir”.



Daha sonra “Mexanika-riyaziyyat fakültəsinin dünəni və bu günü” adlı videoçarx nümayiş etdirilib.

Fakültə dekanı, professor Ziyatxan Əliiyev BDU-nun köklü fakültələrindən olan Mexanika-riyaziyyat fakültəsinin Fizika-riyaziyyat fakültəsinin bazasında yaradıldığını vurğulayıb: “1921-ci ildən başlayaraq 1930-cu ilədək fakültənin tərkibində Dəqiq riyaziyyat və Tətbiqi riyaziyyat kafedraları fəaliyyət göstərib. Fakültə 1958-ci ildən müstəqil fakültəyə çevrilib. Mexanika-riyaziyyat fakültəsinin ilk dekanı Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, professor Əşrəf Hüseynov olub. Respublikada riyaziyyat və mexanika elminin, neft sənayesinin, kibernetika və informatika sahələrinin inkişafında, bu sahədə peşəkar kadrların hazırlanmasında fakültənin böyük rolu olub. Ölkədə milli riyaziyyatçılar nəslinin yetişdirilməsində Məmməd Əfəndiyev, Mikayıl Xıdırzadə, Zahid Xəlilov, İbrahim İbrahimov, Əşrəf Hüseynov, Maqsud Cavadov, Qoşqar Əhmədov kimi alimlərin əvəzsiz xidmətləri var. Hazırda fakültədə AMEA-nın 2 müxbir üzvü, 20 elmlər doktoru, professor, 64 nəfər fəlsəfə doktoru, dosent, baş müəllim və müəllim çalışır. Fakültənin professor-müəllim heyəti müxtəlif təcrübə proqramlarında fəal iştirak edir, əməkdaşların beynəlxalq bazalarda indeksləşdirilmiş jurnallarda məqalələri nəşr olunur. Müəllimlər, doktorantlar, magistrantlar ölkə və beynəlxalq səviyyəli elmi konfrans və simpoziumlarda məruzələrlə çıxış edirlər. Fakültədə mütəmadi şəkildə elmi konfrans, seminar və ustad dərsləri təşkil olunur”.

Sonra çıxış edən Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, BDU-nun Funksiyalar nəzəriyyəsi və funksional analiz kafedrasının müdiri, professor Əli Əhmədov Mexanika-riyaziyyat fakültəsinin ölkəmizdə yüksəkixtisaslı kadrların hazırlanmasındakı rolundan və Bakı Dövlət Universitetinin uğurlu elm, təhsil siyasətindən söz açıblar.

Tədbir tələbələr arasında keçirilən riyazi yarış və bədii hissə ilə davam edib.

# BDU “QS Dayanıqlılıq Reytinqi 2025” nəticələrinə görə Azərbaycanda birincidir!

***Noyabrın 18-də Bakıda COP29 çərçivəsində dünyanın ən nüfuzlu reytinq təşkilatlarından biri olan “QS Quacquarelli Symonds” tərəfindən “QS Dünyanın ən yaxşı universitetlərinin reytinqi: Dayanıqlılıq 2025”in rəsmi nəticələri elan edilib.***




BDU böyük uğura imza ataraq “QS Dayanıqlılıq Reytinqi 2025” nəticələrinə görə Azərbaycanda lider mövqeyinə yüksəlib. Bütün BDU əməkdaşlarını və tələbələrini təbrik edirik!

Qeyd edək ki, BDU ötən ilin nəticələri ilə müqayisədə "QS Dayanıqlılıq Reytinqi 2025” reytinq siyahısında 345-dən çox pillə irəliləyib və 941-950-ci diapazonda qərarlaşaraq, Azərbaycanda TOP-1000-ə daxil olan yeganə ali təhsil müəssisəsi olub. Sözügedən reytinq dünyada davamlı inkişaf sahəsi üzrə fəaliyyəti ilə seçilən ən yaxşı ali təhsil müəssisələrinin siyahısını müəyyən edir.

Azərbaycandan “QS Dünyanın ən yaxşı universitetlərinin reytinqi: Dayanıqlılıq 2025”ə düşən digər ali təhsil müəssisələrini də təbrik edirik!

# BDU-da “QS Quacquarelli Symonds” reytinq agentliyinin nümayəndələri ilə görüş keçirilib

***Noyabrın 19-da BDU ilə nüfuzlu “QS Quacquarelli Symonds” beynəlxalq reytinq agentliyinin nümayəndələri arasında görüş keçirilib.***



Görüşdə BDU rektoru Elçin Babayev, Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova, QS-in baş vitse-prezidenti Ben Sovter, analitika və qiymətləndirmə üzrə direktoru Leigh Kamolins, regional direktoru Sergey Xristoliubov iştirak edib.

Rektor Elçin Babayev BDU-nun tədris, elmi tədqiqat və beynəlmiləlləşmə istiqamətləri üzrə son illər ərzində əldə etdiyi uğurlara dair reytinq agentliyinin nümayəndələrinə geniş məlumat verib. QS-in baş vitse-prezidenti Ben Sovter BDU-nu “QS Dayanıqlılıq Reytinqi 2025” reytinq siyahısında 345-dən çox pillə irəliləməsi və 941-950-ci diapazonda qərarlaşaraq, Azərbaycanda TOP-1000-ə daxil olan yeganə ali təhsil müəssisəsi olması münasibəti ilə təbrik edib.

Görüşdə rektorun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov reytinqlərlə iş istiqaməti üzrə görülən işlərə, eləcə də son illərdə əldə edilən uğurlara dair təqdimatla çıxış edib.

Daha sonra isə reytinq agentliyinin nümayəndələri ünvanlanan sualları cavablandırıblar.

# BDU və Türkiyənin Haliç Universiteti arasında əməkdaşlıq genişləndirilir

***Noyabrın 18-də BDU-nun nümayəndə heyəti Türkiyənin Haliç Universitetində olub, ali təhsil müəssisəsinin “Erasmus” ofisinin koordinatoru Serhat Orakçı ilə görüşüb.***

Görüşdə BDU ilə Haliç Universiteti arasında bu ilin sentyabrında anlaşma memorandumunun imzalanması xatırladılıb, təhsil və tədqiqat sahələrində əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsinin önəmi vurğulanıb.

Görüş zamanı BDU və Haliç Universiteti arasında “Erasmus+ KA171” mübadilə protokolunun imzalanması ilə bağlı razılığa gəlinib.

Əsası 1998-ci ildə qoyulmuş Haliç Universiteti Türkiyənin nüfuzlu universitetlərindən biridir. 17000 tələbənin təhsil aldığı Haliç Universitetində 12 fakültə, 1 məktəb, 1 texnopark və 65 laboratoriya fəaliyyət göstərir.

# Mənim universitetim

*Bakı Dövlət Universitetinin*
*105 illik yubileyinə*

Dünyaya səs salıb, möhtəşəm adın,
Səndən qanad açıb yaxınım, yadım,
Dodaqda, damaqda əvəzsiz dadın,
Mənim Universitetim,
Doğma ocağım,
Sönməsin heç zaman yanar çırağın!

Dahilərin elmi olub dayağın,
Alimlər yetirir tədris ocağın,
Fəxrlə bax, dalğalanır bayrağın
Mənim Universitetim,
Doğma ocağım,
Sönməsin heç zaman yanar çırağın!

Çümhuriyyətdən miras,
yerin qəlbdə
Yüz beş yaşlı müdriksən
Qoca Şərqdə
Sənə həmfikirdir çox şeydə
Qərb də
Mənim Universitetim,
Doğma ocağım,
Sönməsin heç zaman yanar çırağın!

Vətən övladına vardır hörmətin,
Zirvələr fəth edir elmin, zəhmətin,
Heç zaman itməsin qədir-qiymətin,
Mənim Universitetim,
Doğma ocağım,
Sönməsin heç zaman yanar çırağın!

Sənə dəyər verib gedənlərin var,
Adını anıb xoş gələnlərin var,
Qədrini mənimtək bilənlərin var,
Mənim Universitetim,
Doğma ocağım,
Sönməsin heç zaman yanar çırağın!

***Diləfruz Hüseynqızı,***
*Jurnalistika fakültəsinin*
*əməkdaşı*

# BDU-da “Yüksəliş” müsabiqəsinin daha 3 qalibi ilə görüş



***Noyabrın 5-də “BDU könüllüləri” təşkilatının təşəbbüsü ilə mentorluq proqramı çərçivəsində "Yüksəliş" müsabiqəsinin qalibləri Orxan Qazızadə, Ülkər Məlikova və Bayram Orucovla tələbələrin görüşü keçirilib.***

Hüquq fakültəsinin dekanı Zaur Əliyev “Yüksəliş” müsabiqəsinin həm liderlik keyfiyyətlərinin inkişafına, həm də ölkənin sosial-iqtisadi tərəqqisinə töhfə verməkdə əhəmiyyətli rol oynadığını qeyd edib. O, mentorluq proqramı çərçivəsində tələbə-gənclər üçün keçirilən silsilə görüşlərin müsabiqənin gələcək iştirakçılarının yetişməsində mühüm rola malik olduğunu deyib.

Görüşdə tələbələrə mentorluq proqramı və onun gənclərə verdiyi dəstək haqqında ətraflı məlumat verilib. “Yüksəliş” müsabiqəsinin qalibləri mentorluğun gənclərin peşəkar inkişafına, yeni əlaqələrin qurulmasına təsiri, effektiv ünsiyyət bacarıqları, hədəf təyin etmə və irəliləyişin izlənməsi üsulları barədə məlumatlandırıb, öz uğur hekayələrini paylaşıblar.

Görüş tələbələrin proqramla bağlı suallarının cavablandırılması ilə başa çatıb.

# BDU tələbələri arasında “105 yaşlı elm və təhsil məbədi” adlı esse müsabiqəsinin nəticələri açıqlanıb

***BDU-nun İctimaiyyətlə əlaqələr və informasiya şöbəsinin tələbələr arasında BDU-nun 105 illik yubileyi münasibətilə elan etdiyi “105 yaşlı elm və təhsil məbədi” adlı esse müsabiqəsi başa çatıb. Müsabiqədə BDU-nun 39 tələbəsi iştirak edib. Təqdim olunmuş esselər Müsabiqə komissiyası tərəfindən qiymətləndirilib.***

Müsabiqə komissiyasının qərarı ilə I yerə Tarix fakültəsinin II kurs tələbəsi Zivərxanım Məmmədova, II yerə Filologiya fakültəsinin III kurs tələbəsi Xədicə İmanlı, III yerə Coğrafiya fakültəsinin II kurs tələbəsi Varis Əhmədlinin esseləri layiq görülüb.

Qalib gəlmiş tələbələr diplom və hədiyyələr ilə təltif ediləcək. Onların məqalələri BDU-nun rəsmi saytında, sosial mediada və “Bakı Universiteti” qəzetində dərc olunacaq.

Qalibləri təbrik edirik!

# BDU komandasının “SuperCapBack” layihəsi beynəlxalq müsabiqənin finalına vəsiqə qazanıb



***Noyabrın 12-də BDU-nun “BSU Creativity Workz” komandası 2024-cü il 13-15 noyabr tarixlərində Türkiyənin İstanbul şəhərində keçiriləcək “EV Charge Show” – Dünya Elektromobil Şarj Stansiyası İstehsalçılarının Qlobal Görüş Platforması çərçivəsində "E-mobillik innovasiya ve startap yarışması"nın finalına vəsiqə qazanıb.***

Dünya üzrə elektromobil firmalarının və yeni nəsil şarj stansiyası istehsalçılarının iştirak etdiyi adıçəkilən konfrans 2022-ci ildən etibarən Türkiyədə keçirilir. Bu konfransın məqsədi elektromobillərdə istifadə olunan batareya və şarj texnologiyalarını inkişaf etdirmək, innovativ rəqəmsal həlləri və təmiz enerji istifadəsinə əsaslanan layihələri dəstəkləməkdir. 2024-cü ildə keçiriləcək növbəti konfransda 20 mindən çox ziyarətçinin, dünyanın 40-dan çox ölkəsindən 300-dən çox şirkətin iştirak edəcəyi gözlənilir.

Hər il konfrans çərçivəsində təşkil olunan "E-mobillik innovasiya və startap yarışması"nda müxtəlif komandalar elektromobillərdə istifadə olunan batareya və şarj texnologiyaları ilə bağlı layihələrini təqdim edirlər. Bu il müsabiqəyə 220 komanda layihə təqdim edib, onlardan 8-i final mərhələsinə vəsiqə qazanıb. Finala vəsiqə qazanan layihələr arasında BDU-nun “BSU Creativity Workz” komandası özünün “SuperCapBack” layihəsi ilə yer alır.

BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzində hazırlanan layihə elektromobillərdə istifadə olunan ənənəvi Li-ion batareyalarını ikiqat təbəqəli EDLC supertutumlu Li-ion hibrid birləşməsi ilə əvəz edərək, batareyaların effektivliyini artırmağı hədəfləyir. Belə ki, elektromobildəki regenerativ tormozlama sistemi hesabına yaranan dəyişən cərəyan və elektromobilin sürət götürməsi zamanı batareyadan ani alınan yüksək amperli sabit cərəyan səbəbindən ənənəvi Li-ion batareyalarının iş müddəti və effektivliyi azalır. “SuperCapBack” layihəsində elektromobildə yaranan bu zərərli cərəyanların təsirini minimallaşdırmaq məqsədilə cərəyanların giriş və çıxışlarına EDLC supertutumu, AC-DC çevirici və soyutma sistemi əlavə edilir. Bununla Li-ion batareyasının effektivliyi qorunur və iş müddəti artır.

# BDU tələbəsi “Azercell”in Tələbə Təqaüdü Proqramının qalibidir



***BDU-nun SABAH qruplarının “Hüquqşünaslıq” ixtisasının IV kurs tələbəsi Nuran İsmayılova “Azercell Telekom” MMC-nin təhsis etdiyi Tələbə Təqaüdü Proqramının qalibi olub.***

O, dörd ay müddətində şirkətin Hüquq, etika və şikayətlər departamentinin Korporativ hüquq şöbəsində fəaliyyət göstərəcək.

Proqramın məqsədi təqaüd almaqla yanaşı, tələbələrin telekommunikasiya sahəsində biliklərinin artırılması, korporativ tədbirlərdə, sosial fəaliyyətlərdə, müxtəlif təlimlərdə iştirakı və şirkətdə təcrübə keçmək şəraitinin yaradılmasıdır.

Tələbimizi təbrik edir, gələcək fəaliyyətində uğurlar arzulayırıq!

# BDU-nun SABAH məzunu Hökumətlərarası Təqaüd Proqramının qalibi olub




***BDU-nun SABAH qruplarının “Biologiya müəllimliyi” ixtisasının builki məzunu Günəş Mirzəyeva Hökumətlərarası Təqaüd Proqramları (HTP) çərçivəsində 2024/2025-ci tədris ili üzrə Çin Xalq Respublikasının Şanxay Universitetinə qəbul olub.***

O, 2024/2025-ci tədris ilində Çin Xalq Respublikasının nüfuzlu universitetlərində təhsil almaq hüququ qazanmış 28 Azərbaycan vətəndaşından biridir.

Məzunumuzu təbrik edir, gələcək fəaliyyətində uğurlar arzulayırıq!

# BDU komandası Çində keçirilən "Belt and Road” Beynəlxalq universitetlərarası startap yarışmasının qalibidir



***Noyabrın 2-də Çin Xalq Respublikasının Xian şəhərində "Belt and Road" Beynəlxalq universitetlərarası startap yarışmasında Azərbaycanı təmsil edən yeganə komanda olan Bakı Dövlət Universitetinin (BDU) “DAIGNOSIS” komandası yarışın beş qalibindən biri olub.***

Yarışma Çinin Xian Jiaotong Universiteti (XJTU) və İpək Yolu Universitet İttifaqı (University Alliance of the Silk Road - UASR) tərəfindən təşkil olunub. Tədbirdə Yaponiya, İngiltərə, Türkiyə, Rusiya, Yeni Zelandiya, Qazaxıstan, Özbəkistan və s. ölkələrdən 14 komanda və Çin Xalq Respublikasından 22 komanda “Yaşıl texnologiyalar”, “Elmi innovasiya”, “Rəqəmsal texnologiyalar” və “Səhiyyə texnologiyaları” kateqoriyaları üzrə yarışıb.

Tibbdə süni intellektin tətbiqinə dair layihə ilə çıxış edən BDU komandası həkim və xəstələri onlayn platformada bir araya gətirən mobil tətbiq təqdim edib. Mobil tətbiq daxilində ilkin simptomlara əsasən süni intellekt tərəfindən xəstələrə ilkin diaqnozun qoyulması, xəstəliyə ən uyğun həkimlərin seçilməsi, onlayn ilkin konsultasiyanın təşkili nəzərdə tutulub.

# BDU-da III Beynəlxalq Ənənədən Gələcəyə İnformasiya və Sənəd Menecmenti Simpoziumu keçirilib

***Noyabrın 28-də Bakı Dövlət Universitetində "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş "İnformasiya menecmenti və davamlı inkişaf" mövzusunda III Beynəlxalq Ənənədən Gələcəyə İnformasiya və Sənəd Menecmenti Simpoziumu öz işinə başlayıb. Simpozium Bakı Dövlət Universiteti, Türkiyənin Bartın Universiteti, Çankırı Karatekin Universiteti, Kastamonu Universitetinin birgə təşkilatçılığı ilə keçirilib.***




Simpoziumun Azərbaycan tərəfdən həmsədri, BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev bildirib ki, 1919-cu il sentyabrın 1-də əsası qoyulan Universitet təkcə Azərbaycanda elmin və təhsilin əsas mərkəzi deyil, həm də milli ictimai fikrin formalaşmasında və inkişafında mühüm rol oynayan məbəddir. Xarici nüfuzlu universitetlərlə ortaq layihələrin həyata keçirilməsinə xüsusi önəm verən BDU-nun beynəlxalq əməkdaşlığında qardaş Türkiyə Respublikası ilə əlaqələr aparıcı yer tutur. Son 3 ildə BDU Türkiyənin 30-dan artıq tanınmış universiteti ilə ən müxtəlif istiqamətləri əhatə edən memorandumlar imzalayıb. Bu gün öz işinə başlayan və iki gün davam edəcək III Beynəlxalq Ənənədən Gələcəyə İnformasiya və Sənəd Menecmenti Simpoziumu da qarşılıqlı əlaqələrimizə öz töhfələrini verəcək.

Əliş Ağamirzəyev vurğulayıb ki, Türkiyədə kitabxanaçılıq və informasiya fəaliyyəti, muzey, arxiv işi ixtisasları üzrə kadr hazırlayan universitetlər tərəfindən keçirilən nüfuzlu Simpoziuma ilk dəfə 2022-ci ildə Bartın Universiteti, 2023-cü ildə isə Çankırı Karatekin Universiteti ev sahibliyi edib. Hər iki simpoziumda həmtəşkilatçı olan BDU bu il mötəbər tədbirə ev sahibliyi edir. Həmtəşkilatçı universitetlərlə yanaşı, Türkiyənin digər nüfuzlu universitetləri, o cümlədən Ankara, Hacettepe, İstanbul, Mərmərə, Atatürk, İstanbul 29 Mayıs universitetləri də Simpoziumun təşkilinə dəstək verib. Simpoziumun məqsədi müvafiq ixtisaslar üzrə kadr hazırlayan universitetlərlə birlikdə sahə üzrə prioritet istiqamətləri müəyyənləşdirmək, akademik fəaliyyəti və elmi tədqiqatları əlaqələndirməyə xidmət etməkdir.

Simpoziumun Türkiyə tərəfdən həmsədri, Bartın Universitetinin İnformasiya və sənəd menecmenti bölümünün rəhbəri Ahmet Altay iki qardaş ölkənin informasiya və sənəd menecmenti sahəsində işbirliyinin faydalı olacağına əminliyini bildirib, tədbirin işinə uğurlar arzulayıb.

Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov, AMEA-nın Mərkəzi Elmi Kitabxanasının direktoru Hüseyn Hüseynov, Kastamonu Universiteti, Çankırı Karatekin Universiteti, Atatürk Universiteti, İstanbul 29 Mayıs Universitetinin İnformasiya və sənəd menecmenti bölümlərinin rəhbərləri Hasan Sacit Keseroğlu, Coşkun Polat, Dündar Alıkılıç, Berrin Balkaş Yılmaz, BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı Əlmdar Bayramov çıxışlarında Simpoziumun Azərbaycan və Türkiyənin elm, təhsil, mədəniyyət sahələrində əlaqələrinə mühüm töhfə verəcəyini bildiriblər. Qeyd olunub ki, Simpoziumda sənəd menecmenti, informasiya logistikası, müəlliflik hüquqları və əlaqəli hüquqlar, kitabxana-informasiya fəaliyyəti, muzey, arxiv işi və s. kimi mühüm istiqamətlərdə tədqiqatlar təqdim olunacaq.

Simpoziumun plenar iclasında BDU-nun dosenti Pərviz Kazimi "Yaşıl kitabxana konsepsiyası", Kastamonu Universitetinin dosenti Güler Demir "Davamlı inkişaf və yaşıl kitabxanalar" mövzularında məruzə ediblər.

Simpoziumda ümumilikdə Azərbaycan, Türkiyə və Özbəkistanın 17 universitetini təmsil edən nüfuzlu alimlər, professorlar, gənc tədqiqatçılar, həmçinin Türkiyə Milli Təhsil Nazirliyinin, Mədəniyyət Nazirliyinin, Türkiyənin bir sıra bələdiyyə kitabxanalarının, ölkəmizin kitabxana və muzeylərinin əməkdaşları 60-a yaxın məruzə edəcəklər.

# BDU tələbələri "AzerGold"un "Təqaüd proqramı" müsabiqəsinin qalibi olublar

***Noyabrın 27-də Geologiya fakültəsinin IV kurs tələbələri Tural Murtuzov və Emin Zeynallı "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) ölkəmizin ali təhsil müəssisələrində təhsil alan tələbələr üçün elan etdiyi növbəti "Təqaüd proqramı" müsabiqəsinin qalibi olublar.***






Qeyd edək ki, müsabiqə qaliblərinin hər biri müvafiq təltifnamə və 9 ay müddətində hər ay 200 AZN məbləğində təqaüd əldə edəcək. Proqramda iştirak edən tələbələrin QSC-də təcrübə proqramlarında iştirakı və məzun olduqdan sonra müvafiq vəzifələr üzrə işlə təmin edilməsi nəzərdə tutulur. "AzerGold" QSC 2021-ci ildən ali və peşə təhsili üzrə "Təqaüd proqramı" layihələri icra edir. Bu günədək ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində təhsil alan 28, peşə təhsili müəssisələrində təhsil alan 35 nəfər tələbəyə təqaüd verilib. Tələbələrimizi təbrik edir, gələcək fəaliyyətlərində uğurlar arzulayırıq!

# Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzində hazırlanan "Irrigo – dayanıqlı kənd təsərrüfatı ekosistemi" COP29-da təqdim edilib

***Noyabrın 22-də BDU-nun "BSU Creativity Workz" komandası COP29 konfransı çərçivəsində keçirilən "Green Tech Karabakh" layihəsində uğurla iştirak edib. Komanda auditoriya qarşısında innovativ aqrotexniki həll olan "Irrigo" ağıllı suvarma sistemini təqdim edib.***

Irrigo – ağıllı texnoloji həllərə əsaslanan yeni nəsil kənd təsərrüfatı modelidir. Bu modelin əsas məqsədi kənd təsərrüfatında suvarma suyu kimi istifadə olunan şirin su miqdarını minimuma endirmək, suvarma suyu olaraq istifadəyə yararsız olan suların üzvi çirkləndiricilərdən, duzlardan və ağır metallardan təmizlənməsini, suvarma suyu kimi istifadəsini və bu suyun sistemdə dövri hərəkətini təmin edən ekosistem yaratmaqdır. Layihə su ehtiyatlarına qənaət etməklə yanaşı, maddi və vaxt resurslarının optimallaşdırılmasını təmin edir. Sistemin uzaqdan idarəetmə imkanı və hava proqnozu ilə sinxronlaşdırılmış işləmə rejimi kimi müasir xüsusiyyətləri onu kənd təsərrüfatı sahəsində əvəzolunmaz bir həllə çevirir.

Təqdimat zamanı dünyanın müxtəlif ölkələrindən olan nümayəndələr "Irrigo" ağıllı suvarma sisteminin səmərəliliyini, xərcləri azaltma potensialını və ekosistemin qorunmasına olan müsbət təsirini yaxından öyrənmək imkanı əldə ediblər.

Tədbir iştirakçıları sistemin təqdim etdiyi innovativ həllərə böyük maraq göstəriblər.

# BDU tələbələri Beşbarmaq dar boğazında quşların miqrasiyasını müşahidə ediblər



***Biologiya fakültəsinin tələbələri Xəzərin şimal-şərq sahilində yerləşən Beşbarmaq dar boğazında quşların miqrasiyasını müşahidə ediblər.*** Ekskursiyada Zoologiya və fiziologiya kafedrasının müdiri, dosent Əbülfəz Tağıyev, dosent Sevinc Hümbətova, fakültə Tələbə Elmi Cəmiyyətinin üzvləri və "Təbiətin harmoniyası" klubunun üzvləri iştirak ediblər.

"Birding of Azerbaijan" qrupunun təşkilatçılığı ilə keçirilən ekskursiya tələbələrdə böyük maraq oyadıb. Tələbələr ölkəmizdə quşların miqrasiyasını izləmək üçün Niderlanddan gəlmiş könüllü quş müşahidəçilərinin tətbiq etdiyi metodlarla yaxından tanış olublar.

Müşahidələr zamanı 20-yə yaxın növə aid minlərlə quş fərdi (sığırçınlar, su-bataqlıq quşlarının müxtəlif növləri, o cümlədən vağlar, qarabatdaqlar, fərqli cüllütkimilər, qızılquşkimilər) qeydə alınıb.

Tələbələr "Birding of Azerbaijan" qrupu tərəfindən nəqliyyat, teleskop və binokllarla təmin ediliblər. Tələbələrə müxtəlif proqram təminatlarının və tətbiqlərin təyinetmədə istifadəsi nümayiş olunub. Toplanan məlumatlar dəqiq nəticələr şəklində trektellen.org platformasında qeyd edilib.

# BDU-da Vətən müharibəsi qazisi ilə görüş

***Noyabrın 7-də İnformasiya və sənəd menecmenti fakültəsində Vətən müharibəsi qazisi, BDU-nun məzunu, baş leytenant, yazıçı-publisist Vüsal Hətəmovla görüş keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda şəhid olan soydaşlarımızın xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Baş leytenant Vüsal Hətəmovun döyüş yolunu əks etdirən videoçarx nümayiş etdirilib.

Universitetin "Zəfər tarixi" lektoriyasında keçirilən tədbirin moderatoru – İnformasiya və sənəd menecmenti fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Daşqın Məhəmmədli Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və Azərbaycan Silahlı Qüvvələrinin şücaəti sayəsində qazandığımız parlaq qələbədən, ərazi bütövlüyümüzün, suverenliyimizin bərpa olunmasından danışıb. Tədbirə dəvət olunmuş baş leytenant Vüsal Hətəmovun döyüş yolu haqqında iştirakçılara geniş məlumat verib.



Vətən müharibəsinin ilk günlərindən ehtiyatda olan zabit kimi könüllü döyüşə yollandığını bildirən Vüsal Hətəmov işğalçı qüvvələrə qarşı aparılan hərbi əməliyyatlarda müharibənin sonuna qədər iştirak etdiyini bildirib, döyüş təəssüratlarını görüş iştirakçıları ilə bölüşüb. O, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin mahir sərkərdəliyi, xalqımızın birliyi, şəhid və qazilərin qanı və canı hesabına Vətən torpaqlarının düşmən işğalından azad edilməsinin çoxəsrlik tariximizin parlaq səhifəsi olduğunu vurğulayıb. Müzəffər Ordumuzun uğurlu hərbi əməliyyatları nəticəsində Azərbaycan bayrağının 30 ildən artıq işğalda qalmış ərazilərimizdə dalğalandırılmasının hər birimizdə sonsuz qürur hissi yaratdığını bildirib: "Bu gün məzunu olduğum doğma Universitetimizdə belə bir görüşün keçirilməsini həyatımın ən parlaq səhifələrindən sayıram. Mənim üçün çox qürurvericidir ki, bu görüşə Zəfər qazanmış ordunun zabiti kimi gəlmişəm".

I Qarabağ müharibəsinin veteranı, BDU-nun Redaksiya-nəşriyyat işi kafedrasının müdiri Knyaz Aslan, Sənəd menecmenti kafedrasının müdiri Nadir İsmayılov, dosent Rasim Süleymanov, dosent Solmaz Sadıqova çıxışlarında Vətən müharibəsində qazandığımız tarixi Zəfərdən bəhs edib, bu cür görüşlərin tələbələrdə vətənpərvərlik hisslərinin formalaşdırılmasında mühüm rol oynadığını vurğulayıblar.

# 17 Noyabr - Milli Dirçəliş Günüdür

***17–noyabrın Azərbaycanda Milli Dirçəliş Günüdür. Azərbaycan xalqının azadlıq mübarizəsinin əsas mərhələlərindən birini təşkil edən Milli Dirçəliş Günü ölkəmizin müstəqilliyinin bərpa olunmasında önəmli və tarixi rol oynayıb.***

Bu tarix Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müdrik siyasəti nəticəsində daha da əlamətdar xarakter alıb. Belə ki, 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin yeni tərkibdə ilk sessiyası keçirildi. Muxtar respublikanın adından "sovet" və "sosialist" sözləri çıxarıldı. Bununla da milli dövlətçiliyimizin dirçəlişi istiqamətində ilk böyük addım atılmış oldu. Ulu Öndərin sədrliyi ilə keçirilən həmin tarixi sessiyada Muxtar Respublikanın dövlət rəmzləri haqqında məsələ müzakirə edildi. Üçrəngli bayrağın dövlət rəmzi kimi qəbulu ilə əlaqədar təklif irəli sürüldü. Sessiya Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının bərpa olunması barədə qərar çıxararaq onun dövlət bayrağı kimi qəbul edilməsi ilə bağlı Azərbaycanın Ali Soveti qarşısında vəsatət qaldırdı. Beləliklə, milli dirçəlişdən milli tərəqqiyə doğru uzanan tarixi yolun başlanğıcı qoyuldu.

Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlişi xalqa ümid oldu. Bütün sahələrdə inkişaf müşahidə olunmağa başladı, xalqımızın milli dirçəlişi və mənəvi dəyərlərinin yüksək tutulması, adət və ənənələrimizin qorunub saxlanılması reallığa çevrildi.

Bu gün Ulu Öndər Heydər Əliyevin siyasi kursunu davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dövlətçiliyin möhkəmləndirilməsinə, iqtisadiyyatın inkişafına və milli-mənəvi dəyərlərin qorunub saxlanmasına xüsusi diqqət yetirir, ölkəmiz dünyada söz və nüfuz sahibi kimi tanınaraq müdafiə qüdrətini daha da artırır.

Artıq dörd ildir ki, Milli Dirçəliş Günü Azərbaycanın ərazi bütövlüyü şəraitində qeyd olunur. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci il sentyabrın 27-dən başlayaraq Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücum əməliyyatları nəticəsində uzun illər düşmən tapdağı altında olan torpaqlarımız azad edildi. 44 gün davam edən Vətən müharibəsi dövründə hər gün yaşayış məntəqələri işğaldan azad olunurdu və həmin torpaqlarda Azərbaycanın şanlı bayrağı ucaldılırdı. Hazırda azad edilmiş bütün torpaqlarımızda bayrağımız əzəmətlə dalğalanır.

Artıq dörd ildir ki, azad olunmuş bütün ərazilərimiz dirçəlir, Qarabağa və Şərqi Zəngəzura həyat qayıdır. 2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Ordumuz 30 illik işğala son qoymuşdusa, ötən il aprelin 23-də Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qoymaqla ərazi bütövlüyümüzü tam bərpa etdi. Ötən il sentyabrın 19-da isə cəmi 24 saatdan da az davam edən antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz məskunlaşmış separatçılar təslim oldu, suverenliyimiz tam təmin olundu. Şanlı qələbəmizin möhtəşəm və məntiqi sonluğu ötən il oktyabrın 15-də Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Ağdərə, Xocalı, Əsgəran və ən əsası isə Xankəndidə üçrəngli bayrağımızı qaldırması oldu. Bununla da Müzəffər Ali Baş Komandan və onun əmrinə daim hazır olan Azərbaycanın qəhrəman oğulları tariximizin ən önəmli səhifəsinə yekun nidanı qoydular.

Rəhbər-dövlət-ordu-xalq birliyi ilə qazanılan Qələbəmizi gələcəyə sarsılmaz inam və qürur duyğuları daha da möhkəmləndirir.

Xalqımızın həmrəyliyi və dövlət müstəqilliyimiz əbədi olsun! Milli Dirçəliş Gününüz mübarək!

# BDU-da "Ekoloji şüur, ekoloji təhsil, ekoloji mədəniyyət" adlı dəyirmi masa keçirilib



***Noyabrın 15-də Sosial elmlər və psixologiya fakültəsinin Fəlsəfə kafedrasında Azərbaycanın ev sahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) önəminə həsr olunmuş "Ekoloji şüur, ekoloji təhsil, ekoloji mədəniyyət" mövzusunda dəyirmi masa keçirilib.***

Fəlsəfə kafedrasının müdiri Kəmalə Pənahova COP29 konfransının ölkəmiz və bütün dünya üçün əlamətdar hadisə olduğunu deyib. O qeyd edib ki, planetimizi əhatə edən dərin ekoloji böhranların dərki öz ifadəsini məhz ekoloji şüurda tapır: "Ekoloji şüurun reallaşması üçün isə şəxsi iradə, ekoloji fəaliyyət, ekoloji təcrübənin toplanması və mübadiləsi, cəmiyyətdə ekoloji mədəniyyətin kommunikasiyası zəruridir. Ətraf mühitin ekoloji vəziyyətinin gərginləşməsi insan-təbiət münasibətlərinə yeni baxış tələb edir. Məhz buna görə COP-un keçirilməsi böyük əhəmiyyətə malikdir. Qlobal istiləşmənin qarşısını almaq üçün bütün ölkələrin məsuliyyətlə davranması çox önəmlidir".

Daha sonra dekan müavini Nəzakət Kərimova çıxış edərək, ekoloji problemlərin milli sərhəd tanımadığını, qlobal səciyyə kəsb etdiyini bildirib. O vurğulayıb ki, artıq insanlar və dövlətlər təbiətə olan münasibətlərini dəyişməyəcəkləri, onun ehtiyatlarından səmərəsiz istifadəyə son qoymayacaqları təqdirdə bu prosesin onların özlərinə qarşı çevriləcəyini və arzuolunmaz nəticələrə gətirib çıxaracağını anlayırlar.

Fəlsəfə kafedrasının saathesabı müəllimləri İsmayıl Ələkbərov, Zeynəb Manafova, Aysan Əliyeva, Məlahət Məmmədova COP-un yaranma tarixi, belə mötəbər tədbirin Azərbaycanda keçirilməsinin əhəmiyyəti, bu istiqamətdə aparılan tədbirlər haqqında məlumat verib, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən "ağıllı şəhər" və "ağıllı kənd" layihəsindən, milli qoruqların yaradılması zərurətindən danışıblar. Məruzəçilər daha sonra iqlim dəyişikliyi ilə mübarizədə etik məsuliyyət və ədalət hisslərinin mühüm rolu haqqında fikir mübadiləsi aparıblar.

# BDU-da "Türk dünyasında yakutlar və həzəralar" mövzusunda elmi seminar

***Noyabrın 6-da Filologiya fakültəsində Tələbə Elmi Cəmiyyətinin (TEC) və Türkologiya kafedrası nəzdində Türkoloji dərnəyin təşkilatçılığı ilə "Türk dünyasında yakutlar və həzəralar" mövzusunda elmi seminar keçirilib.***

Seminarda Türkologiya kafedrasının müdiri, professor Məhərrəm Məmmədov, "Türkoloji araşdırmalar" elmi-tədqiqat laboratoriyasının elmi işçiləri Ramil Bayramov və Pərvin Eyvazov, kafedranın doktorantı Məleykə Mirzəli, TEC-in üzvləri və tələbələr iştirak ediblər.

Türkologiya kafedrasının müdiri, professor Məhərrəm Məmmədov gənclərin elmə marağının artırılmasının vacibliyindən söz açıb, mövzunun türkologiyanın aktual məsələlərindən biri olduğunu bildirib.

Yakut türkləri ilə bağlı məruzə edən Filologiya fakültəsinin "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisası üzrə III kurs tələbəsi Mehrəngiz Qurbanova məruzəsində yakutların nə üçün "saxa" adlandırılması, bu etnonimin mənşəyi, tarixi, dili, folkloru, ədəbiyyatı, adət-ənənələri, dini dünyagörüşləri, bugünkü vəziyyətləri haqqında geniş məlumat verib, mövzuya dair videoçarxlar nümayiş etdirib.

Həzəra türkləri ilə bağlı məruzə edən Filologiya fakültəsinin "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisası üzrə III kurs tələbəsi Aydan Sultanova həzəra etnonimi, onların tarixi, folkloru, dini dünyagörüşləri, mövcud vəziyyətləri, bu barədə aparılan tədqiqatlar haqqında ətraflı məlumat verib.

# BDU-da "Yüksəliş" müsabiqəsinin qalibi Toğrul Ələkbərovla görüş

***Noyabrın 1-də "BDU könüllüləri" təşkilatının təşəbbüsü və "Yüksəliş" müsabiqəsinin tərəfdaşlığı ilə mentorluq proqramı çərçivəsində üçüncü "Yüksəliş" müsabiqəsinin qalibi Toğrul Ələkbərovun tələbə-gənclərlə görüşü keçirilib.***

Görüş zamanı tələbələrə mentorluq proqramı, proqramın əhəmiyyəti və gənclərə verdiyi dəstək barədə ətraflı məlumat verilib. Toğrul Ələkbərov mentorluğun karyera yolunda yaratdığı imkanlardan danışaraq, şəxsi təcrübələrini bölüşüb.



Görüş tələbələrin mentorluq proqramı ilə bağlı suallarının cavablandırılması ilə yekunlaşıb.

# BDU-da Kəlbəcər Şəhəri Günü qeyd edilib

***Noyabrın 26-da İnformasiya və sənəd menecmenti fakültəsində Tələbə Həmkarlar İttifaqı Təşkilatının (THİK) təşəbbüsü ilə 25 noyabr – Kəlbəcər Şəhəri Günü münasibətilə tədbir keçirilib. Professor-müəllim heyətinin və tələbələrin iştirakı ilə keçirilən tədbirdə əvvəlcə Dövlət himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb.***

Tədbirin moderatoru – Kitabxana-informasiya resurslarının idarə edilməsi kafedrasının dosenti Rəşad Qardaşov Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" 31 iyul 2023-cü il tarixli Sərəncamını xatırladıb, sənədin tarixi əhəmiyyətini vurğulayıb: "Kəlbəcər rayonu 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyanata əsasən 25 noyabrda döyüşsüz Azərbaycana təhvil verildi. Xüsusi strateji əhəmiyyətə malik olan Kəlbəcərin azad edilməsi Vətən müharibəsində qazandığımız tarixi Zəfərin ən parlaq səhifələrindəndir".

Birinci Qarabağ müharibəsinin veteranı, BDU-nun Redaksiya-nəşriyyat işi kafedrasının müdiri Knyaz Aslan 44 günlük Vətən müharibəsində əldə etdiyimiz qələbənin xalqımızda yüksək əhval-ruhiyyə yaratdığını bildirib, Qarabağda, Şərqi Zəngəzurda aparılan misilsiz quruculuq işlərindən bəhs edib: "Azad Kəlbəcərimiz də yenidən dirçəlir, tikinti-quruculuq layihələri sürətlə həyata keçirilir. Bu ilin sentyabr ayında Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcərdə "İstisu" mineral su zavodunun açılışını etdilər. Uzun illər həsrət qaldığımız bu təbii xəzinə artıq süfrələrimizdə, o cümlədən rəsmi tədbirlərimizdə yer alır".

İnformasiya və sənəd menecmenti fakültəsinin məzunu, Vətən müharibəsi qazisi, ölkə rəhbəri tərəfindən "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunmuş Ayxan Şükürlü keçdiyi döyüş yolundan bəhs edib, 44 günlük zəfər yürüşünün və 1 günlük antiterror tədbirlərinin nəticəsində ölkəmizdə əmin-amanlığın əbədi bərpa olunduğunu, torpaqlarımızdan separatçılığın kökünün biryolluq kəsildiyini vurğulayıb.

Tədbir Əməkdar jurnalist Firuzə Nadirin müəllifi olduğu, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə hazırlanmış Kəlbəcər rayonunun adət-ənənələrindən bəhs edən "Bal kimi süfrə" sənədli filminin nümayişi ilə başa çatıb.

# BDU ilə Çinin Anhui Universiteti daha bir istiqamətdə ikili diplom proqramı imzalayacaq

***Noyabrın 27-də BDU və Çinin Anhui Universitetinin əməkdaşları arasında onlayn görüş keçirilib.***

Görüşdə BDU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov, BDU-nun nəzdində Konfutsi İnstitutunun direktoru Vanq Haoqianq, Fizika fakültəsinin dekanı Bəxtiyar Paşayev, dekan müavini Vüsal Məmmədov, Nanomaterialların kimyəvi fizikası kafedrasının baş müəllimi Lalə Qəhrəmanlı, Anhui Universitetinin Materiallar elmi və mühəndisliyi fakültəsinin dekan müavini Yu Xin-Yao və həmin fakültənin xarici əlaqələr üzrə katibi Deng Min iştirak ediblər.

Görüşdə hər iki universitet arasında əməkdaşlıq perspektivləri müzakirə edilib. BDU-nun Fizika fakültəsi ilə Anhui Universitetinin Materiallar elmi və mühəndisliyi fakültəsi arasında ikili diplom proqramı üzrə ixtisaslaşma istiqamətləri, tədris proqramlarının uyğunlaşdırılması və tələbə mübadiləsi mexanizmləri ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb.

Sonda "Yarımkeçirici cihazlar və mikroelektronika", "Optoelektronika" və "Kvant elektronikası" kimi sahələrdə magistratura səviyyəsində ikili diplom proqramının yaradılması ilə bağlı ilkin razılıq əldə olunub.

Qeyd edək ki, BDU ilə Çinin Anhui Universiteti arasında 2023-cü ildə "Filologiya (Çin dili və ədəbiyyatı)" ixtisası üzrə bakalavriat səviyyəsində birgə ikili diplom proqramı imzalanıb. Bu layihə Çin Xalq Respublikasının Təhsil Nazirliyinin Dil Təhsili və Əməkdaşlıq Mərkəzi, BDU və Anhui Universiteti arasında "Beynəlxalq Çin dili təhsili" birgə bakalavr proqramı üzrə üçtərəfli müqavilə əsasında icra olunur.

# BDU tələbələri karyera quruculuğu ilə bağlı məlumatlandırılır

***Noyabrın 28-də Bakı Dövlət Universitetinin Karyera və məzunlarla iş Mərkəzi fakültələrdə silsilə təqdimatlarını davam etdirib.***

Təqdimatların keçirilməsində məqsəd Karyera və məzunlarla iş Mərkəzinin fəaliyyət istiqamətləri, tələbə və məzunlara göstərdiyi xidmətlər haqqında tələbələri məlumatlandırmaqdır.

Növbəti görüş Geologiya fakültəsində keçirilib. Bildirilib ki, ixtisaslı kadrların peşəkarlığının inkişaf etdirilməsi və onların karyera quruculuğuna yardım edilməsi Karyera və məzunlarla iş Mərkəzinin əsas missiyasıdır. Tələbələr Mərkəzin xidmətlərindən istifadə edərək, düzgün karyera planlaşdırılması, sərt və yumşaq bacarıqların inkişaf etdirilməsi, əmək bazarına adaptasiya, düzgün CV-nin (rezüme) tərtib edilməsi, iş axtarışının strategiya və taktikaları, müsahibə texnikaları və b. istiqamətlərdə bacarıqlar əldə edə, müxtəlif təlim və infosessiyalara qoşularaq, karyera sahəsindəki yeniliklərə, beynəlxalq təcrübəyə yiyələnə bilərlər.

Sonda tələbələrin sualları cavablandırılıb.

# Bakı Zooloji Parkının direktoru BDU tələbələrinə praktiki dərs keçib



***Noyabrın 4-də Bakı Zooloji Parkının direktoru Nəzakət İsayeva Ekologiya və torpaqşünaslıq fakültəsinin Bioekologiya kafedrası üzrə tədris prosesinə dəvət olunub.***

O, "Ekologiya" ixtisası üzrə tədris etdiyi "Biomüxtəlifliyin qorunması" fənninin mühazirə və məşğələ dərslərini Bakı Zooloji Parkında innovativ tədris metodları ilə keçib. Parkın lektoriyasında mühazirə dərsinə qatılan tələbələr sürünənlər sinfinin nümayəndələri haqqında məlumatlandırılıb. Daha sonra tələbələr Zoopark ərazisində Azərbaycan və digər ölkələrin unikal fauna nümunələri ilə tanış olublar. Onlar eyni zamanda Azərbaycanın "Qırmızı kitab"ına daxil, nəsli kəsilmək üzrə olan növlərin mühafizəsi, reintroduksiya proqramı haqqında məlumat əldə ediblər.

Qeyd edək ki, Bakı Zooloji Parkı 1928-ci ildən fəaliyyətə başlayıb. Hazırda Zooloji Parkda 125 növ heyvan saxlanılır. Onlardan 22 növü "Qırmızı Kitab"a daxil edilib. Parkda nəsli kəsilməkdə olan bir çox nadir heyvan növlərinin genefondunun saxlanılması təmin edilir və çoxaldılaraq təbiətə buraxılır.

# BDU-nun 105, Ekoloji kimya kafedrasının 20 illik yubileylərinə həsr olunmuş Respublika elmi konfransı davam edib

***Noyabrın 28-də BDU-nun 105, Ekoloji kimya kafedrasının 20 illik yubileylərinə həsr olunmuş "Ekoloji kimya və ətraf mühitin mühafizəsinin müasir problemləri" mövzusunda Respublika elmi konfransı davam edib.***

Konfransda müasir ekologiyanın nəzəri və təcrübi məsələləri, son illərdə bu istiqamətdə əldə edilmiş mühüm elmi nəticələr, yeni çağırışlar, ekoloji kimya, coğrafi ekologiya, bioekologiya, torpaqşünaslıq və s. sahələrdə ən son tədqiqatların və onların tətbiqi imkanlarının işıqlandırılması, elmi tədqiqatların optimallaşdırılması haqqında ətraflı müzakirələr aparılıb. Konfransda ümumilikdə 11 bölmə üzrə çıxışlar dinlənilib.

"Ətraf mühitin mühafizəsində ekokimyəvi tədqiqatlar", "Yaşıl kimya və tullantısız texnologiya", "Ekoloji risklər və həyat fəaliyyətinin təhlükəsizliyi", "Qlobal iqlim dəyişikliyi üzrə ekokimyəvi tədqiqatlar", "Sənaye ekologiyası və ekoloji təhlükəsizlik", "Qida təhlükəsizliyi", "Ətraf mühitin mühafizəsində ekocoğrafi tədqiqatlar", "İqlim dəyişməsinin ətraf mühitə təsiri", "Ətraf mühitin mühafizəsində bioekoloji tədqiqatlar", "Torpaqların münbitliyi və aqroekoloji problemlər", "Yaşıl təhsil və davamlı öyrənmə" bölmələrində 178 elmi məruzə dinlənilib.

2 gün davam edən konfrans ayın 29-da işini yekunlaşdırıb.

# BDU və "ARB 24"ün birgə layihəsi olan növbəti "NewsLab" təlim proqramı yekunlaşıb

***Noyabrın 1-də BDU və "ARB 24" telekanalı arasında imzalanmış əməkdaşlıq müqaviləsi çərçivəsində üçüncü "NewsLab" təlim proqramı yekunlaşıb. Təlimə cəlb olunan 6 tələbədən 5-i telekanalda işlə təmin edilib.***

Layihəni uğurla bitirən tələbələrə sertifikatlar təqdim edilib və onlara çalışacaqları verilişlər barədə məlumat verilib.

Qeyd edək ki, təlim proqramı 3 ay davam edib. Müsahibə mərhələsindən uğurla keçən tələbələr daha sonra praktik məşğələlərə cəlb olunublar.



2022-ci ildən keçirilən "NewsLab" təlim proqramı çərçivəsində BDU-nun 20-yə yaxın məzunu işlə təmin olunub. Birgə layihə xəbər hazırlanması, nitq mədəniyyəti, görüntü, videomontaj sahələrini əhatə edir.

# BDU "EV Charge Show" – Dünya Elektromobil Şarj Stansiyası İstehsalçılarının Qlobal Görüş Platformasında iştirak edib

***Bakı Dövlət Universiteti "EV Charge Show" – Dünya Elektromobil Şarj Stansiyası İstehsalçılarının Qlobal Görüş Platformasında iştirak edib. 13-15 noyabr tarixlərində İstanbul şəhərində keçirilən konfransın əsas məqsədi elektromobillərdə istifadə olunan batareya və şarj texnologiyalarını inkişaf etdirmək, innovativ rəqəmsal həlləri və təmiz enerji istifadəsinə əsaslanan layihələri dəstəkləməkdir.***

Konfransda 151 şirkət tərəfindən təqdim olunan müxtəlif şarj stansiyaları, batareya texnologiyaları və şarj sistemlərində IoT əsaslı həllərə əsaslanan layihələr sərgilənib.

BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi tərəfindən hazırlanan "SuperCapBack hibrid batareya" və "Clean-Charge sürətli şarj stansiyası" layihələri ilə bağlı konfrans iştirakçılarına məlumat verilib, sərgidə iştirak edən şarj stansiyası istehsalçıları ilə müzakirələr aparılıb. Qeyd edək ki, BDU-nun "BSU Creativity Workz" komandası "SuperCapBack" layihəsi ilə "EV Charge Show" – Dünya Elektromobil Şarj Stansiyası İstehsalçılarının Qlobal Görüş Platforması çərçivəsində "E-mobillik innovasiya ve startap yarışması"nın finalına 220 komanda arasından vəsiqə qazanan 8 komandadan biri olub.


# BDU "EV Charge Show" – Dünya Elektromobil Şarj Stansiyası İstehsalçılarının Qlobal Görüş Platformasında iştirak edib

***Bakı Dövlət Universiteti "EV Charge Show" – Dünya Elektromobil Şarj Stansiyası İstehsalçılarının Qlobal Görüş Platformasında iştirak edib. 13-15 noyabr tarixlərində İstanbul şəhərində keçirilən konfransın əsas məqsədi elektromobillərdə istifadə olunan batareya və şarj texnologiyalarını inkişaf etdirmək, innovativ rəqəmsal həlləri və təmiz enerji istifadəsinə əsaslanan layihələri dəstəkləməkdir.***

Konfransda 151 şirkət tərəfindən təqdim olunan müxtəlif şarj stansiyaları, batareya texnologiyaları və şarj sistemlərində IoT əsaslı həllərə əsaslanan layihələr sərgilənib.

BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi tərəfindən hazırlanan "SuperCapBack hibrid batareya" və "Clean-Charge sürətli şarj stansiyası" layihələri ilə bağlı konfrans iştirakçılarına məlumat verilib, sərgidə iştirak edən şarj stansiyası istehsalçıları ilə müzakirələr aparılıb. Qeyd edək ki, BDU-nun "BSU Creativity Workz" komandası "SuperCapBack" layihəsi ilə "EV Charge Show" – Dünya Elektromobil Şarj Stansiyası İstehsalçılarının Qlobal Görüş Platforması çərçivəsində "E-mobillik innovasiya ve startap yarışması"nın finalına 220 komanda arasından vəsiqə qazanan 8 komandadan biri olub.


# BDU THE-nin "İnterdisiplinar Elm Reytinqi"ndə dünya üzrə TOP-250-də

***Bakı Dövlət Universiteti dünyanın ən nüfuzlu reytinq təşkilatı olan "Times Higher Education"nın (THE) tərtib etdiyi "İnterdisiplinar Elm Reytinqi 2025"də ("Interdisciplinary Science Rankings 2025") ilk dəfə yer alıb.***

THE-nin "Schmidt Science Fellows" təşkilatı ilə birgə hazırladığı və dünyanın yalnız 750-dək ən yaxşı ali təhsil müəssisəsinin daxil ola bildiyi bu mühüm reytinqdə BDU 201-250 diapazonunda qərarlaşıb.

"İnterdisiplinar Elm Reytinqi" dünyanın aparıcı universitetlərinin interdisiplinar araşdırmalar sahəsində əldə etdikləri göstəriciləri əsasında hazırlanır. TOP-250-də yer alması BDU-nun müxtəlif elm sahələrini birləşdirən araşdırmalar istiqamətində əldə etdiyi uğurların nəticəsi kimi böyük əhəmiyyət kəsb edir.

Bütün BDU əməkdaşlarını və tələbələrini təbrik edirik!

# BDU KOBİA-nın 5-ci qrant müsabiqəsinin qalibi olan "Clean-Charge" layihəsi ilə COP29-un Mavi zonasında təmsil olunub

***BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinin direktoru İlyas Nəsibovun Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən keçirilmiş 5-ci qrant müsabiqəsində qalib olan "Clean-Charge– 22 kWh AC sürətli şarj stansiyası" layihəsi COP29-un Mavi zonasında keçirilən "Biznes, İnvestisiya və Xeyriyyəçilik üzrə İqlim Platforması"nda təmsil olunub.***

Tədbir dayanıqlı inkişafı dəstəkləyən iqlim həllərini sürətləndirmək, iqlim və təbiət üçün çoxtərəfli strategiya, eləcə də planetimizin və ətraf mühitin gələcəyinə sərmayə qoyulması üzrə mövzuları əhatə edib. Tədbir zamanı elektromobillər tərəfindən istifadə olunan elektrik enerjisinin elektrik stansiyalarında istehsalı zamanı təbiətə buraxılan karbon qazının miqdarının azaldılması, bu prosesdə təmiz enerjinin istifadəsi mövzularında müzakirələr aparılıb.

"Clean-Charge" layihəsinin əsas məqsədi elektrik mənbəyi olmasa belə, "yaşıl enerji" hesabına elektromobillərin sürətli şarjının təmin olunmasıdır. Bu məqsədlə yaradılacaq şarj stansiyası təqdim etdiyi özəlliklər ilə sürücülərin yaşadığı bir çox problemləri həll edəcək. Elektromobilləri ev şəraitində, şəhərdaxili, şəhərlərarası yollarda və elektrik xətləri olmayan ərazilərdə sürətli şarjla təmin edə bilən bu sistem daha əlçatan, təhlükəsiz, təbiətin və büdcənin "dostu" olacaq.

Qeyd edək ki, bu ilin dekabr ayında "Clean-Charge - 22 kWh AC" sürətli şarj stansiyasının BDU-nun avtomobil dayanacağında quraşdırılması nəzərdə tutulub. Günəş və külək enerjisi istifadə olunan və ümumi gücü 22 Kilovatt-saat olan bu stansiyada Çin, Avropa və Amerika istehsalı elektromobillərin şarj standartlarını dəstəkləyən GBT və CCS2 versiyalı 3, elektrikli velosiped və skuterlərin şarjını təmin edən 2 ədəd şarj portları yerləşdiriləcək.

"Clean-Charge" ilə elektromobillərin və elektrikli velosipedlərin şarj edilməsi BDU-nun müəllim və tələbələri üçün ödənişsiz olacaq.

# BDU-da ali məktəblər üçün "Ekoloji kartoqrafiya" dərs vəsaiti çap edilib

***Coğrafiya fakültəsinin Geodeziya və kartoqrafiya kafedrasının təşəbbüsü ilə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində ali məktəblər üçün "Ekoloji kartoqrafiya" dərs vəsaiti çap edilib.***




Geodeziya və kartoqrafiya kafedrasının müdiri, dosent Əfqan Talıbov və həmin kafedranın müəllimi İrina Verpatovanın həmmüəllifliyi ilə hazırlanmış dərs vəsaiti fakültədə, eləcə də digər ali təhsil müəssisələrində "Ekoloji kartoqrafiya" fənninin tədris olunduğu müvafiq ixtisaslarda tədris keyfiyyətinin yüksəldilməsi, eləcə də təhsilalanların tədris dilində müvafiq proqram üzrə hazırlanmış vəsaitlə təmin olunması məqsədini daşıyır.

Kitab ümumilikdə beş fəsildən və fənnin proqramına uyğun formalaşdırılmış otuz mövzudan ibarətdir. Dərs vəsaitində ekoloji kartoqrafiyanın mahiyyəti, ekoloji şəraitin tədqiq edilmə metodları, ekoloji xəritələrin riyazi və coğrafi əsası, onların tərtibində aerokosmik materiallardan istifadə kimi mühüm mövzular ətraflı təsvir olunub, əlavə və dəstəkləyici şəkil, cədvəl və s. materiallarla yanaşı, mövzular üzrə əldə olunmuş nəzəri biliklərin yoxlanılması üçün suallar və praktiki tapşırıqlar verilib. Bununla yanaşı, kitabda ekoloji kartoqrafiyada istifadə olunan 300-dən çox termin izahı lüğət şəklində təqdim olunub.

"Ekoloji kartoqrafiya" dərs vəsaitinin elmi redaktoru Coğrafiya fakültəsinin dekanı, professor Məqsəd Qocamanov, rəyçiləri isə dosentlər Ramiz Əhlimanov və Şamil Əzizovdur. Qeyd edək ki, "Ekoloji kartoqrafiya" bu məzmunda Azərbaycan dilində nəşr olunmuş ilk dərs vəsaitidir.

# BDU-da ilk dərs günündən 105 il keçir

*15 noyabr Bakı Dövlət Universitetində ilk dərs günündən 105 il ötür.*

1919-cu il sentyabrın 1-də gərgin müzakirələrdən sonra Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti ictimai fikir tariximizdə, elmin və təhsilin inkişafında əvəzedilməz xidmətlər göstərəcək ilk universitetin açılması haqqında qanun qəbul edib. Bakı Dövlət Universitetinin idarə olunması və onun tədris-elmi fəaliyyətinin tənzimlənməsi qaydalarını müəyyən edən nizamnamə 1919-cu il sentyabrın 29-da, parlamentin 79-cu iclasında qəbul olunub.

Universitet Şurası 1919-cu il noyabrın 10-da olan ilk iclasında professorların və digər akademik heyətin tərkibini təsdiq edib. 1919-cu il noyabrın 15-də şənbə günü universitetdə birinci dərs günü elan edilib. Universitetin ilk rektoru Kazan Universitetinin professoru, məşhur cərrah Vasili İvanoviç Razumovski olub.

BDU-nun inkişafında yeni və mühüm mərhələ, heç şübhəsiz, 1969-cu ildə Ümummilli Liderimiz Heydər Əliyevin ölkəyə rəhbərlik etməsi ilə başladı. Universitetin elm və təhsil flaqmanı kimi şöhrətlənməsi məhz bu tarixdən sonra gerçəkləşdi. Ali təhsil ocağının 50 illik yubiley tədbirlərinə Ulu Öndər Heydər Əliyevin şəxsən rəhbərlik etməsi, dövlət başçısı kimi Universitetə daimi qayğısı BDU-nun nüfuzunu daha da artırdı. Universitetin 50 illik yubiley tədbirində Ulu Öndər Heydər Əliyevin böyük cəsarət nümayiş etdirərək məhz ana dilimizdə çıxış etməsi bu gün də xalqımız tərəfindən ehtiram və minnətdarlıqla yad edilir. Bu tarixi hadisənin, həmin dövrdə müdrik rəhbərin ali təhsil ocağına xüsusi diqqət və qayğısının sayəsində Universitet yenidən milli oyanışın mərkəzinə, müstəqilliyimizə gedən yolun carçısına çevrildi.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra BDU Ulu Öndər Heydər Əliyevin diqqət və qayğısı sayəsində inkişafının yeni və daha parlaq mərhələsinə qədəm qoydu. Ulu Öndər ənənələrə sadiqliyini bir daha nümayiş etdirərək Universitetin xeyirxahı və hamisi, eyni zamanda məzunu kimi qayğısını əsirgəmədi. Bu gün isə həmin tarixi missiyanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev davam etdirir. BDU möhtərəm Prezidentimiz və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın hərtərəfli qayğısı ilə tərəqqi və inkişaf yolunda inamla addımlayır.

Doğma universitetimiz son 21 ildə Prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunub. Prezidentin müvafiq Sərəncamı ilə 2019-cu ildə BDU-nun 100 illik yubileyi təntənəli şəkildə ölkədə və xaricdə qeyd olunub, əməkdaşlarımız ali dövlət mükafatları ilə təltif edilib. Dövlətimizin başçısının Universitetin 100 illik yubiley mərasimindəki




proqram xarakterli çıxışı bu gün hər birimiz üçün yol xəritəsidir.

105 il əvvəl 2 fakültə, 44 nəfərdən ibarət professor-müəllim heyəti və 1094 tələbə ilə fəaliyyətə başlayan universitet hazırda 16 fakültə, 121 kafedra, 2 elmi-tədqiqat institutu, Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzi, müasir avadanlıqlarla təchiz edilmiş 5 elmi-tədqiqat mərkəzi və 22 elmi-tədqiqat laboratoriyası, 2 milyondan çox kitab fondu olan Elmi Kitabxana, 5 muzey, 5 beynəlxalq institut və mərkəz, 1 tədris-təcrübə və istirahət mərkəzi, 1 tədris-təcrübə bazası, 1 filial, 1 kollec və 1 liseylə müqəddəs yolla davam edir. BDU-nun 2021-2030-cu illər üçün Strateji İnkişaf Planında qarşıya qoyulmuş vəzifələr, prioritet istiqamətlər əsasında universitetdə təhsilin inkişafı, elmi tədqiqatların keyfiyyətinin artırılması, idarəetmə sisteminin dinamikliyinin təmin edilməsi məqsədilə müntəzəm olaraq islahatlar aparılır. Tələbələr və akademik heyət arasında qarşılıqlı əlaqələr dərinləşdirilir. Yeni nəsil elm və təhsil proqramlarının sayı artırılır, əmək bazarının tələblərinə uyğun olaraq yeni ixtisas və ixtisaslaşmalara tələbə qəbulu aparılır. Tədris resursları mütəmadi olaraq təkmilləşdirilir, təlim prosesini müasir üsullarla və müasir məzmunla həyata keçirmək məqsədilə auditoriyalar müasir İKT avadanlıqları ilə təchiz olunur, elmi-tədqiqat və tədris laboratoriyalarının maddi-texniki bazası gücləndirilir.

2024-cü ildə BDU-nun 2 saylı tədris binası ən yüksək səviyyədə əsaslı təmir edilib. Yeni təmir olunmuş 2 saylı tədris binasının həyətində yerləşən Şəhidlər kompleksi yenidən qurulub, binanın həyətində Zəfər kompleksi yaradılıb, tədris binasında isə "Zəfər tarixi" lektoriyası istifadəyə verilib. Lektoriya Vətən müharibəsində böyük Qələbənin simvolları və Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qəhrəmanlıqlarını, eləcə də hazırda Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı quruculuq işlərini əks etdirən fotoşəkillər və Vətən müharibəsindən bəhs edən ədəbiyyatla təchiz edilib.

Aparılan islahatlar tədris prosesinin, elmi tədqiqatların keyfiyyətini artırır, eyni zamanda, tələbələrin ictimai fəallığının artırılmasına, onların azərbaycançılıq ideyasına, milli-mənəvi dəyərlərə bağlı, əsl vətəndaş kimi formalaşmasına xidmət edir.

BDU tələbələrinin komandaları son illər "TEKNOFEST" festivallarında da uğurla çıxış edir, mühüm nəticələr əldə edirlər. 2023-cü ildə BDU komandaları İstanbulda keçirilən "TEKNOFEST-2023" Aerokosmik və Texnologiya Festivalında uğurlu nəticə göstərib, universitetin 4 komandası 6 layihə ilə "TEKNOFEST-2023"ün finalına vəsiqə qazanıb. Onlardan "BSU Creativity Workz" komandası "Driver's Eye (avtomobil qəzalarını əvvəlcədən müəyyənləşdirərək sürücünü xəbərdar edən elektron sistem)" layihəsi ilə festivalda "Ağıllı nəqliyyat" kateqoriyası üzrə 109 finalçı arasında I yerə, "Humantek" komandası isə "Ağıllı damla sulama sistemi (torpağın mineral tərkibi, rütubət səviyyəsi, havanın temperaturu və təzyiqi kimi məlumatların toplanaraq mərkəzi stansiyaya naqilsiz ötürülməsi üçün əkin sahələrinin müxtəlif yerlərində günəş enerjisi ilə qidalanan kiçik stansiyalar)" layihəsi ilə "Aqrar texnologiyalar" kateqoriyasında 73 finalçı arasında III yerə layiq görülüb. Bu il Türkiyənin Adana şəhərində keçirilən "TEKNOFEST-2024" festivalında BDU-nun tələbələrdən ibarət iki komandasının layihələri - "BSU Creativity Workz" komandasının "Irrigo" layihəsi və "ESST-6" komandasının "E-tarım sulama" layihəsi final mərhələsinə vəsiqə qazanıb. Komandalarımızın ötən ildə olduğu kimi yüksək yerlərə layiq görüləcəyinə əminik.

Bu il BDU tələbələri, eyni zamanda, nüfuzlu "Robotex Avrasiya" festivalında ciddi uğur əldə edib. 2024-cü ilin aprel ayında keçirilən bu festivalda BDU-nun yarışmada iştirak edən 7 komandasının hər biri qalib olub, o cümlədən iki komanda ("85 Games Studio və "Humantek") yarışmada I, iki komanda ("Bilig" və "Bradenbrg") II, üç komanda isə ("AiTech Group", "QuantumTech" və "TechTitans") III yerə layiq görülüb.

BDU tələbələri, eləcə də universitetin nəzdindəki "Gənc istedadlar" liseyinin şagirdləri beynəlxalq arenada bilik və bacarıqlarını uğurla nümayiş etdirirlər. 2024-cü il avqustun 5-dən 11-dək Bolqarıstanda ali məktəb tələbələri arasında keçirilmiş Beynəlxalq Riyaziyyat Olimpiadasında BDU tələbələri qızıl və bürünc medala layiq görülüblər. Həmçinin 2024-cü ildə ibtidai, orta və yuxarı sinif şagirdləri arasında keçirilmiş beynəlxalq riyaziyyat müsabiqələrində "Gənc istedadlar" liseyinin şagirdləri 25 qızıl, 21 gümüş, 24 bürünc medal qazanıblar.

Universitetdə tələbələrin təhsili, elmi tədqiqatlara təşviq olunmaları və onların layihələrinin dəstəklənmələri üçün ən müxtəlif innovativ üsul və metodlar tətbiq olunur. Son dövrlər Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinin fəaliyyətə başlaması, "Code for Future" layihəsinin həyata keçirilməsi, Xarici Dil Mərkəzinin fəaliyyətə başlaması tələbələrimizin bilik və bacarıqlarını daha da artırır, onların fərdi istedadlarının üzə çıxarılmasına əlavə əlverişli şərait yaradır.

Hazırda universitetdə ali təhsilin bütün səviyyələrində 25 minə yaxın tələbə təhsil alır. BDU-da 3 mindən çox əməkdaş, o cümlədən 1500 nəfərə qədər professor-müəllim heyəti və elmi işçi çalışır. Onlardan 250-dən çoxu elmlər doktoru, professor, 800 nəfərə yaxın əməkdaş isə fəlsəfə doktoru, dosentdir. Bu gün BDU-da 76 ixtisas, 271 ixtisaslaşma üzrə kadr hazırlığı həyata keçirilir. Əmək bazarının tələblərinə uyğun yeni ixtisas və ixtisaslaşmaların yaradılması BDU-nun strateji hədəflərindəndir. Son illər BDU-da təhsilin bakalavr və magistratura səviyyələrində bir sıra yeni ixtisas və ixtisaslaşmalar açılıb.

BDU peşəkar kadrlar yetişdirməklə yanaşı, milli ruhlu vətəndaş yetişdirməyi də özünün ali məqsədi hesab edir. Bu məqsədlə davamlı olaraq tələbələr arasında müvafiq işlər aparılır, maraqlı sosial layihələr həyata keçirilir. Universitetdə fəaliyyət göstərən tələbə təşkilatları bu prosesin avanqardı kimi çıxış edir. BDU tələbələri ölkəmizdə uğurla həyata keçirilən gənclər siyasəti və könüllülük hərəkatına öz mühüm töhfələrini verirlər. Tələbələrin yataqxana şəraitinin yaxşılaşdırılması məqsədilə ötən dövr ərzində müasir standartlara cavab verən yeni yataqxana – 216 yerlik "Tələbə Evi" istifadəyə verilib. Həmçinin tələbələrin keyfiyyətli, müasir dərslik və dərs vəsaitləri ilə təmin edilməsi üçün BDU-nun Nəşr Evi "bp-Azərbaycan" şirkətinin dəstəyi ilə ən müasir avadanlıqlarla təchiz edilərək yenidən qurulub və istifadəyə verilib. Eyni zamanda, BDU ilə "bp-Azərbaycan" şirkəti arasında imzalanmış əməkdaşlıq müqaviləsi əsasında BDU-nun Elmi kitabxanasının elektronlaşdırılmasına başlanılıb.

Son illər BDU məzunları dövlət qulluğuna və digər qurumlara işə qəbulla bağlı keçirilən mərkəzləşdirilmiş imtahanlarda ənənəvi olaraq yüksək nəticələr göstərir, eyni zamanda, tələbələrimiz beynəlxalq, regional və yerli olimpiadalarda, bilik yarışmalarında ön yerlərə layiq görülürlər. Cari ildə "Yüksəliş" müsabiqəsinin qalibləri arasında BDU-nun 4 məzunu yer alıb. 2024-cü il üzrə Gənclər üçün Prezident mükafatçılarından üçü, "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı" çərçivəsində 2024-cü ildə xaricdə təhsil almaq imkanı qazanmış tələbələrdən isə 49-u BDU-nun məzunudur. Prezident İlham Əliyevin 2023-cü il 24 iyun tarixli Sərəncamına əsasən BDU-nun 8 tələbəsi "Heydər Əliyev adına təqaüd"ə layiq görülüb.

Universitetdə elmi fəaliyyətin səmərəli təşkili prioritet hesab olunur. Elmi-tədqiqat işlərinin məzmununun yenilənməsi, alınan nəticələrin bilavasitə tətbiq sahələrinə yönəldilməsi sahəsində yeni müsbət tendensiya formalaşır. Son illərdə BDU-da Sənaye kimyası, Rəqəmsal araşdırmalar, Hüceyrə kulturası və genom redaktəsi, Mikrobiologiya və virusologiya, Biomühəndislik, Kompleks geoloji və geofiziki tədqiqatlar kimi yeni sənayeyönümlü elmi-tədqiqat laboratoriyaları, Baş Prokurorluq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə ECOLEAD Klinikası, ICESCO-nun Biotibbi materiallar kafedrası, Beynəlxalq Türk Akademiyası ilə birgə Süni intellekt etikası kafedrası, Erməni Araşdırmaları və Təlim Mərkəzi, Qərbi Azərbaycan Araşdırmaları Mərkəzi, "Eko Məkan" və s. yaradılıb.

Dünyanın nüfuzlu beynəlxalq elm və təhsil reytinqlərində mövqeyini möhkəmləndirmək BDU-nun prioritet istiqamətlərindəndir. Bu istiqamətdə həyata keçirilən məqsədyönlü fəaliyyətin nəticəsidir ki, hazırda Azərbaycanın dünya universitetlərinin QS reytinq siyahısında ilk ən yaxşı 1000 universitet siyahısında yer alan yeganə ali təhsil müəssisəsi BDU-dur. Universitet alimləri tərəfindən nüfuzlu elmi nəşrlərdə çap edilən məqalələrin dinamikası ildən-ilə yüksələn xətt üzrə inkişaf edir. "Clarivate Analytics" beynəlxalq agentliyinin rəsmi məlumatına əsasən, BDU-nun H-indeksi artaraq 68-ə yüksəlib. Müqayisə üçün qeyd edək ki, bu göstərici 2018-ci ildə 35-ə, ötən il isə 52-yə bərabər olub.

Hər bir əsərə edilən istinadların orta sayı 8.53-ə qədər yüksəlib. Agentliyin rəsmi məlumatına əsasən, BDU-nun əməkdaşları, doktorant və tələbələri tərəfindən "Web of Science" bazasına daxil olan dərgilərdə artıq 4436 elmi əsər dərc edilib. Bu əsərlərə ümumilikdə 37000-dən çox istinad edilib ki, bu göstərici ötən il 29000 idi.

Universitetimiz son illər bir sıra reytinqlər üzrə göstəricilərini də artırıb. BDU, eyni zamanda, Azərbaycanda "Times Higher Education Subject" reytinq siyahısında yer alan yeganə ali təhsil müəssisəsidir. BDU-nun bu sahədə daha bir uğuru ilk dəfə olaraq "QS Sustainability 2024" reytinqində yer almasıdır. 2024-cü ildə THE qlobal reytinqinə də Azərbaycan ali təhsil müəssisələrindən yalnız BDU daxil olub.

Bütün bunlar kollektivimizin birgə, yüksək səylə çalışması nəticəsində əldə edilmiş uğurlardır. Əminik ki, bu nəticələr ildən-ilə daha da yüksələcək. Bu uğurlar universitetimizdə müasir tələblərə uyğun elmi-tədqiqat mühitini inkişaf etdirir, beynəlxalq əməkdaşlıq imkanlarını daha da artırır, rəqabətədavamlı elmi araşdırmaların aparılmasına şərait yaradır.

Beynəlxalq əməkdaşlığa, tələbə və müəllim mübadiləsinə xüsusi önəm verən BDU bu istiqamətdə də səylərini davam etdirir. Universitet əmək bazarının tələblərinə uyğun mütəxəssislərin hazırlanması məqsədilə ABŞ, Çin, Almaniya, İsrail, İsveçrə, Qazaxıstan və digər ölkələrin qabaqcıl universitet və institutları ilə (Yerusəlim İbrani Universiteti, Holon Texnologiya İnstitutu, Anhui Universiteti, Biznes və Beynəlxalq Tədqiqatlar Universiteti, Linkoln Universiteti, Satbayev adına Qazax Milli Tədqiqat Texniki Universiteti, Əl-Fərabi adına Qazax Milli Universiteti və s.) bakalavriat, magistratura, doktorantura səviyyələri üzrə 12 beynəlxalq ikili diplom proqramlarını tətbiq edir. Təhsilin keyfiyyətinin yüksəldilməsi, elm tədqiqatların sənayeyə tətbiqi, tələbələrin öz nəzəri biliklərini təcrübədə tətbiqetmə imkanının yaradılması üçün nüfuzlu universitetlərlə əməkdaşlıq gündən-günə artırılır. Bunlar BDU-nun dünyanın qabaqcıl elm və təhsil məkanına inteqrasiyasını şərtləndirir və bu prosesi daha da sürətləndirir.

Ötən tədris ilində də BDU-nun beynəlxalq əməkdaşlıq strategiyası uğurla davam etdirilib. Bu dövrdə BDU ilə Türkiyənin Tokat Qaziosmanpaşa, Orta Doğu Texniki, İstanbul Texniki, Muğla Sıtkı Koçman universitetləri, Litvanın Mikolas Romeris Universiteti arasında "Erasmus" mübadilə protokolu, Sarsen Amanjolov adına Şərqi Qazaxıstan Universiteti, Qırğız-Türk "Manas" Universiteti arasında "Orhun" mübadilə protokolu, Türkiyənin Hacettepe, Balıkesir, Ankara Sosial Elmlər universitetləri, İspaniyanın Qranada Universiteti, Özbəkistan Elmlər Akademiyasının Mirzə Uluqbəy adına Astronomiya İnstitutu, Qazaxıstanın Atırau Dövlət Universiteti, Yaponiyanın Kanaqava və Kumamoto universitetləri, Çinin Pekin Xarici Dillər, Tongji, Hefei Texnologiya universitetləri arasında əməkdaşlıq memorandumu və bu istiqamətdə bir sıra digər sənədlər imzalanıb. BDU hazırda 50-dən çox ölkənin 160-dan artıq universiteti ilə əməkdaşlıq edir.

BDU xarici universitetlərlə birgə beynəlxalq elmi tədbirlərin təşkilinə də üstünlük verir. Son illər bu istiqamətdə bir sıra nəticələr əldə edilib, o cümlədən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfranslar, BMT-nin Kosmos Məsələləri üzrə Ofisi (UNOOSA) ilə "Beynəlxalq Kosmik Hava Təşəbbüsü: Günəş, Kosmik Hava və Geosfer" üzrə BMT/Azərbaycan yüksək işçi seminarı (United Nations/Azerbaijan Workshop on the International Space Weather Initiative: The Sun, Space Weather and Geosphere), "Volkswagen" Fondu ilə "Kvant elminin və texnologiyasının müasir meylləri: kvant materiallarından kvant informasiyasına qədər" mövzusunda beynəlxalq yay məktəbi və s. elmi tədbirlər keçirilib.

BDU nüfuzlu beynəlxalq elmi təşkilatlarla əməkdaşlığı da özünün prioritetlərindən hesab edir. 2022-ci ildə Avropa Universitetlər Assosiasiyasının (EUA) və İslam Dünyasının Universitetləri Federasiyasının (FUIW), 2023-cü ildə Beynəlxalq Astronavtika Federasiyasının (IAF), 2024-cü ildə isə Sənaye və Texnoloji Tədqiqat Təşkilatlarının Dünya Assosiasiyasının (World Association of Industrial and Technological Research Organizations - WAITRO), Avropa Paytaxtları Universitetləri Şəbəkəsinin (Network of Universities from the Capitals of Europe - UNICA) üzvü seçilib.

Beynəlxalq əlaqələrlə yanaşı, ölkədaxili əməkdaşlığa da xüsusi önəm verilir. Universitetin sosial missiyasına müvafiq olaraq onun cəmiyyətdə nüfuzunun artırılması istiqamətində çoxşaxəli tədbirlər görülüb, universitetin sahib olduğu elmi potensialın cəmiyyətin sosial problemlərinin həllinə, sosial-iqtisadi proqramların həyata keçirilməsinə cəlb edilməsi məqsədilə ölkənin dövlət təşkilatları, nüfuzlu müəssisə və ictimai birlikləri ilə əlaqələr genişləndirilib, birgə sosial layihələrin sayı artırılıb. Dövlət və qeyri-hökumət təşkilatlarının, iri beynəlxalq və özəl şirkətlərin öz sosial layihələrini təqdim etdiyi platformaya çevrilməsi məqsədilə tərəfdaş qurumlarla birlikdə fəaliyyət planları tərtib edilib, universitetdə ölkənin elmi, mədəni, sosial-iqtisadi problemlərinə həsr olunmuş yüksək səviyyəli konfranslar, seminarlar və digər tədbirlər keçirilib. Cəmiyyətin sosial problemlərinin təhlilinə və həllinə, müəssisə və təşkilatların sosial tədqiqat və layihələrinin icrasına Universitetin elmi potensialının cəlb edilməsi ənənəsi inkişaf etdirilib.

Dövlət və özəl müəssisələrlə əməkdaşlıq bilavasitə tədris prosesinin, elmi-tədqiqat fəaliyyətinin səmərəli təşkilinə, eləcə də məzunların işlə təmin olunmasına xüsusi töhfə verir. Son illər BDU ilə Elm və Təhsil Nazirliyinin Fizika, Molekulyar Biologiya və Biotexnologiyalar, Riyaziyyat və Mexanika, akademik M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya və Radiasiya Problemləri institutları, Azərbaycan Respublikasının Baş Prokurorluğu, Müdafiə Sənayesi Nazirliyi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti, Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi, Sosial Xidmətlər Agentliyi, Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya, Bioloji Müxtəlifliyin Qorunması Xidməti, Qarabağ Dirçəliş Fondu, Azərbaycan Vəkillər Kollegiyası, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), PAŞA Bank, "PAŞA Həyat Sığorta", "LU-MUN HOLDING" və s. təşkilatlar arasında müvafiq memorandumlar, müqavilələr imzalanıb. Əmək bazarının mövcud tələbatını, yeni dövrdə mütəxəssislərdən tələb olunan əsas bacarıqları öyrənmək, bu tələbatın kadr hazırlığında nəzərə alınması, eləcə də universitet-sənaye işbirliyinin yaradılması, tədris prosesinə sənayedə çalışan mütəxəssislərin cəlb olunması, tələbələrin istehsalatda yeni meyarlarla təcrübə keçməsi, həmçinin birgə layihələrin, elmi-tədqiqat işlərinin aparılması məqsədilə hazırda BDU 57 dövlət, özəl və qeyri-hökumət təşkilatı ilə əməkdaşlıq edir, birgə layihələr həyata keçirir.

BDU-nun 100 illik yubileyindən sonra keçən beş il ərzində universitetdə bir sıra mühüm layihələr reallaşdırılıb. Bunlara misal olaraq, "Azərbaycan məcburi köçkünlərinin pozulmuş hüquqlarına dair kompleks beynəlxalq hesabat"ı, "Vətən müharibəsi dövründə yerli və xarici medianın fəaliyyətinin təhlili", "Azərbaycan Respublikasının tarixi (1991-2021)" 2 cildlik kitabını, "Heydər Əliyev: dil, ədəbiyyat və incəsənət" nəşrini və s. göstərmək olar. Adıçəkilən layihələr BDU-nun professor-müəllim heyəti tərəfindən yüksək peşəkarlıqla yerinə yetirilib və ictimaiyyətə təqdim edilib.

Bu gün BDU-nun kollektivi və tələbələri Prezident İlham Əliyevin Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Sərəncamına uyğun olaraq bu istiqamətdə öz fəaliyyət istiqamətini müəyyənləşdirib, bir sıra tədbirlər, layihələr həyata keçirməkdədir.

Ölkəmizdə keçirilən bütün beynəlxalq əhəmiyyətli tədbirlərdə hər zaman fəal iştirakı ilə seçilən BDU kollektivi "Yaşıl dünya naminə həmrəylik ili"ndə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 29-cu Tərəflər Konfransının (COP-29) ölkəmizdə keçirilməsini mühüm hadisə hesab edir. Bu mötəbər tədbirə Azərbaycanın ev sahibliyi etməsi Prezident İlham Əliyevin dünyadakı nüfuzunun göstəricisidir. Bütün dünya ölkələri tərəfindən qəbul edilən bu qərar ölkəmizə göstərilən böyük etimad və hörmətin parlaq nümunəsidir. Böyük potensiala malik elm və təhsil müəssisəsi kimi BDU da bu istiqamətdə tədbirlərini davam etdirir.

Qalib və qüdrətli ölkəmizin gündən-günə inkişaf etməsi, elm və təhsildə əldə olunan nailiyyətlər, BDU kollektivini və tələbələrimizi doğma universitetimizin 105 illik yubileyini daha yüksək ovqatla qeyd etməyə sövq edir, hər birimizdə sonsuz qürur hissləri yaradır. Əminik ki, möhtərəm Prezidentimizin diqqət və qayğısı ilə əhatələnən 105 yaşlı BDU zəngin ənənələrini inkişaf etdirərək, beynəlxalq təcrübədən, dünya elminin nailiyyətlərindən faydalanaraq, Azərbaycan xalqına və beynəlxalq ictimaiyyətə elmi əsaslara, milli və mədəni dəyərlərə söykənən və müasir dövrün tələblərinə cavab verən kadrlar hazırlamaq missiyasını uğurla davam etdirəcək.

# Pakistan nümayəndə heyəti BDU-da




***Noyabrın 23-də Pakistan İslam Respublikasının Baş nazirinin gənclər proqramı üzrə nümayəndəsi Fahad Şahbaz və Lahor Universitetinin xüsusi layihələr və əməliyyatlar direktoru Abuzər Qaffari BDU-da olub.***

BDU rektoru Elçin Babayev qonaqlara Universitetin tarixi və fəaliyyəti barədə məlumat verib. O bildirib ki, 105 illik tarixə malik BDU Azərbaycanın ən böyük və qədim universitetidir. BDU-nun 16 fakültəsi, bir kolleci, bir liseyi, Qazax filialı fəaliyyət göstərir. Təhsil-elm-tədqiqat-innovasiya mərkəzlərindən birinə çevrilməkdə olan BDU-da elmin bütün sahələri üzrə kadr hazırlığı həyata keçirilir.

Lahor Universitetinin xüsusi layihələr və əməliyyatlar direktoru Abuzər Qaffari müəllim-tələbə mübadiləsi üzrə əməkdaşlıqda maraqlı olduqlarını vurğulayıb. Qeyd edib ki, əsası 1999-cü ildə qoyulan Lahor Universiteti QS dünya universitetlərinin reytinqində 951-1000, "Times Higher Education" reytinqində isə 801-1000-ci pillədə qərarlaşıb. Universitetin 11 fakültəsində 35 mindən artıq tələbə təhsil alır. Universitetdə 5 elmi-tədqiqat mərkəzi və 3 texnopark fəaliyyət göstərir.

Görüşdə tərəflər arasında mümkün əməkdaşlığın detalları müzakirə edilib.

# BDU-da "CV və rezüme hazırlığı" mövzusunda təlim

***Noyabrın 26-da BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin əməkdaşları Biologiya, Kimya, Tətbiqi riyaziyyat və kibernetika fakültələrinin tələbələri üçün "CV və rezüme hazırlığı" mövzusunda təlim təşkil edib.***

Tədbirdə CV-nin mahiyyəti, rezüme ilə oxşar və fərqli cəhətləri izah olunub. Qeyd edilib ki, CV işaxtaran haqqında ilkin təəssürat yaradan, işaxtaranın karyera tarixçəsini və professional keyfiyyətlərini təsvir edən sənəddir. CV-nin tərtib edilməsi prinsiplərinin, quruluş və ardıcıllığının, mükəmməl yazı üslubunun öyrənilməsi hər bir tələbənin karyerasında uğurlu məqamdır. İşəgötürənin işaxtaranı müsahibə mərhələsinə dəvət etməsinə keçid məhz düzgün və səriştəli şəkildə tərtib edilmiş CV-dən asılıdır.

Tədbir zamanı CV-nin tərtibində yol verilən nöqsanlar, işaxtaran haqqında mənfi rəy yarada biləcək məqamlar, həmçinin onların aradan qaldırılması yolları da tələbələrin diqqətinə çatdırılıb.

Təlim zamanı tələbələrin sualları ətraflı cavablandırılıb.

# BDU-nun 105 illik yubileyi çərçivəsində Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin təqdimatı

***Noyabrın 25-də BDU-nun 105 illik yubileyi çərçivəsində Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin təqdimatı keçirilib.***



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi Bakı Dövlət Universitetinin ən gənc fakültələrindən olmasına baxmayaraq, ən böyük fakültəsidir. Fakültə 1991-1992-ci illərdə yaranıb, qısa zaman ərzində formalaşıb və məşhurlaşıb. Bu illər ərzində fakültə ölkəmizin ictimai-siyasi həyatında mühüm rol oynayan çoxsaylı məzunlar yetişdirib. Hazırda fakültənin məzunları dövlət və hökumət qurumlarında, diplomatik nümayəndəliklərdə ölkəmizi layiqincə təmsil edirlər: “Müasir dövrdə dünyada beynəlxalq məsələlər və iqtisadiyyat ən aparıcı sahələrdəndir. Bu sahədə ölkəmizi peşəkar, yüksəkixtisaslı kadrlarla təmin etmək üçün fakültənin üzərinə mühüm vəzifələr düşür. Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin ölkəmizin beyin mərkəzlərindən birinə çevrilməsini istəyirik. Son illər fakültənin tədris göstəriciləri ildən-ilə yaxşılaşır, yüksək balla qəbul olunanların sayı artır”.

Xarici işlər nazirinin müavini Yalçın Rəfiyev 17 ildən sonra BDU-da çıxış etməyin böyük fəxr olduğunu qeyd edib. O bildirib ki, ölkəmizin diplomatik korpusunun böyük əksəriyyətini BDU məzunları təşkil edir. Fakültə məzunları həm Xarici İşlər Nazirliyinin (XİN) mərkəzi aparatında, həm də diplomatik nümayəndəliklərdə uğurla fəaliyyət göstərirlər. BDU-nun ənənələri, mühiti, burda qazandıqları peşəkar bacarıqlar onların uğurlarının əsasını təşkil edir. O, ölkəmizin son illərdə qazandığı diplomatik uğurlarda BDU məzunlarının da rolunun çox olduğunu diqqətə çatdırıb. BDU ilə XİN arasında münasibətlərin inkişafı, Universitetin tələbə və məzunlarının nazirliyin fəaliyyətinə daha aktiv cəlb olunması istiqamətlərində işlərin davam edəcəyini vurğulayıb.

Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin dekanı Laçın Abışlı isə bildirib ki, BDU yarandığı gündən öz tarixi missiyasını ölkəmizdə milli kadr hazırlığının həyata keçirilməsi istiqamətində qurub. Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi hazırda respublikanın ən böyük fakültələrindən biri kimi 3500-dən çox tələbə kontingentinə sahibdir. Burada bakalavriat səviyyəsində 9 ixtisas, magistratura səviyyəsində 18 ixtisaslaşma üzrə müasir dövrün qlobal çağırışlarına cavab verən yüksəkixtisaslı kadr hazırlığı həyata keçirilir. 7 kafedradan ibarət fakültədə 100 nəfərdən artıq professor-müəllim heyəti çalışır. Beynəlxalq əməkdaşlıq çərçivəsində fakültədə ikili diplom proqramları və birgə tədqiqat layihələri həyata keçirilir. Bu yanaşma tələbələrin rəqabətədavamlı mütəxəssis kimi formalaşmasına və beynəlxalq arenada uğurla təmsil olunmasına şərait yaradır.

Daha sonra Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi Qulu Novruzov, XİN-in Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Məhəmmədəli Xudaverdiyev çıxışlarında BDU məzunlarının ölkənin tərəqqisi və inkişafı istiqamətində böyük fədakarlıq göstərdiklərini və bunun real nümunəsinin ölkəmizin ev sahibliyi etdiyi böyük beynəlxalq tədbirlərdə aydın göründüyünü bildiriblər.

Tədbir fakültənin və BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin birgə hazırladığı konsert proqramı ilə davam edib.

# BDU-nun 105 illik yubileyinə həsr olunmuş fləşmob keçirilib

***Noyabrın 26-da Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin təşkilatçılığı ilə BDU-nun 105 ilk yubileyinə həsr olunmuş fləşmob keçirilib.***




300 nəfərdən çox tələbənin iştirak etdiyi fləşmobda iştirakçılar Universitetin həyətyanı ərazisində 105 rəqəmi formasında düzülərək, “BDU 105” şüarını səsləndiriblər.

# BDU-nun 23000-dən çox tələbəsi və 3000-dən artıq müəllimi “Blackboard” platforması vasitəsilə tədris prosesinə qoşulub

***Nazirlər Kabinetinin “Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının keçiriləcəyi dövrdə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyətinin təşkilinə dair əlavə tədbirlər haqqında" qərarına əsasən, ali təhsil pilləsi üzrə tədris və təlim-tərbiyə prosesi 2024-cü il noyabrın 12-dən 22-dək distant (məsafədən) formada təşkil edilib.***

Noyabrın 14-dən BDU-da tədris prosesinin distant formada təşkili uğurla həyata keçirilib. BDU-nun bakalavriatura və magistratura səviyyələrində 23000-dən çox təhsilalan, 3000-dən çox müəllim “Blackboard” platforması vasitəsilə tədris prosesinə qoşulub.

BDU 2021-ci ildən etibarən ABŞ-nin təhsildə informasiya texnologiyalarının tətbiqi sahəsində dünya lideri olan “Blackboard” şirkəti ilə əməkdaşlıq edir. "Blackboard" - tədrisin idarəedilməsi proqramının istifadəsi BDU-da “Blackboard EdTech” ekosisteminə daxil olan “bulud platforması” vasitəsilə tələbə və müəllimlərin elektron məlumat bazasının yaradılması, tədris prosesinin və təhsilin məzmununun elektron idarəedilməsi, elektron qiymətləndirmə və digər tədris proseslərinin elektronlaşdırılmış həllinə imkan yaradır. BDU-nun təşəbbüsü ilə “Blackboard” sisteminin Azərbaycan dilli versiyası da yaradılıb və tətbiqi həyata keçirilib. Artıq yaradılan bütün dərslərin modulları ilk dəfə olaraq istifadəçilərə Azərbaycan dilində təklif edilib. Bundan başqa, bütün istifadəçilərə “Blackboard”ın “Ultra” variantından istifadə etmələri üçün şərait yaradılıb.

Sadə və intuitiv dizayna malik “Blackboard” platforması tələbə və müəllimlər arasında effektiv qarşılıqlı əlaqəni təmin etməklə bərabər, istifadəçilərə bir çox üstünlüklər verir. Müəllimlər dərs planlarını asanlıqla yaradır, kurs materiallarını paylaşır, sistem vasitəsilə müxtəlif və fərqli tapşırıqlar verərək onların avtomatik yoxlanılmasını həyata keçirə bilir. Müəllimlər onlayn tədris prosesində sistemin üstünlüklərindən yararlanaraq, interaktiv üsullardan istifadə edir, elektron formada tələbələrin davamiyyətini yoxlayır, analitik hesabatlar əldə edir. Platforma vasitəsilə tələbələrin ümumilikdə tədris materiallarına rahat əlçatanlığı təmin edilir. “Blackboard Ultra” həm müəllimlər, həm də tələbələr üçün təhsil prosesini daha rahat və effektiv edir. Müəllimlər dərs planlaşdırması və idarəetmədə böyük rahatlıq qazanır, tələbələr isə məlumatlara daha sürətli çıxış əldə edərək öz öyrənmə proseslərinə nəzarət edə bilirlər. Yekunda isə tələbələr haqqında müvafiq qeydlər BDU-nun “Elm-təhsilin idarə edilməsi sistemi”nə daxil edilir. İstifadəçilərin texniki problemlərinin həll edilməsi ilə bağlı İşçi qrupları fəaliyyət göstərir.

# BDU-nun tətbiqi riyaziyyat üzrə elmi məktəblərində tədqiqatlar davam edir

***Bakı Dövlət Universitetinin nəzdində Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun elmi işlər üzrə direktor müavini, AMEA-nın müxbir üzvü, professor Vaqif Quliyevin müəllifi olduğu “Lipşitz funksiyalarının ümumi Morrey fəzalarında maksimal funksiyanın kommutatorları vasitəsilə xarakteristikası” (“Characterizations of Lipschitz functions via the commutators of maximal function in total Morrey spaces”) adlı məqalə “Web of Science” və “Scopus” bazalarında indekslənən “Mathematical Methods in the Applied Sciences” jurnalında (Q1 kvartilli, IF: 2.9) dərc olunub.***

Məqalədə ümumi Morri fəzalarında maksimal kommutator operatoru və maksimal operatorun kommutatorunun məhdudluğu üçün meyarlar alınıb. Bununla yanaşı, Morri fəzalarında maksimal kommutator operatorun və maksimal operatorun kommutatorunun məhdud olması üçün zəruri və kafi şərtlər tapılıb.

# BDU və Qazax Milli Pedaqoji Universiteti tədris prosesinin rəqəmsallaşdırılması ilə bağlı əməkdaşlıq edəcək

***Noyabrın 1-də BDU-nun rektorunun rəqəmsallaşma və informasiya texnologiyaları üzrə müşaviri Şəbnəm Səfərova ilə Abay adına Qazax Milli Pedaqoji Universitetinin beynəlmiləlləşmə və strateji inkişaf üzrə prorektoru Aygül İskakova, Beynəlxalq əməkdaşlıq departamentinin direktoru Bayan Saparqaliyeva, Beynəlxalq proqramlar və əməkdaşlıq şöbəsinin müdiri Aygerim Tavıldiyeva arasında görüş keçirilib.***



Görüş iki universitet arasında beynəlxalq əməkdaşlıq və tələbə mübadiləsi imkanlarını müzakirə etmək məqsədi daşıyıb. Görüşün əsas mövzularından biri rəqəmsal platforma və alətlərdən istifadə etməklə təhsil proqramlarının hazırlanmasına yönəlmiş beynəlxalq layihələrdə birgə iştirak perspektivləri olub.

Görüşdə BDU və Abay adına Qazax Milli Pedaqoji Universitetinin tələbələri üçün beynəlxalq qarşılıqlı fəaliyyət çərçivəsində təlim və təcrübə keçməyə imkan verəcək akademik mübadilə proqramlarının təşkilinə xüsusi diqqət yetirilib. Bu proqramlar tələbələrin rəqəmsal bacarıqlarını təkmilləşdirməyə kömək edəcək. İki universitet arasında əməkdaşlığın akademik mobilliyin gücləndirilməsi və tədris prosesinin rəqəmsallaşdırılması istiqamətində mühüm addım olacağına, bunun da öz növbəsində tələbələrin beynəlxalq səviyyədə rəqabət qabiliyyətini artıracağına əminlik vurğulanıb.

Görüşün sonunda tərəflər rəqəmsallaşma və akademik mübadilə üzrə qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirmək barədə razılığa gəliblər.

# BDU-da "Aşıq Vəli Miskinlinin yaradıcılığı" adlı tədbir keçirilib

***Noyabrın 4-də Filologiya fakültəsində Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə görkəmli Azərbaycan aşığı, Gədəbəy aşıq mühitinin yetirməsi Miskin Vəlinin 130 illik yubileyinə həsr olunmuş "Aşıq Vəli Miskinlinin yaradıcılığı" adlı tədbir keçirilib.***

Filologiya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Anar Fərəcov şairin xalq ruhundan qidalanan şeirləri haqqında məlumat verib, Aşıq Vəli Miskinli irsinin gənclər tərəfindən öyrənilməsinin əhəmiyyətindən söz açıb. Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının dosenti Məhəmməd Məmmədov Aşıq Vəli Miskinlinin həyatı və yaradıcılığı haqqında geniş məruzə ilə çıxış edib. Məruzədə saz-söz ustasının Azərbaycan aşıq ədəbiyyatının inkişafına verdiyi töhfələrdən, şeirlərinin poetik bənzərsizliyindən, əsərlərinin nəşri və tədqiqi sahəsində görülən işlərdən bəhs olunub. Natiq qeyd edib ki, Dədə Vəli Miskinli zamanında böyük söz ustaları, ədəbiyyat və incəsənət adamları Üzeyir Hacıbəyli, Səməd Vurğun, Osman Sarıvəlli, Cəfər Xəndan, o cümlədən araşdırıcılardan Ərtoğrul Cavid və Hümmət Əlizadənin diqqətini çəkib, onların rəyləri ilə şeirləri çap olunub.

Ailə üzvləri adından çıxış edən aşığın nəvəsi, BDU-nun "Türkoloji araşdırmalar" elmi-tədqiqat laboratoriyasının elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Ramil Bayramov tanınmış söz ustasının ədəbi fəaliyyəti, şəxsi keyfiyyətləri və ömür yolu ilə bağlı maraqlı məqamları diqqətə çatdırıb. Qeyd edib ki, Vəli Miskinli hələ gənclik çağlarından şairliyi və ifaçılıq bacarığı ilə geniş ad-san qazanıb. O, təhsil almasa da, fitrətdən gələn savadına, yaddaşına, bədahətən söz qoşmasına görə seçilib. Şeirlərində həyat hikmətini, dünyanın dərkini və insanın kimliyini hər kəsin başa düşdüyü aydın dillə ifadə edib.

Tədbir tələbələrin çıxışları ilə davam edib.

# BDU-da elmi seminar: "Dövlət qulluqçularının informasiya təminatında kitabxanaların rolu"

***Noyabrın 4-də İnformasiya və sənəd menecmenti fakültəsində Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə "Dövlət qulluqçularının informasiya təminatında kitabxanaların rolu" mövzusunda elmi seminar keçirilib. Elmi seminarda BDU-nun Kitabxanaşünaslıq kafedrasının doktorantı Aysel Həsənova məruzə edib.***



Tədqiqatçı əvvəlcə dövlət qulluğu və dövlət qulluqçusu anlayışlarını izah edib, dövlət qulluğunun mahiyyəti, məzmunu, keçdiyi tarixi inkişaf yolu barədə məlumatları iştirakçıların nəzərinə çatdırıb. Sahənin qanunvericilik bazasını şərh edən Aysel Həsənova "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun əhəmiyyətini xüsusi vurğulayıb.

Məruzədə qeyd olunub ki, dövlət qulluqçuları əsaslı qərarlar qəbul etmək üçün dəqiq və ətraflı məlumat əldə etmək imkanlarına malik olmalıdırlar: "Kitabxanalar dövlət qulluqçularının informasiya təminatında xüsusi rol oynayırlar. Dövlət qulluqçuları ilə kitabxana xidmətləri arasında kommunikasiya dövlət idarəçiliyinin səmərəli təşkili üçün mühüm əhəmiyyət kəsb edir".

Araşdırmada dövlət qulluqçularının əsaslandırılmış qərarlar qəbul etmək və strategiya formalaşdırmaq istiqamətində informasiya tələbatının ödənilməsində kitabxanaların rolu müəyyənləşdirilib, kitabxana-informasiya xidmətlərinin dövlət qulluğunun formalaşmasına təsiri şərh olunub. Tədqiqatçı dövlət qulluqçularına xidmət göstərən kitabxanaları qruplaşdırıb və onların şəbəkəsini təsnifləşdirib.

Məruzədə dövlət qulluqçularının informasiya təminatında aparıcı rola malik olan Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının iş təcrübəsi geniş tədqiq edilib. Prezident Kitabxanasının yaranma tarixi, komplektləşdirmə mənbələri, müasir vəziyyəti, həyata keçirdiyi layihələr, beynəlxalq əlaqələri və hədəfləri barədə ətraflı məlumat verilib.

Elmi seminar müzakirələrlə davam edib.

# BDU-da "Mən burdayam, İlahi" filmi nümayiş olunub

***Noyabrın 4-də BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin təşkilatçılığı ilə "Mən burdayam, İlahi" filmi nümayiş olunub.***

8 noyabr – Zəfər Gününə həsr olunmuş tədbirdə əvvəlcə film barədə məlumat verilib. Qeyd olunub ki, ekran əsərinin quruluşçu rejissoru Qulu Əsgərov, ssenari müəllifi "Beynəlxalq sənədli film ssenariləri" müsabiqəsinin laureatı Nicat Dadaşovdur.

44 günlük Vətən müharibəsindən bəhs edən tammetrajlı filmdə əsas obraz olan qazi üç aylıq komadan ayılıb anasının rəhmətə getdiyini və qızının uşaq evinə himayəyə verildiyini öyrənir. O, övladına sahib çıxa bilmək üçün həyatını qaydasına salmağa çalışır. Filmdə ağır döyüş səhnələrindən daha çox, müharibənin insan psixologiyasında buraxdığı izlər ön plana çəkilib.

Sonra BDU tələbələri filmə tamaşa ediblər.

# "BDU könüllüləri" təşkilatının "Lin-Orph" musiqi klubunun konsert proqramı

***Noyabrın 6-da "BDU könüllüləri" təşkilatının "Lin-Orph" musiqi klubunun təşkilatçılığı ilə konsert proqramı təşkil olunub.***

Proqramda könüllülərin ifasında "Payız gəldi", "Sən gəlməz oldun", "Səndə qalmaz", "Bir könül sındırmışam" kimi musiqi nömrələri səsləndirilib.

Qeyd edək ki, 2019-cu ildən fəaliyyət göstərən "BDU könüllüləri" təşkilatı hazırda öz ətrafında 1000-dən çox tələbəni birləşdirir.

# Doktorantlar BDU-da aparılan elmi tədqiqatların əsas iştirakçılarıdırlar

***Bakı Dövlət Universitetinin fəlsəfə doktoru proqramı üzrə doktoranturasında "Həndəsə" ixtisasında təhsil alan Nərminə Qurbanovanın apardığı elmi-tədqiqatların nəticələri "Springer" və "World Scientific" nəşriyyatlarının "Chinese Annals Mathematics" və "International Journal of Geometric Methods in Modern Physics" jurnallarında dərc olunub.***

Qeyd edək ki, hər iki jurnal "Web of Science" bazasının Science Citation Index Expanded (SCIE) indeksinə daxildir:

Məqalələrdə 2-jet laylanma fəzalarının nilpotent cəbr üzərində qurulmuş holomorf çoxobrazlı kimi modelləşməsi istifadə edilərək tensor meydanlarının və afin rabitələrin yeni sinfi olan deformasiya olunmuş liftlər daxil edilib, onların Eynşteyn fəzalarına və Ricci solitonlarına tətbiqi məsələlərinə baxılıb.

Nərminə Qurbanovanın elmi rəhbəri Əməkdar elm xadimi, BDU-nun Cəbr və həndəsə kafedrasının müdiri, professor Arif Səlimovdur.

# Görkəmli hüquqşünas, nüfuzlu alim, peşəkar müəllim – Məsumə Məlikova

***Noyabrın 22-də Hüquq fakültəsinin Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasının müdiri, Əməkdar hüquqşünas, AMEA-nın müxbir üzvü, hüquq elmləri doktoru, professor Məsumə Məlikovanın 95 illik yubileyidir.***

Azərbaycanda hüquqşünaslığın bir elm və ixtisas kimi formalaşmasının bünövrəsini qoyanlardan biri olan professor Məsumə Məlikova 70 ildən artıqdır Bakı Dövlət Universitetində elmi-pedaqoji fəaliyyətlə məşğul olur. Görkəmli alim Azərbaycanda dövlət və hüquq nəzəriyyəsi, hüquq tarixi, siyasi-hüquqi təlimlər tarixi elmlərinin inkişafına böyük töhfələr verib, hüquq elmini layiqincə təmsil edib. Hüquq elmləri doktoru alimlik dərəcəsi almış ilk azərbaycanlı qadın olan Məsumə xanım Məlikova böyük və mənalı ömür yolu keçib.

O, 22 noyabr 1929-cu ildə Bakı şəhərində zəhmətkeş bir ailədə dünyaya göz açıb. Elmə, biliyə həvəs, əməksevərlik, tələbkarlıq, dəqiqlik erkən yaşlarından onun xarakterinin əsas cizgiləri və sonrakı uğurlarının əsas açarı olub. 1952-ci ildə BDU-nun Hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirdikdən sonra elmi-pedaqoji sahəyə yüksək həvəsini və bacarığını görən fakültə rəhbərliyi onu Dövlət hüququ kafedrasında müəllim vəzifəsində saxlayıb. 1953-cü ildə BDU-nun aspiranturasına qəbul olunan Məsumə Məlikova elmi işini davam etdirmək üçün 1954-cü ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) aspiranturasına ezam edilib. Aspiranturanı bitirdikdən sonra 1958-ci ildə MDU-da "M.F.Axundovun ictimai-siyasi baxışları" mövzusunda namizədlik, 1973-cü ildə isə "XIX əsrin II yarısı–XX əsrin başlanğıcında Azərbaycan maarifçilərinin siyasi və hüquqi baxışları" mövzusunda doktorluq dissertasiyalarını uğurla müdafiə edib.

Məsumə xanım Məlikovanın elmi və pedaqoji fəaliyyəti bir-biri ilə ayrılmaz vəhdət təşkil edir. Görkəmli alim 1958-1968-ci illərdə Hüquq fakültəsinin Dövlət hüququ kafedrasının müəllimi olub. Sonra Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrası təşkil edilib. 1968-ci ildən Məsumə Məlikova bu kafedraya bacarıqla rəhbərlik edir. O, 1974-cü ildə professor elmi adını almış, 1989-cu ildə isə AMEA-nın müxbir üzvü seçilmiş ilk hüquqşünas qadın alimdir.

Özünün çoxillik elmi-pedaqoji fəaliyyəti ərzində Məsumə Məlikova yüksək ixtisaslı mütəxəssislər hazırlayıb, ölkədə və ondan kənarda monoqrafiyalar, dərsliklər, kitablar, çoxsaylı elmi məqalələr müəllifi kimi tanınıb. Onun elmi əsərlərinin sayı 200-dən artıqdır. Çoxsaylı monoqrafiyaların, dərsliklərin və elmi məqalələrin müəllifi olan görkəmli alim məhsuldar, peşəkar, geniş dünyagörüşlü alim-tədqiqatçı kimi tanınıb. Onun elmi-tədqiqat fəaliyyətinin başlıca istiqamətlərinin içərisində hüquqşünaslığın iki mühüm sahəsini – ümumi dövlət və hüquq nəzəriyyəsinin və siyasi-hüquqi təlimlər tarixinin aktual problemlərinin tədqiqini xüsusi qeyd etmək lazımdır. Məsumə xanım Azərbaycanda milli siyasi və hüquqi təlimlər tarixi elminin banisidir, hüquq elminin bu sahəsində məktəb yaradıb və hüquqşünaslıqda yeni istiqamətin təməlini qoyub.



Professor Məsumə Məlikovanın Azərbaycanda hüquq elminin inkişafına verdiyi töhfələr təkcə bununla məhdudlaşmır. Bu sahədə mükəmməl, yüksəkixtisaslı kadr potensialının formalaşmasında, hüquq elminin dərinliklərinə bələd olan yeni mütəxəssislərin yetişdirilməsində də bir pedaqoq, elm ustadı kimi əvəzsiz xidmətlər göstərib. Görkəmli alim hüquq ədəbiyyatında ilk dəfə Azərbaycanda ideya cərəyanlarının tarixini, maarifçilik ideologiyasının təşəkkülü və inkişaf qanunauyğunluqlarını, Azərbaycanın görkəmli maarifçilərinin siyasi-hüquqi baxışlarını tədqiq edib, ən qədim dövrlərdən XX əsrin başlanğıcınadək bu ideologiyanın dövrləşdirilməsi konsepsiyasını elmi cəhətdən əsaslandırıb. Onun "M.F.Axundovun ictimai-siyasi baxışları" (1958), "XIX əsr-XX əsrin başlanğıcında Azərbaycanda siyasi-hüquqi təlimlər tarixi" (1972) kitablarında, eləcə də "Nizami Gəncəvi və Azərbaycan maarifçiliyi" (1992) , "Azərbaycanın siyasi-hüquqi təlimlər tarixinin dərk edilməsində tarixilik və varislik prinsipləri" (2006), "Azərbaycanda maarifçiliyin tarixinin dövrləşməsi məsələsinə dair" (2008), "III-X əsrlərdə Azərbaycanda maarifçiliyin tarixi" (2009) və s. bu qəbildən olan əsərlərində Azərbaycan maarifçiliyinin siyasi və hüquqi ideyalarının, sosial tərəqqi, dövlətin, hüququn və şəxsiyyətin qarşılıqlı əlaqəsi problemlərinin ilkin tədqiqi aparılıb.

O, keçmiş SSRİ-nin ən nüfuzlu universitetlərində çalışan hüquqşünas alimlərlə birlikdə "Siyasi və hüquqi təlimlər tarixi" adlanan çoxcildli monoqrafiyaların üç cildində (I, II, III cildlər), eləcə də "Siyasi və hüquqi təlimlər tarixi" adlı dərsliklərdə (1965, 1971, 1991) bir neçə bölmənin müəllifi olub. 1985-ci ildə Moskvada çap edilmiş "Siyasi və hüquqi təlimlər tarixi" kitabının "Qədim dünya" adlanan I cildində, 1986-cı ildə "Orta əsrlər və İntibah dövrü" adlı II cildində, 1989-cu ildə "XVII-XVIII əsrlər"i əhatə edən III cildində, 1965 və 1971-ci illərdə "Siyasi təlimlər tarixi" dərsliyində, 1991-ci ildə "Siyasi və hüquqi təlimlər tarixi" dərsliyində bir neçə bölməni məhz professor Məsumə Məlikova yazıb. Həmin bölmələrdə Şərq mütəfəkkirlərinin siyasi və hüquqi baxışlarının tədqiqi, Azərbaycan mütəfəkkirlərinin əsərlərində, həmçinin dövrün ictimai həyatının hüquqi tənzimini nəzərdə tutan bir çox hüquqi aktlarda öz ifadəsini tapmış siyasi-hüquqi ideyaların araşdırılması və təhlili yer alıb.

Professor Məsumə Məlikova 1991-ci ildə nəşr edilmiş "Hüquq ensiklopedik lüğəti"nin tərtib edilməsində baş redaktor qismində böyük müəlliflər kollektivinə rəhbərlik edib və şəxsən özü 85-dən artıq elmi məqalənin müəllifi olub. Bununla yanaşı, o, "Sovet Hüquq Ensiklopediyası"nda "Avesta" adlı elmi məqalənin, habelə "Azərbaycan Sovet Ensiklopediyası"nda 30-dan artıq elmi-hüquqi məqalələrin müəllifidir.

Professor Məsumə Məlikova ilk dəfə olaraq Azərbaycan dilində "Dövlət və hüquq nəzəriyyəsi" (1979-cu ildə) adlı dərslik yazaraq nəşr etdirib. İlk ana dilli dərslik olmaq etibarilə bu kitab respublikamızın həyatında dövlət və hüququn nəzəri məsələlərini əhatəli surətdə özündə ehtiva edib, 1988-ci ildə isə onun ikinci – təkmilləşdirilmiş nəşri işıq üzü görüb.

Sovetlər Birliyi dönəmində hüquqşünaslıq ixtisası üzrə bütün İttifaq miqyasında Məsumə Məlikovanın təşəbbüsü ilə hüquq üzrə təhsilin tədris planına ilk dəfə milli siyasi və hüquqi təlimlər tarixi ilə bağlı fənn daxil edilib, 1984-cü ildə onun hazırladığı "Azərbaycanın siyasi-hüquqi nəzəriyyələr tarixi" (birgə müəllifliklə) monoqrafiyası dərc edilib. Qədim dövrlərdən XX əsrin başlanğıcınadək Azərbaycanda demokratik siyasi-hüquqi fikrin təşəkkülü və inkişafı prosesinin dərin təhlilini əks etdirən bu monoqrafiya ölkəmizdə hüquq elminin inkişafı, milli fikir tariximizin araşdırılmasında mühüm elmi nailiyyət sayılır.

Görkəmli alimin və onun rəhbərlik etdiyi məktəbin elmi tədqiqatları nəticəsində ölkəmizdə hüquq təhsili sahəsində tədris planına ilk dəfə olaraq "Azərbaycanın siyasi-hüquqi təlimlər tarixi", "Azərbaycanın dövlət və hüquq tarixi", "Müsəlman hüququnun əsasları" fənləri daxil edilib və həmin fənlərin tədrisi üçün müvafiq elmi baza yaradılıb.

Professor Məsumə Məlikovanın rəhbərliyi altında və bilavasitə onun müəllifliyi ilə rəhbərlik etdiyi kafedrada çoxsaylı dərslik, dərs vəsaitləri və elmi məcmuələr hazırlanaraq nəşr edilib. Bunların içərisində xüsusi olaraq "Hüquq nəzəriyyəsi" (2019, 2022, 2023), Azərbaycanın və xarici ölkələrin dövlət və hüquq tarixi sahələrinə dair "Xarici ölkələrin dövlət və hüquq tarixi" (qədim və orta əsrlər) (1997, 2005, birgə müəlliflıklə), "Müasir dövlət və hüquq tarixi" (2003, birgə müəlliflıklə) dərslikləri, "Qədim dövrlərdə və erkən orta əsrlərdə Azərbaycanın dövlət və hüququ" (2001, birgə müəlliflıklə) dərs vəsaiti və "Qafqaz xalqlarının hüquq abidələrinin antologiyası. Azərbaycanın hüquq abidələri" (17, 18 və 19-cu cildlər, birgə müəlliflıklə) elmi məcmuəsini göstərmək olar. M.Məlikovanın yazdığı "Azərbaycan Respublikasının Konstitusiyası və insan hüquqları" (1995), "Azərbaycanda hüquqi islahatlar və Konstitusiya Məhkəməsi" (1998), "Azərbaycan Respublikası qanunvericiliyinin konstitusiya-hüquqi əsasları" (2003), "Azərbaycan Respublikası qanunvericiliyinin proqnozlaşdırılma məsələləri" (2005), "Rəqəmsal texnologiyaların hüquqi sferaya tətbiqi probleminə dair" (2021), "Beynəlxalq və dövlətdaxili hüququn nisbəti və milli hüquq mənbələrinin sistemi" (2023) və s. kimi elmi əsərlərində ölkəmizdə hüquqi dövlət quruculuğu prosesini sürətləndirən və bütövlükdə hüquq sisteminin təkmilləşdirilməsinə xidmət edən yeni təkliflər irəli sürülüb.

Elmi kadrların hazırlanması işinə böyük töhfələr verən görkəmli alim yalnız ölkəmiz deyil, həmçinin xarici ölkələr üçün yüksək ixtisaslı elmi kadrlar hazırlığına böyük əmək sərf etmişdir. Onun rəhbərliyi altında 30-dan artıq, o cümlədən Suriya, İordaniya, Fələstin, Vyetnam və s. ölkələr üçün hüquq üzrə fəlsəfə doktoru, 5 hüquq elmləri doktoru dissertasiya işi müvəffəqiyyətlə müdafiə edilib. Məsumə Məlikova hazırda da hüquq üzrə fəlsəfə doktoru və hüquq elmləri doktoru proqramı üzrə elmi rəhbərliyini davam etdirir.

Azərbaycanın milli hüquq sisteminin formalaşmasında və qanunvericiliyinin təkmilləşdirilməsində mühüm xidmətləri olan professor Məsumə xanım Məlikova Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını tərtib edənlərdən biri, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında respublikanın 1978-ci il və müstəqil Azərbaycanın 1995-ci il konstitusiyalarının, Naxçıvan Muxtar Respublikasının 1998-ci il Konstitusiyasının hazırlanması üzrə komissiyaların üzvü olub.

Məsumə Məlikova müstəqillik dövründə də dövlətimizin bir çox elmi təşkilatlarının fəaliyyətində gərgin əmək sərf edib. O, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının yarandığı gündən 1998-ci ilədək iqtisadi, fəlsəfə və hüquqi elmlər üzrə Ekspert Komissiyasının sədri, Baş Prokurorluğun Elmi-məsləhət Şurasının və Ali Məhkəmənin analoji şurasının üzvü, AMEA-nın nəzdində Hüquq elmləri üzrə Problem Şurasının sədri, AMEA-nın ictimai elmlər bölməsinin bürosunun və AMEA-nın Rəyasət Heyəti yanında Terminologiya Komissiyasının hüquqşünaslıq bölməsinin üzvü kimi elmin müxtəlif sahələrinin təkmilləşdirilməsi yönümündə dəyərli tövsiyələrini verib.

Professor Məsumə Məlikovanın elmin və təhsilin inkişafındakı xidmətləri dövlətimiz tərəfindən layiqincə qiymətləndirilib, o, çoxsaylı fəxri adlar və təltiflərlə mükafatlandırılıb. Bu yüksək mükafatların içərisində görkəmli alimin layiq görüldüyü "Azərbaycan Respublikasının Əməkdar hüquqşünası" fəxri adını, "Şərəf nişanı" ordeni və "Şöhrət" ordeni, "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"nu, "Heydər Əliyevin 100 illiyi (1923–2023)" yubiley medalını, Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Bakı Dövlət Universitetinin 100 illiyi (1919–2019)" yubiley medalını, "Əmək veteranı" medalını, Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Fərqlənməyə görə" döş nişanını, Bakı Dövlət Universitetinin 75 illiyi münasibəti ilə "Xatirə medalı"nı, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin "Xatirə" medalını və çox sayda fəxri fərmanları göstərmək olar. Məsumə xanım Məlikova 2009-cu ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülüb.

Alimin yetişdirdiyi yüzlərlə yüksəkixtisaslı kadr hüquq elmimizin inkişafına, müstəqil Azərbaycanda hüquqi dövlət quruculuğu prosesinə öz dəyərli töhfələrini verməkdədir. Professor Məsumə xanım Məlikovanın zəngin həyat yolu, yüksək insani keyfiyyətləri bütün tələbələr, müəllimlər üçün örnəkdir.

Universitet rəhbərliyi və kollektivi görkəmli alim, BDU-nun canlı əfsanəsi, professor Məsumə xanım Məlikovanı 95 illik yubileyi münasibəti ilə təbrik edir, ona cansağlığı, hüquq elminin inkişafı istiqamətində yeni elmi yaradıcılıq uğurları arzulayır!

# Medianın İnkişafı Agentliyinin BDU-da xüsusi auditoriyası istifadəyə verilib

***Noyabrın 26-da Medianın İnkişafı Agentliyinin Bakı Dövlət Universitetində xüsusi auditoriyası istifadəyə verilib.***

Tədbirdə çıxış edən rektor Elçin Babayev BDU-nun Jurnalistika fakültəsinin ölkədə peşəkar jurnalist kadrlarının hazırlanmasında mühüm rol oynadığını, məzunların medianın müxtəlif sahələrində uğurla çalışdıqlarını diqqətə çatdırıb. Rektor qeyd edib ki, tələbələrin nəzəri biliklər əldə etməklə yanaşı, praktik bacarıqlarının möhkəmləndirilməsi, tədris prosesinə peşəkar şəxslərin cəlb edilməsi olduqca vacibdir.



Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Agentlik tərəfindən göstərilən müxtəlif formatlı təşəbbüslərin jurnalistika sahəsində təhsil alan gənclər üçün yeni imkanlar yaradacağını və onların peşəkar bacarıqlarının inkişafına müsbət təsir göstərəcəyini vurğulayıb. O bildirib ki, bu ixtisas üzrə müasir dövrün tələblərinə cavab verən kadrların hazırlanması yeni yanaşma və metodologiyaların tətbiqini zəruri edir, buna görə də tələbələr üçün təlim, seminar və kursların təşkil edilməsi önəmli hesab olunur. Mətbuat Şurasının sədri Rəşad Məcid isə bu cür layihələrin Azərbaycan mediasının inkişafına töhfə verəcəyini və gənc nəslin intellektual inkişafının təmin edilməsi, ictimai fəallığının artırılması, tələbələrin yüksəkixtisaslı mütəxəssis kimi formalaşması, onların sürətlə dəyişən əmək bazarında rəqabətədavamlı olmalarına xidmət edəcəyini vurğulayıb.

BDU-nun Milli mətbuat tarixi kafedrasının müdiri, professor Cahangir Məmmədli, Multimedia və elektron kommunikasiya kafedrasının müdiri Qulu Məhərrəmli, MEDİA Agentliyinin İcraçı direktorunun müavini Natiq Məmmədli, Jurnalistika fakültəsinin dekanı Vüqar Zifəroğlu, Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının professoru Akif Rüstəmov və digər çıxışçılar jurnalistika təhsilinin keyfiyyəti, mediada yeni tendensiyalar, müasir texnologiyaların tətbiqi barədə fikirlərini bölüşüblər.

Daha sonra Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılovun Jurnalistika fakültəsinin tələbələri ilə görüşü keçirilib. Əhməd İsmayılov Prezident İlham Əliyevin müvafiq Fərmanı ilə əsası qoyulmuş media islahatları barədə ətraflı məlumat verib, bu islahatların jurnalistikanın inkişafına, beynəlxalq standartlara uyğunlaşmasına böyük təsir göstərdiyini, "Media haqqında" Azərbaycan Respublikası Qanununun qəbulundan sonra həyata keçirilən dəyişikliklərin, xüsusilə media subyektlərinin iqtisadi müstəqilliyinin artırılması və vergi güzəştlərinin tətbiqinin əhəmiyyətini qeyd edib. Diqqətə çatdırılıb ki, bütün bunlar media qanunvericiliyinin təkmilləşməsi və islahatların mediamızın inkişafına verdiyi töhfələrin bir qismidir, bu proses davamlı olacaq.

# BDU-nun 105 illik yubileyi çərçivəsində Sosial elmlər və psixologiya fakültəsinin təqdimatı

***Noyabrın 28-də BDU-nun 105 illik yubileyi çərçivəsində Sosial elmlər və psixologiya fakültəsinin təqdimatı keçirilib.***

Mərasimdə çıxış edən rektor Elçin Babayev BDU ailəsinə üzvlüyün şərəfli olduğunu deyib. Bildirib ki, xüsusi formatı olan bu təqdimatlar tələbələrin təhsil aldıqları fakültələrin tarixi, korifey alimləri haqqında məlumat almaqlarına xidmət edir: “1919-cu ildə 2 fakültə ilə fəaliyyətə başlayan BDU-da hazırda 16 fakültə, 121 kafedra var, 25 mindən çox tələbə təhsil alır. Bu fakültələrin sırasında Sosial elmlər və psixologiya fakültəsinin özünəməxsus yeri və çəkisi var. Gənc fakültələrdən olmasına baxmayaraq, bu fakültə sosial inkişafımız üçün önəmli istiqamətlər üzrə mütəxəssislər hazırlayır. Hazırda BDU-da təhsil alan əcnəbi tələbələrin böyük bir hissəsi də məhz Sosial elmlər və psixologiya fakültəsinin payına düşür. Azərbaycanda ali təhsil müəssisələri arasında ilk dəfə olaraq məhz BDU-da Psixoloji yardım sektoru yaradılıb. Universitet əməkdaşlarının və tələbələrin peşəkar şəxsi inkişafı və yüksəlişinə kömək etmək, onların psixoloji müdafiəsini təmin etmək, psixi sağlamlığını qoruyub saxlamaq və gücləndirmək, tələbələrin öz qabiliyyətlərinin fərqinə varmasına yardımçı olmaq məqsədilə yaradılan sektor bu gün fakültə ilə birgə əməkdaşlıq şəraitində fəaliyyət göstərir”.

Hazırda fakültədə 1750 tələbənin təhsil aldığını deyən rektor gənclərə uğurlar arzulayıb: “BDU tələbələri tarixi ənənələri yeni çalarlar qatmaqla yaşatmalı və Universitetimizin adını daim uca tutmalıdırlar”. Sosial elmlər və psixologiya fakültəsinin dekanı, dosent Rövşən Cavadov fakültədə 8 kafedrada 6 ixtisas üzrə tədrisin aparıldığını bildirib. Qeyd edib ki, təlim-tərbiyə və tədris fəaliyyəti ilə yanaşı, hər bir kafedra müvafiq elm sahələri üzrə bir neçə istiqamətdə elmi-tədqiqat fəaliyyəti ilə məşğul olur.



Bu tədqiqatların nəticələri həm ölkədaxili, həm də beynəlxalq səviyyəli konfrans və simpoziumlarda, əməkdaşların məqalə və tezislərində öz əksini tapır. Fakültədə 79 əcnəbi tələbə və magistrant təhsil alır. Təhsilin keyfiyyətinin artırılması istiqamətində təlim və treninqlər təşkil olunur, mütəmadi olaraq ustad dərsləri, elmi seminarlar keçirilir.

Sonra Sosial elmlər və psixologiya fakültəsinin fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin məzunu olması ilə fəxr etdiyini bildirib. O qeyd edib ki, BDU-da verilən təhsil, aparılan müzakirələr, debatlar, burada formalaşan yumşaq və sərt bacarıqlar tələbələrin həyatlarının sonrakı mərhələsində, karyera quruculuğunda önəmli rol oynayır. O, fakültənin sosial tədqiqatlar istiqamətində də böyük potensiala malik olduğunu bildirib, müəllim və tələbələrə uğurlar arzulayıb.

Tədbir tələbələrin hazırladığı bədii hissə ilə davam edib.

# 17 noyabr - Beynəlxalq Tələbələr Günüdür

***17 noyabr - Beynəlxalq Tələbələr Günü kimi qeyd olunur. Beynəlxalq Tələbələr Günü tələbələrin beynəlxalq həmrəyliyi günüdür. Bu bayram tələbə gənclərin sevincli bir bayramına çevrilsə də, onun yaranma tarixi faciəli hadisələrlə bağlıdır. Bu bayram 1941-ci ildə faşizmə qarşı mübarizə aparan tələbələrin Londonda keçirilən beynəlxalq toplantısında vətənpərvər çex tələbələrinin xatirəsinə ehtiram əlaməti olaraq təsis edilib.***

1939-cu il noyabrın 17-də alman faşist işğalçılarının Çexoslovakiya Tələbələr İttifaqının rəhbərlərinin çoxunu həbs edərək güllələməsindən sonra mindən çox tələbə və ali məktəb müəllimi əsir düşərgələrinə göndərilib, ali məktəblər bağlanıb. Bu kədərli hadisənin fonunda Beynəlxalq Tələbələr Günündə ali məktəblərdə təhsil alan gənclərin həmrəyliyi, birliyi və bütövlüyü əsas mahiyyəti təşkil edir.

Məlum olduğu kimi, Azərbaycanda ilk tələbə gənclər hərəkatının formalaşması XIX əsrin sonu, XX əsrin əvvəllərinə təsadüf edir. Həmin dövrdə Avropada və Rusiyada təhsil alan azərbaycanlı tələbə gənclər Azərbaycanda təşəkkül tapan demokratik hərəkatın əsas hərəkətverici qüvvəsinə, mütərəqqi ictimai-siyasi fikrin başlıca daşıyıcılarına çevriliblər. XX əsrin əvvəllərində Azərbaycanda ictimai fikrin, elmin, təhsilin, mətbuatın, ədəbiyyatın yeni yüksəlişində, teatr, incəsənət, musiqi mədəniyyətinin təşəkkül tapmasında da tələbə gənclərin böyük xidmətləri olub. Müxtəlif dövrlərdə tələbə gənclərlə bağlı həyata keçirilən uğurlu dövlət siyasətinin nəticəsi olaraq Azərbaycanda tələbə gənclər hərəkatı daha da inkişaf edib, gənclərin ictimai-siyasi fəallığı artıb, onların ölkənin idarə olunmasında, ictimai həyatda iştirakı daha da genişlənib.

Əsasını Ümummilli Lider Heydər Əliyevin qoyduğu və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən gənclər siyasəti dövlətin əsas prioritetlərindən biridir. Bu gün Azərbaycanda tələbə gənclərə hər cür diqqət göstərilir, onların maddi rifahının və inkişafının qeydinə qalınır, gələcəyin sağlam vətəndaşlarının yetişməsi üçün insan kapitalının artırılmasına xüsusi diqqət yetirilir.

Azərbaycan gəncləri Dövlət Proqramları vasitəsilə dünyanın ən nüfuzlu universitetlərinə təhsil almağa göndərilir, ölkədə tələbələrin şəxsi inkişafının və sosial rifahının yüksəlməsi üçün müxtəlif layihələr həyata keçirilir. Bu ildən etibarən tələbələrin sosial rifahının artırılması məqsədilə Təhsilin İnkişafı Fondu və "Kapital Bank"ın birgə layihəsi olan “TələbəPlus” kartı istifadəyə verilib. İlk istifadəçiləri də elə məhz BDU tələbələri olan kart vasitəsilə 200-dən artıq şirkətdən - pərakəndə satış, geyim, yemək, qida sahələri üzrə tələbələrin ən çox müraciət etdikləri yerlərdə güzəşt və imtiyazlar, endirimlər əldə olunacaq. Mədəniyyət obyektləri, muzeylər və sərgi salonlarında da güzəştlər tətbiq ediləcək. Gələcəkdə idman, səhiyyə, nəqliyyat sahələrində də xidmətlər “TələbəPlus”a qoşulacaq.

Ölkəmizin bütün gəncləri kimi, 25 minlik tələbə kontingentinə sahib Bakı Dövlət Universiteti də əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət gənclər siyasətinin həyata keçirilməsinə öz töhfəsini verməkdədir. Tarixən Azərbaycana görkəmli siyasi xadimlər, alim və ziyalılar bəxş etmiş Azərbaycan təhsilinin flaqmanı Bakı Dövlət Universitetinin tələbə gəncləri hər zaman dövlətçiliyə bağlı, milli ruhda yetişib, ölkəmizin ərazi bütövlüyünün qorunub saxlanılması və möhkəmləndirilməsində yaxından iştirak ediblər.

Belə vətənpərvər, qəhrəman və məğrur tələbə gəncləri olan Vətən heç vaxt yenilməyəcək, daim öz şan-şöhrətini və qüdrətini qoruyub saxlayacaq və gələcək nəsillərə ötürəcək. Əminik ki, vətənpərvər gənclərimiz mənfur düşməndən azad edilmiş müqəddəs torpaqların bərpa edilməsində və çiçəkləndirilməsində də, burada müasir infrastrukturun qurulmasında da böyük xidmət və rəşadət göstərəcək, ölkə başçısının uğurla həyata keçirdiyi gənclər siyasətinə öz layiqli töhfələrini verəcəklər.

# “105 yaşlı Bakı Dövlət Universitetinin 90 yaşlı Biologiya fakültəsi”

***Noyabrın 26-da BDU-nun 105 illik yubileyi çərçivəsində Biologiya fakültəsinin “105 yaşlı Bakı Dövlət Universitetinin 90 yaşlı Biologiya fakültəsi” adlı təqdimatı keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.





Rektor Elçin Babayev Ümummilli Lider Heydər Əliyevin məzunu olduğu Universitetdə təhsil almağın hər bir tələbə üçün fəxr olduğunu və belə təqdimatların BDU-nun fakütələrinin zəngin tarixinin öyrənilməsinə xidmət etdiyini bildirib. O diqqətə çatdırıb ki, Biologiya fakültəsi BDU-nun ən köklü fakültələrindən biridir. Son illər fakültədə bir sıra islahatlar həyata keçirilib, ISESCO-nun Biotibbi materiallar kafedrası yaradılıb, ikili diplom proqramları istiqamətində uğurlar qazanılıb. Rektor fakültədə biologiyanın müxtəlif istiqamətlərinin, o cümlədən biotexnologiya, biomühəndislik sahələrinin inkişafı üçün geniş imkanlarının olduğunu vurğulayıb, beynəlxalq əlaqələrin daha da gücləndirilməsinin vacibliyini bildirib.

Biologiya fakültəsinin dekanı, professor Afət Məmmədova 90 yaşlı fakültənin fəaliyyət göstərdiyi illər ərzində biologiya elmi üzrə salnamə yaratdığını, Azərbaycan və dünyanın müxtəlif ölkələri üçün minlərlə peşəkar kadr hazırladığını bildirib. Hazırda fakültədə 6 kafedra, 13 tədris laboratoriyası fəaliyyət göstərir. Bakalavriat səviyyəsində 6 ixtisas, magistratura səviyyəsində 2 ixtisas və 20 ixtisaslaşma üzrə kadr hazırlığı həyata keçirilir, 1200-dən artıq tələbə təhsil alır. Fakültədə magistratura səviyyəsində ikili diplom proqramları Qazaxıstanın L.N.Qumilyov adına Milli Avrasiya Universiteti ilə (tədris rus dilində) və İsrailin Yerusəlim İbrani Universiteti (tədris ingilis dilində) ilə “Biotexnologiya” ixtisası üzrə həyata keçirilir. BDU-nun Genetika kafedrasının professoru Məcnun Babayev ötən əsrin 30-cu illərindən biologiya üzrə mühüm mərkəzə çevrilən Biologiya fakültəsinin Universitetin fəaliyyətində oynadığı önəmli roldan danışıb, xatirələrini bölüşüb.

Tədbir fakültənin müəllim və tələbələrinin hazırladığı bədii hissə ilə davam edib.

# BDU-da “Ekoloji kimya və ətraf mühitin mühafizəsinin müasir problemləri” mövzusunda Respublika elmi konfransı keçirilib

***Noyabrın 27-də BDU-nun 105 illik və Ekoloji kimya kafedrasının 20 illik yubileylərinə həsr olunmuş “Ekoloji kimya və ətraf mühitin mühafizəsinin müasir problemləri” mövzusunda Respublika elmi konfransı keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Açılış mərasimində çıxış edən BDU rektoru Elçin Babayev bildirib ki, bu gün Azərbaycan qlobal enerji təhlükəsizliyinin təmin edilməsi, iqlim böhranı ilə mübarizə və “yaşıl iqtisadiyyat”a keçid üçün strateji mexanizmlərin işlənib hazırlanması məsələlərində fəal mövqe tutur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Fərmanı ilə təsdiq olunmuş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də “Təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi” beş əsas Prioritetdən biri kimi götürülüb. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) Azərbaycanın ev sahibliyi etməsi və bunun nəticəsində mühüm qərarların qəbulu ölkəmizin böyük uğurudur. 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması ölkəmizin bu istiqamətdəki hədəflərinə daha tez çatmasına imkan verəcək.



Rektor diqqətə çatdırıb ki, son illərdə BDU-da ətraf mühitin mühafizəsi, iqlim dəyişmələri ilə mübarizə istiqamətində aparılan elmi-tədqiqat işləri genişlənir, ekoloji maarifləndirmə və ekoloji məsuliyyətin artırılması üçün layihələr həyata keçirilir. Universitetdə 5 kafedradan ibarət Ekologiya və torpaqşünaslıq fakültəsi, Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzində Ekoloji kimya və ətraf mühitin mühafizəsi elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərir. BDU ekoloji problemlərin həlli üzrə elmi-pedaqoji kadr potensialı və infrastrukturunu daim təkmilləşdirir və inkişaf etdirir. 2024-cü ildə ətraf mühitin mühafizəsi əleyhinə törədilmiş qeyri-qanuni əməllərin araşdırılması, bu sahədə yol verilmiş qanun pozuntularının qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının Baş Prokurorluğu, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə BDU-nun nəzdində ECOLEAD Klinikası yaradılıb. Tələbələr “yaşıl enerji”, “yaşıl texnologiyalar” sahələrində layihələr hazırlayır və müxtəlif beynəlxalq tədbirlərdə təqdim edirlər. Universitetdə açılışı olan "Eko Məkan" yeni innovativ metodlarla “yaşıl enerji” ilə “yaşıl qida” istehsalı, “yaşıl atmosfer”in formalaşdırılması yollarının tələbələrə öyrədilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Rektor qeyd edib ki, BDU-nun 121 kafedrası arasında öz məhsuldarlığı ilə seçilən Ekoloji kimya kafedrası 2004-cü ildə Kimya fakültəsinin nəzdində akademik Rəfiqə xanım Əliyevanın təşəbbüsü ilə yaradılıb. Yarandığı dövrdən kafedraya professor Sevinc Hacıyeva rəhbərlik edir. Ekoloji kimya kafedrasının xüsusilə Qarabağ, Şərqi Zəngəzur, Abşeron gölləri, Kür çayının ekoloji, kimyəvi tədqiqi ilə bağlı araşdırmaları mühüm əhəmiyyət daşıyır. Kafedrada korroziyaya davamlı yeni üzvi birləşmələrin sintezi, tullantı sularının təmizlənməsinin yeni metodları, bir sıra ağır metal ionlarının miqdarının təyini və qatılaşdırılaraq ayrılmasını təmin edən yeni metodikaların işlənib hazırlanması mövzusunda geniş tədqiqat işləri aparılır. Kafedra əməkdaşları tərəfindən 35-dən çox dərslik və dərs vəsaiti, 550-dən artıq elmi əsər nəşr edilib.

Ekologiya və torpaqşünaslıq fakültəsinin dekanı Akif Ağbabalı Ekoloji kimya kafedrasının tarixinə nəzər salıb, son illər yaradılan yeni ixtisas və ixtisaslaşmalar haqqında məlumat verib. Ekologiya və torpaqşünaslıq fakültəsində ən çox doktorant qəbulu məhz Ekoloji kimya kafedrası tərəfindən həyata keçirilir. Doktorantlar, gənc tədqiqatçılar kafedrada tədris prosesinə cəlb olunur. Akif Ağbabalı qeyd edib ki, konfransa 30-dan çox təşkilatdan 206 elmi məqalə daxil olub, onlardan 178 tezis-məqalə nəşr üçün qəbul edilib.

Daha sonra Ekoloji kimya kafedrasının müdiri, professor Sevinc Hacıyeva kafedranın tarixi, tədris və elmi fəaliyyəti, beynəlxalq əlaqələrindən bəhs edib. O bildirib ki, Azərbaycanda ekoloji kimyanın təməlini akademik Rəfiqə xanım Əliyeva qoyub. Ekoloji kimya kafedrası 2004-cü ildə Kimya fakültəsinin nəzdində akademik Rəfiqə Əliyevanın təşəbbüsü ilə yaradılıb, ilk yarandığı dövrdə Ekoloji kimya kafedrası həmin ixtisas üzrə tələbə qəbulu həyata keçirib. 2011-ci ildən Ekologiya və torpaqşünaslıq fakültəsinin yaradılması ilə həmin fakültənin nəzdində fəaliyyət göstərməyə başlayıb. 20 illik fəaliyyəti dövründə kafedra Azərbaycan və dünyanın müxtəlif ölkələri üçün peşəkar kadrlar hazırlayıb, 26 nəfər fəlsəfə doktoru, 7 nəfər elmlər doktoru elmi dərəcəsi qazanıb. Fəaliyyəti dövründə kafedra əməkdaşları 23 patent alıb, 7 qrant layihəsinin qalibi olublar. Son illərdə kafedrada korroziyaya davamlı yeni üzvi birləşmələrin sintezi, tullantı sularının təmizlənməsinin yeni metodları və kimyəvi ekologiya sahəsində elmi-tədqiqat işlərinə xüsusi diqqət yetirilir. Bildirilib ki, hazırda kafedra əməkdaşları əsasən işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur regionlarında ətraf mühitin vəziyyətinin ekoloji, kimyəvi tədqiqi üzərində çalışırlar.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İradə Hüseynova, Elm və Təhsil Nazirliyinin akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutunun baş direktoru, akademik Vaqif Fərzəliyev, Radiasiya Problemləri İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü İslam Mustafayev, akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun baş direktoru, akademik Vaqif Abbasov çıxışlarında Ekoloji kimya kafedrasının yubileyini təbrik edib, ölkəmizdə ekologiyanın qorunması, ekoloji savadlılıq, “yaşıl təhsil” istiqamətində mühüm fəaliyyətində uğurlar arzulayıblar.

Konfrans işini 9 bölmə iclasında 2 gün davam edib.

**Buraxılışa məsul:**
Afaq Sadıqova

**Redaksiya heyəti:**
Əliş Ağamirzəyev
Vüqar Əliyev
Cahangir Məmmədli
Qulu Məhərrəmli
Xatirə Hüseynova
Samir Mirzəyev
Günel Orucəliyeva

**Dizayn - tərtibat:**
Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.

**Çapa imzalanıb:**
29.11.2024
**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:**
(+994 12) 538 42 08